Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 3 (6046) 26 yanvar 2024-cü il | Qiyməti 40 qəpik

# AH ZALIM DOSTLAR, ZALIM QARDAŞLAR




Bax:səh-3

## Nazir: "Polis və Daxili Qoşunlar Böyük Qayıdış proqramının reallaşması üçün əzmlə çalışır"



**Daxili İşlər Nazirliyində 2023-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunan geniş Kollegiya iclası keçirilib.**

Adalet.az xəbər verir ki, iclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələrin baş verdiyini, bunların arasında Azərbaycanın bütün ölkə ərazisində dövlət suverenliyinin bərpasının mühüm yer tutduğunu diqqətə çatdırıb.

Nazir vurğulayıb ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanan Vətən müharibəsində qazanılan Zəfərdən və ötən il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə Xankəndi, Xocalı, Ağdərə və digər ərazilər düşməndən azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük Qayıdış proqramının reallaşması üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir, təhlükəsizliyi etibarlı təmin edirlər.

Antiterror tədbirlərində 12 hərbi qulluqçunun və 8 polis əməkdaşının şəhid olduğunu vurğulayan nazirin təklifi ilə şəhidlərin xatirəsi ehtiramla yad edilib.

## Elçin Əmirbəyov: "Fransa mədəni körpüləri yandırdı"



**Fransanın Azərbaycanla mədəni körpüləri yandırması ən son addımdır.**

Adalet.az xəbər verir ki, bu barədə Fransanın "Le Monde" qəzetinə müsahibəsində XIX əsr Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 2017-ci ildə fransız Evianında qoyulmuş abidəsinə qarşı ötən il dekabrın 30-da törədilən vandalizm aktını pisləyən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib. Fransanın Azərbaycana münasibətdə təəccüb və dərin təəssüf hissi doğuran fəhmsiz davranışını xatırladan Prezidentin nümayəndəsi qeyd edib ki, "xarici ölkələrlə münasibətlərimizin tarixində ilk dəfə hər hansı bir ölkə ikitərəfli münasibətlərimizə əsaslanmayan və erməni diasporunun təzyiqi altında bu qədər çoxlu sayda qərəzli qətnamələr qəbul edir". Paris ilə Bakı arasında münasibətlərdə davam edən diplomatik böhrana həsr olunmuş yazıda bu il yanvarın 18-də Milli Məclisin Fransa Senatının bir gün əvvəl qəbul etdiyi növbəti anti-Azərbaycan qətnaməsinə reaksiyası qismində Azərbaycan hökumətinə Fransa ilə bütün iqtisadi əlaqələri kəsmək barədə çağırışı da xatırladılır.

## "MƏN BURDAYAM, İLAHİ!"

**Bu günlərdə İctimai Televiziyada bu adda maraqlı bir film nümayiş etdirdilər. Müharibənin yaratdığı ağrı-acıları o qədər məharətlə ifadə**




**edə biliblər ki, tamaşaçı da həmin ağrı-acıları yenidən yaşayır. Filmin ssenari müəllifi Nicat Dadaşov, rejissoru Qulu Əsgərov, operatoru Vasif Vəlizadə, baş rolun ifaçısı isə Rasim Cəfərovdur.**

**Belə filmlərə çox böyük ehtiyacımız var. Filmin bütün yaradıcı heyətinə və filmə dəstək verdiyinə görə İctimai Televiziyanın rəhbərliyinə oxucularımız adından təşəkkür edirik.**

## BOMBA KİMİ XƏBƏR





**İki gündür saytlarda və sosial şəbəkələrdə bomba kimi bir xəbər paylaşırlar. Metropolitenin rəisi imicini dəyişib. Dəyişib dəyişib də, bunun dövlət üçün, millət üçün, bu xalq üçün nə əhəmiyyəti var?**

Belə xəbərlər tez-tez paylaşılır: "Şok! Şok! Şok!" Açıb oxuyursan fındıq, özü də boş, çürümüş.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

# ONU BAĞIŞLAMAQ OLARMI?



***O, bəlkə də yeganə azərbaycanlı idi ki, Hollivudun İstanbuldakı akademiyasının rejissorluq fakültəsini bitirmişdi. O, kinoya təmiz başqa gözlə baxırdı. Çəkəcəyi filmləri də başqa rejissorların filmlərindən tamamilə fərqlənəcəkdi. Təəssüf ki, hələlik bircə film çəkə bildi: "Geyilməmiş ayaqqabılar".***

***O, Qarabağın azad olunacağına Allaha inandığı qədər inanırdı. "Geyilməmiş ayaqqabılar" filmi də bu inancdan doğurdu. Hələ onda Qarabağ azad olunmamışdı, Xankəndində bayrağımız ucaldılmamışdı. Filmdə isə Xankəndi azad olunur, iki ayağını müharibədə itirmiş gənc geyilməmiş əsgər ayaqqabılarını Xankəndindəki muzeyə bağışlayır.***

Bax:səh-3

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı sehirli çıraq tapır. Üstünün tozunu siləndə Cin çıxır və deyir ki, "Üç arzunu də yerinə yetirim". Vəli:

**-Ayə bayaqdan adam tapmıram, gəl bir yarım araq içək, sonrasına baxarıq.**

Yarım araq qurtarır, Cin:

**-İkinci arzunu de.**

Vəli:

**-Ayə, gəl bir yarım da içək.**

İkinci yarım da qurtarır. Cin:

**-Bax, bu sonuncu arzudur, var-dövlət, villa, pul, nə istəyirsən de.**

Vəli:

**-Ayə, neyneyrəm var dövləti? Dünyada yeyib-içmək qalajax. Bir yarım da gəlsin, vuraq gedək işimizin dalınca.**

# Məhəmməd Füzulinin 530 illiyi qeyd ediləcək



**Prezident İlham Əliyev dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

Trend xəbər verir ki, sərəncamda deyilir:

"2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər.

Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur. Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin"

# Mediasiyanın tətbiq dairəsi dəyişib

**Prezident İlham Əliyev "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsinə dair təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

# Azərbaycan AŞPA-da iştirakını dayandırdı

**Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib.**

Adalet.az bəyanatı təqdim edir.

"Azərbaycan Respublikası qürurlu, müstəqil, suveren, demokratik və multikultural bir dövlətdir. Demokratiya bizim şüurlu seçimimizdir və biz 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanda insan hüquqlarının müdafiəsi və qanunun aliliyinin təmin edilməsi istiqamətində böyük irəliləyişlərə nail olmuşuq.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) əsas məqsədi müxtəlif ölkələrin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq üçün platforma olmaqdan ibarətdir.

Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olanda insan haqlarını və qanunun aliliyini müdafiə etmək məqsədi daşıyan bu təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən hərbi təcavüzə və işğala məruz qalması nəticəsində hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpasında Azərbaycana kömək edəcəyi və beləliklə regionda davamlı sülhün əldə olunması naminə ədalətin öz yerini tutacağı barədə səmimi bir ümid və gözlənti var idi.

2001-ci ildən 2020-ci ilə qədər olan 19 il ərzində AŞPA işğalçı dövləti - Ermənistanı Avropa Şurasının əsas dəyər və prinsiplərinə zidd



hərəkətlərinə görə cavab vermək barədə qınamayıb. Burada söhbət xüsusilə etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin insan haqlarına qarşı açıq-aşkar hörmətsizlikdən gedir.

Azərbaycanın təcavüz, işğal və zorakı separatizm üzərində tarixi Qələbəsindən, ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasından sonra biz Azərbaycanı ləkələmək, Azərbaycan xalqına uzun müddətdir inkar edilən ədalətin bərpası istiqamətində ölkənin əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün təşkil olunmuş qarayaxma kampaniyası ilə üz-üzəyik. Təxminən 20 ilə yaxın müddətdə Azərbaycan nümayəndə heyəti erməni işğalının ağır nəticələrini gündəmə gətirərkən bizə deyirdilər ki, AŞPA münaqişə ilə bağlı məsələlərin müzakirəsi üçün düzgün format deyil. İndi isə həmin AŞPA və həmin deputatlar bunun əksini deyir və Azərbaycana hücum etmək üçün heç bir fürsəti əldən vermirlər. Beynəlxalq hüququn selektiv şərhi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərə fərqli yanaşma bu biabırçı təklifin müəlliflərinin rüsvayçı və ikiüzlü xarakterini nümayiş etdirir.

Təəssüf ki, AŞPA-dan bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunur. Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə edirlər. AŞPA-da siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbürlülük, şovinizm hökm sürən praktikaya çevrilib. Biz Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək təşəbbüsünü bu çirkin kampaniyanın tərkib hissəsi kimi dəyərləndiririk. Biz, həmçinin bu təşəbbüsü Azərbaycanda hazırda gedən seçki prosesinə əsassız müdaxiləyə yönəlmiş məqsədyönlü və qəbuledilməz cəhd, ölkəmizdə demokratik təsisatların fəaliyyətinə xələl gətirən məkrli addımların bariz nümunəsi kimi qiymətləndiririk.

Nümayəndə heyətimizin etimadnaməsini ratifikasiya etməkdən imtina ilə bağlı təklif bütövlükdə Avropa Şurasının etibarlılığına və qərəzsizliyinə ciddi zərbə olacaq, bunun ciddi və geri dönməz nəticələrinə görə məsuliyyət tamamilə onun təşəbbüskarlarının üzərinə düşəcək.

Dünyada heç kim, o cümlədən bu zalda əyləşənlər Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməzlər. AŞPA-nın tarixində heç vaxt bu təşkilat özünü belə biabırçı şəkildə aparmayıb.

AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib".

**Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.**

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası keçirilib

**2024-cü il yanvarın 22-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin ilk iclası keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyini, ölkəmizin baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35% azaldılması öhdəliyini götürdüyünü, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, habelə Naxçıvan Muxtar Respublikasının "Yaşıl enerji" zonası elan edildiyini bildirib. Samir Nuriyev Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın ətraf mühitin qorunması və qlobal iqlim dəyişmələri sahəsində beynəlxalq səyləri daim dəstəklədiyini və bu prosesə töhfələr verdiyini vurğulayıb. Samir Nuriyev Azərbaycanda iqlim dəyişmələrinə qarşı həyata keçirilən fəaliyyətin beynəlxalq aləmdə təqdir edildiyini və dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasının ölkəmizdə keçirilməsi barədə yekdil qərarın qəbul edilməsinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizə beynəlxalq səviyyədə olan hörmət və etimadın bariz göstəricisi kimi dəyərləndirildiyini bildirib. Təşkilat Komitəsinin sədri 2023-cü il dekabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin COP29-la bağlı keçirilmiş müşavirədə hazırlıq işlərinə dərhal başlanılması barədə verdiyi tapşırığa



toxunaraq, tədbirin ən yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi tədbirlərin görüləcəyini bildirib.

S.Nuriyev bu həftə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinin Azərbaycana texniki missiya göndərəcəyini, dialoq şəraitində hazırlıq işlərinin aparılacağını bildirib və COP29-un təşkil edilməsi məqsədilə bütün aidiyyəti sahələrdə ehtiyacların qiymətləndirilməsinin zəruriliyini qeyd edib. Samir Nuriyev, eyni zamanda, beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü və etibarlı tərəfdaş kimi Azərbaycanın əvvəki illərdə COP-a ev sahibliyi etmiş ölkələrlə təcrübə mübadiləsi apardığını bildirib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Azərbaycan Prezidenti İlham Əliyevin COP29-la bağlı verdiyi tapşırıqların icrası istiqamətində görülmüş işlər barədə məlumat verib və ölkəmizin COP29-a hazırlıq prosesində dövlətlər, beynəlxalq təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti, yerli və beynəlxalq media və digər tərəf müqabilləri ilə konstruktiv əməkdaşlığa və dialoqa hazır olduğunu vurğulayıb.

Daha sonra Təşkilat Komitəsinin üzvlərinin gündəlikdə duran məsələlər üzrə məruzələri dinlənilib.

**İclasın sonunda Təşkilat Komitəsinin Katibliyinin, COP29 prezidentinin, Baş danışıqçının heyətinin, Əməliyyat şirkətinin fəaliyyəti, COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının yekunlaşdırılması və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.**

# ONU BAĞIŞLAMAQ OLARMI?




*O, bəlkə də yeganə azərbaycanlı idi ki, Hollivudun İstanbuldakı akademiyasının rejissorluq fakültəsini bitirmişdi. O, kinoya təmiz başqa gözlə baxırdı. Çəkəcəyi filmləri də başqa rejissorların filmlərindən tamamilə fərqlənəcəkdi. Təəssüf ki, hələlik bircə film çəkə bildi: "Geyilməmiş ayaqqabılar".*

*O, Qarabağın azad olunacağına Allaha inandığı qədər inanırdı. "Geyilməmiş ayaqqabılar" filmi də bu inancdan doğurdu. Hələ onda Qarabağ azad olunmamışdı, Xankəndində bayrağımız ucaldılmamışdı. Filmdə isə Xankəndi azad olunur, iki ayağını müharibədə itirmiş gənc geyilməmiş əsgər ayaqqabılarını Xankəndindəki muzeyə bağışlayır. Filmdəki bütün epizodlar başdan-ayağa simvollarla verilir: top da, futbolçular da. Futbolçuların hər birinin köynəyində hansı ölkəyə mənsub olduqları yazılıb: Amerika, Rusiya, Fransa, İran. Top isə Qarabağdır. Yalnız birinin kürəyinə Türkiyə yazılıb ki, o da bu topu qorumağa çalışır. Bu da Qarabağ uğrunda böyük bir müharibə olacağını və bu müharibədə ATƏT-in həmsədr ölkələrinin deyil, yalnız Türkiyənin Azərbaycanın yanında olacağına simvolik bir işarə idi. Həyat da bunu sübut elədi.*

*45 dəqiqəlik filmdə anasının iki ayağını itirmiş oğlunu səsləməkdən başqa bir danışıq yoxdu.*

*Film haqqında çox yazmaq istəmirəm. Məqsədim başqa şeydir. Amma çox təəssüf ki, ölkədə iyirmiyə qədər televiziya kanalı olsa da heç biri bu filmə müraciət etməyib.*

*O, özünün Bakıdakı evini satıb bu filmi ərsəyə gətirmişdi.*

*Söhbət Azərbaycanda hamının Drakon kimi tanıdığı Rza Rzayevdən gedir. O, dövlət məmuru idi, Naxçıvan nümayəndəliyində işləyirdi. Qatı Heydər Əliyevçi idi. Onun üçün dünyada Heydər Əliyevdən böyük şəxsiyyət yox idi. Daim mətbuatda Heydər Əliyevin dahiliyi, müdrikliyi, böyüklüyü haqqında ciddi və maraqlı yazılarla çıxış edirdi.*

*Elxan Cəfərov "Dolu" filmini çəkməyə başlayanda onu dəvət etmişdi ki, Drakon obrazını yaratsın. Təəssüf ki, Naxçıvan nümayəndəliyinin o vaxtkı rəhbərliyi bütün xahişlərə baxmayaraq, icazə verməmişdi ki, dövlət məmurudu. O da Qarabağ haqqında çəkilən filmin xatirinə ərizə yazıb işdən çıxmışdı. Və sonra ömürlük kinoya bağlanmışdı. "Dolu" filmindən sonra da İstanbula Hollivud Akademiyasının rejissorluq fakültəsinə oxumağa getdi. Rejissor kimi də ilk filmi "Geyilməmiş ayaqqabılar" oldu. Başqa bir filmi isə həbsxanaya düşdüyündən yarımçıq qaldı.*

*Azərbaycanda bircə Nodar Şaşıkoğlunu "Uzaq sahillərdə" filmindən sonra hamı Mixaylo çağırırdı. Rza Rzayevə də "Dolu" filmindən sonra yaratdığı əvəzsiz Drakon obrazına görə hamı "Drakon" deyə müraciət edirdi.*

*Həbsxana həm də ora düşmüş adamları islah etmək üçündür. Drakon isə islah olunmuş adamdır - ziyalıdır, jurnalistdir, aktyordur, rejissordur. Və baş verən təsadüfi hadisə-qədərdə heç bir günah işlətməmişdi. Nədənsə hakimlər bütün bu halları nəzərə almadılar.*

*Onunla "Dolu" filminin çəkilişi zamanı İsmayıllıda tanış olmuşdum. İlk baxışda bir az kor-kobud göründü, amma sonradan gördüm ki, bu ucaboylu, enlikürək oğlanın ürəyi körpə uşaq ürəyi kimi safdır, tərtəmizdir. Tanış olduğum gündən həbsə düşənə qədər ondan bir kobud, kiminsə xətrinə dəyəcək bir söz eşitmədim. Mən bir az bütün qarabağlılar kimi hərcayi, latayır danışanam. Kino çəkilən zaman çörək yeyəndə də zarafatlarımdan qalmırdım. Baxırdım ki, hərcayi danışan mən, utanıbqızaran Drakondu. Hətta bir-iki dəfə məndən xahiş eləmişdi ki, mən olan məclisdə xahiş edirəm, kobud danışma.*

*İndi fikirləşin, görün ürəyi körpə uşaq ürəyi kimi saf olan bu oğlanı nə həddə çatdırıblar ki, kiməsə əl qaldırsın. Nədənsə hakimlər bunu da nəzərə almadılar. Canları sağ olsun. Onlar qanunla işlədilər, amma qanunda da yüngülləşdirici hallar var. Nədənsə o hallara müraciət etmədilər. Üç il o qədər də böyük bir müddət deyil. Drakon onun bir ilini yatıb və bu günədək də heç kimə müraciət etməyib, bu barədə də mətbuata bir yazı ötürməyib. Çünki bu onun xarakterində yoxdu.*

*Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev prezident seçiləndən sonra bu 20 il müddətində indiyədək nə qədər əfv sərəncamları imzalayıb. Nə qədər dustağı ailələrinə qovuşdurub, ailələrinin sevincinə nail olub. Prezidentimizin humanistliyi təkcə Azərbaycanda deyil, bütün dünyada tanınır və xoş qarşılanır.*

*Mən də Möhtərəm Cənab Prezident İlham Əliyevin humanistliyinə hamıdan çox inanıram. Və inanıram ki, Möhtərəm Prezidentə əgər Rza Rzayev haqqında dəqiq məlumat verilərsə, onu əfv edər. İstəməz ki, bir ziyalı, bir jurnalist və aktyor, tanınmış bir rejissor hansısa etdiyi hövsələsizliyə görə həbsdə yatsın.*

*Qardaşım Drakon (Rza Rzayev), göydə Allah, yerdə Möhtərəm Prezident qapını açsın!*

***P.S.** "Geyilməmiş ayaqqabılar" filmini bu gün və sabahkı saytımızda sizlərə və telekanallarımıza təqdim edirik.*

# AH ZALIM DOSTLAR, ZALIM QARDAŞLAR

*Təbii ki, Avropa bizə lazımdı, mədəni, iqtisadi əlaqələrimizi genişləndirməliyik. Avropadan çox şey öyrənməliyik, amma ikiüzlülüyü yox.*

*Atatürkün məşhur bir kəlamı var. Bir dəfə xarici ölkələrin dövlət və hökumət başçılarına ziyafət verirmiş. Qəhvə gətirən qarson məclisdəkiləri görüb gözü böyüyür və çaşır, yıxılır, qəhvə dağılır.*

*Atatürk yaxınlaşır qarsona, əlindən tutub yerdən qaldırır. Və bu səhnəyə ironiya ilə baxan avropalılara üzünü tutub deyir:*

*- Mən bu millətə hər şey öyrətdim, bircə nökərçilikdən başqa.*

*İndi avropalılar bir çox şey tələb edə bilər, amma ikiüzlülüyə, kiminsə qarşısında əyilməyə, nökərçilik eləməyə məcbur edə bilməz.*

*Amma bir məsələni düz deyirlər. Doğrudan da Azərbaycan insan haqlarını pozur. Əfqanıstanı bombalayır, İraqı, Suriyanı darmadağın edir, Yəməni raket atəşinə tutur. Demokratiya adı altında Rusiya ilə Ukraynanı savaşdırır, İraqın prezidenti Səddam Hüseyni tutub asır, Liviyanı parçalamaq cəhənnəm, hələ prezidenti Müəmmər Qəddafini günün-günorta çağı üsyançılara verib öldürdür, Tayvanı Çinə qarşı qaldırır, Nigeriyada, Efiopiyada vətəndaş müharibəsi salır. Afrikadan Avropaya qaçmaq istəyən köçkünlərin mindikləri gəmiləri, qayıqları vurub batırır. Fransada hökumətin səhv siyasətinə etiraz edən insanları atla tapdalayır, polis dəyənəyinin altına salır. Meksika ilə Amerikanın sərhədində 6 metr hündürlüyündə hasar çəkir.*

*Adam qorxmaya rəhmətlik Şamil Qurbanovun söylədiyi kimi deyə ki:*

*- Avropa Şurası da qudurub, Makron da, Avropa İttifaqının prezidenti Mişel də.*

*Amma neyləyim, yetim oğlanam.*

*Yadıma Qulam Məmmədlinin Naxçıvanla bağlı bir xatirəsi düşdü.*

*Deməli, rəhmətlik Qulam müəllim gedir Naxçıvana, ateizmlə bağlı mühazirə oxuyur. Mühazirəni qurtarandan sonra zaldan bir gənc oğlan qalxır və soruşur:*



*- Kimə arxayın olub deyirsən ki, Allah yoxdur.*

*Qulam Məmmədli:*

*- İki yüz otuz milyonluq Sovet xalqına.*

*Gənc oğlan:*

*- Sən iki yüz otuz milyonluq Sovet xalqına arxalanıb deyirsən Allah yoxdur, indi bu zalda dördcə nəfər qalxıb dayansın mənim arxamda iki gözünü bir deşikdən çıxarıb sübut edim ki, Allah var.*

*İndi mənim də arxamda, naxçıvanlı gəncin sözü olmasın, dördcə nəfər dostum dursa mən də qorxmaram.*

*Ah zalım dostlar, zalım qardaşlar...*

# ZİBİLƏ DÜŞMÜŞÜK EY!

**Dünən tanınmış ziyalı, aktyor, rejissor Rza Rzayev haqqında içimdən gələn bir köşə yazmışam. Həbsxanada yatan bu mərd oğlanın tezliklə göydə Allah, yerdə Möhtərəm prezident cənab İlham Əliyevin qapısını açmağı arzulamışam. Rzanı sevən, onu yaxşı tanıyan dostlar sosial şəbəkələrdə bu köşəni paylaşıblar. Və məqalənin altında da müxtəlif ziyalılar Drakona arzu və istəklərini yazıblar.**

Görünür, Drakonun azadlığa çıxması kimlərisə bərk narahat edir. Və Mark müəllimə şikayət ediblər. Mark müəllim də gözünə döndüyüm bu paylaşımları 20-25 dəqiqədən sonra silib və bloklayıb. Sağ olsun, Allah atasının yanındakılara rəhmət eləsin. Şikayətin hardan gəldiyini də gözəl bilirəm, amma yazmıram. İndi həqiqətən qorxuram, o dəqiqə qarğa-quzğun kimi trolları tökülür üstümə. Mən də yetim oğlan və özü də tək, onlarla mübarizə apara bilmirəm. Heç dövlət də onlarla mübarizə apara bilmir.

Eybi yox, həbsxana da bir həyat dərsidi, özü də yaradıcı adam üçün başqa bir dərsdi.

Drakon aldığı cəzanın bir ilini çəkib, altı aydan sonra Penitensiar xidmət ona yüksək xasiyyətnamə versə, bu da labüddür, çünki Drakon həbsxanada olduğu müddətdə rejimin heç bir qanununu pozmayıb və pozmaz da, buna onun tərbiyəsi yol verməz. Ola bilsin bu xasiyyətnaməni ala bilməsin, lap elə üç il yatsın, nə olacaq? Üç ildən sonra yenə azadlığa çıxacaq. Yenə Ulu Öndər Heydər Əliyevdən yazacaq, Qarabağı azad eləmiş Möhtərəm Prezidentdən yazacaq, yenə yeni filmlər çəkəcək, yeni ssenarilər yazacaq. Ola bilsin bu, budəfəki filmin adını "Geyilmiş ayaqqabılar" qoysun. O geyilmiş ayaqqabılar ki, Şuşada, Xankəndində möhtəşəm addımlarla Zəfər paradı keçirirlər.

Dostum Drakon, sən Drakonsan. Drakon çaqqal-çuqqallardan qorxmaz və sən də qorxmamısan.

Yenə deyirəm, göydə Allah, yerdə Möhtərəm prezident cənab İlham Əliyev qapını açsın.

Trollar, söz indi sizindi.

**"Yeni çağ" saytının baş redaktoru Aqil Ələsgər, hardasan, səni gözləyirəm...**

# OĞLUYUN FİLAN YERİNƏ Kİ!

İki qarabağlı rastlaşır. Biri o birisinə deyir:

**- Qaqa, xəbərin var, Fransa senatı bizim əleyhimizə yenə bir qətnamə çıxarıb.**

O biri qarabağlı:

**- Cəhənnəmə çıxarsın. Oğluyun filan yerinə ki.**

Fransa yenə başından böyük qələt edib Azərbaycanın əleyhinə mənasız bir qətnamə çıxarıb. Deyəsən, bu fransızlar axmaqdı. Bilmirlər ki, biz onların əleyhinə qətnamə çıxarsaq, ortalıqda qalırlar.

Rusiya Fransanı vurub Afrikadan çıxarandan sonra əllə-



r i

urandan çıxıb. Atom Elektrik Stansiyalarını işlətmək üçün indi uranı Qazaxıstandan almaq məcburiyyətindədirlər. Məlumdur ki, uranı təyyarə ilə aparmaq olmaz, ya qatarla, ya da gəmiylə daşıyarlar.

Qazaxıstandan da Fransaya iki yol var: biri Rusiyadan keçir ki, o yol da fransızların üzünə bağlıdı. Yeganə yolu qalıb, o da Azərbaycan. Biz də hirslənib bu yolu bağlasaq təkcə Fransa yox, həm də Almaniya işıqsız qalar. Çünki Almaniyada çoxdan Atom Elektrik Stansiyalarını bağlayıblar, enerjini Fransadan alır.

**Gör neyləyirsən, Komutan!**

# Ekspert: "Ciddi bir dəyişikliyin olmadığını görürük"



**Əhalinin çox hissəsi öz həyatlarını günün müəyyən saatlarında avtobus və taksi sürücülərinə etibar edirlər. Bəs bu sürücülər nə dərəcədə etibarlıdır? Sükan arxasında yuxulayan, spirtli içkilərdən istifadə edərək maşın idarə edən sürücülər də günümüzdə az deyillər. Bununla bağlı qanuni tədbirlər görülsə də,qəzaların sayı gündən- günə artır.**

Təyin olunmuş iş saatından artıq onların işləməsi insan ölümü ilə nəticələnən bədbəxt hadisələrə yol açır. Hələ hadisə zamanı təcili tibbi yardımın hadisə yerinə vaxtından gec çatması isə bir başqa problemdir. Bu da illərdir həllini tapmır.

Bəzən taksi sürücülərinin həddindən artıq maşını yüksək sürətlə idarə etməyi bədbəxt hadisəni bir addım da yaxınlaşır. Sanki taksi sürücüləri bir-birləri ilə yarışırlar. Ancaq bu "yarış" bəzən kimlərinsə son qoyur.

Məsələ ilə bağlı nəqliyyat üzrə ekspert Elməddin Muradlı Adalet.az-a danışıb.

Ekspertin sözlərinə görə, son vaxtlar daha çox taksi sürücüləri qəzalara səbəb olur. Bu siyahıya mikroavtobusları da əlavə etmək olar. "Ümumiyyət, bu mövzu narahatlıq doğuran məqamlardan biridir. Təəssüflər olsun ki, yük avtobuslarının iştiraki ilə də qəzalar baş verir. Bakı Dövlət Yol Polis İdarəsi bu barədə müvafiq müraciətlər edir. Aidiyyatı üzrə daşıyıcı fəaliyyətiylə məşğul olan şəxslərə xəbərdarlıq edilir ki, sürücülərin iş və istirahət rejiminə əməl olunsun. Avtomobillərin texniki vəziyyəti nəzarətdə saxlanılmalıdır. Üstəlik digər zəruri tədbirlər görülməlidir. Bütün bu xəbərdarlığa rəğmən, ciddi bir dəyişikliyin olmadığını görürük".

Elməddin Muradlı qeyd edib ki, məsələ ilə bağlı ciddi inzibati tədbirlərin görülməsinə çox ehtiyac var. "Cərimələr sərtləşdirilməlidir, nəzarət mexanizmi gücləndirilməlidir. Xüsusən, taksi fəaliyyətiylə bağlı təkminləşdirilmə işi aparılmalıdır.

Yük və sərnişin avtobuslarıyla bağlı nəzarət mexanizmi güclənməlidir. Burda əsas məsələ iş və istirahət rejimi ilə bağlıdır. Bu məsələni həll etmək üçün tək-tək fərdlərlə ünsiyyətdə olmaq mümkünsüzdür. Bunun əsas həlli yolu taxoqrafların həmin nəqliyyat vasitələrinə qoşulmasıdır. Belə olan halda həmin nəqliyyat vasitələrinin idarə olunmasına nəzarət etmək olar".

Taksi sürücüsü Səxavət Əliyev deyir ki, taksi şirkətlərində qiymətlərin çox ucuz olması sürücüləri daha çox işləməyə məcbur edir:

"Qiymətlər olduqca aşağıdır. Bu səbəbdən də taksilər daha çox işləməyə məcbur olurlar. Çünki onların bir çoxu avtomobili icarəyə götürməklə fəaliyyət göstərirlər. Nəzərə alaq ki, benzinin qiyməti kifayət qədər bahadır. Sürücü qiymətlərdən şikayət etməyib, bəs nə etsin?

Məlum məsələdir ki, qiymətlərin ucuz olması sərinişinə xeyirdi. Ancaq biz taksilər üçün bu vəziyyət heç də ürəkaçan deyil. Hamı deyir ki, səni qane etmirsə işləmə. Mən 40 ildir taksi sürücüsüyəm. Bu illərdən sonra başqa hansı işlə məşğul ola bilərəm?

Əlbəttə, yuxusuzluq yol qəzalarına, bədbəxt hadisələrə gətirib çıxarır. Ancaq hər bir sürücü sükan arxasında çox diqqətli olmalıdır.

Çünki bədbəxt hadisə zamanı sərnişinlə yanaşı, sürücünün həyatı da təhlükədə olur. Çox vaxt naşı sürücülər yol qəzalarına səbəb olur. Maşın sürməyə yenicə başlayan insan, bir də görürsən ki, taksi sürücüsü işləyir. Hər hansı bir çətin vəziyyət yarananda da, çıxılmaz halda qalırlar. Düşünürəm ki, taksi şirkətləri sürücünü işə götürəndə onun sürücülük stajına baxmalıdır."

**Əntiqə Kərimzadə**

## Bakıda tıxaclar

**Bu gün dünyanın çox böyük şəhərlərində avtomobil tıxacları olur.**

Bu, Bakıdan da yan keçməyib. Çünki paytaxtın əksər küçə və prospektlərində hər gün səhər və axşam saatlarında belə tıxaclar yaranır. Və bu tıxaclar vaxtı insanlar avtomobillərdə saatlarla



tıxacda qalır, əsəbləşir , əlavə yanacaq sərf edir. Aydındır ki, şəhərdəki tıxacları aradan qaldırmaq üçün yol polisi və eləcə də digər qurumlar qabaqlayıcı tədbirlər həyata keçirir. Amma bunlar problemi qismən həll etsə də , çətinliklər tamamilə aradan qaldırılmır.

Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Toğrul Nəsirli bildirir ki, yol polisi paytaxtda mütəmadi olaraq səhər və axşam saatları tıxac olan yerlərdə xidməti gücləndirir və qabaqlayıcı tədbirlər görür.Amma gərək sürücülər də işləri yoxdursa,hərəkət axını çox olan küçələrdə və prospektlərdə problem yaratmasınlar.

Valideynlər uşaqları məktəbə öz avtomobillərində deyil, metro və avtobuslarla aparsınlar. Bəzən bir evdən dördadamın hər bir öz avtomobili ilə şəhərin mərkəzinə gəlir. Ümumiyyətlə, lazım oldu, olmadı, bizim bir çox sürücülər mərkəzi küçələrdə hərəkət edirlər. Heç şübhəsiz bu da tıxaclara münbit şərait yaradır. Bir daha sürücülərdən xahiş edirik ki, ehtiyac olmadığı halda şəhərin mərkəzinə gəlib tıxac yaratmasınlar!

## Tüstü- bacalar 33 ildir təmizlənmir...



**Bu gün ölkəmizdə, o cümlədən Bakıda dəm qazından zəhərlənərək ölənlərin sayı onlarladır.**

Səssiz ölümün gəlişini heç kim hiss etmir. Sadəcə olaraq bir də görürsən ki, bir gecədə neçə insan dəm qazının hamam otağına dolması nəticəsində boğuldu. Təəssüf ki, onların belə vəziyyətdə bəzilərinin həyatını həkimlər xilas etsə də, əksəriyyətinə kömək etmək mümkün olmur.

Faciənin baş etməsinin əsas səbəbi hamam otağında havalanmanın olmaması, qeyri- standart cihazlar və tüstü- bacalarının illərlə təmizlənməməsidir. Təbii ki, bu nöqsanların mövcudluğu dediyimiz hadisələrin baş verməsinə səbəb olur.

Ekspert Nüsrət Qasımov da deyir ki, sadaladığımız nöqsanlar aradan qaldırılmadan insan həyatı üçün mənzillərdə dəm qazından boğulma təhlükəsi olacaq. Ona görə də bu problemlər vaxtında həll edilməlidir!

Yeni Günəşlimin " D" massivində ki 13 nömrəli binada tüstü bacalar düz 33 ildir ki, təmizlənmir. Şübhəsiz , Bakıda belə binaların sayı yüzlərlədir. Deməli, mövcud nöqsanlar vaxtında aradan qaldırılmıdır ki, insanlar dəm qazından boğularaq ölməsinlər!

## Qarın nəyə xeyiri var?

**Qar yağanda həmişə çox sevinirik.**

Elə qış olub ki, bir dəfə Bakıya və əyalətlərə belə qar yağmayıb. Qar ya-



ğanda öncə hava təmizlənir və insanlar sevincli anlar yaşaylar. Ən başlıcası isə qarın yağması kənd təsərrüfatına çox böyük xeyiri var.

Çünki deməyə torpaqlarda əkilmiş taxıl sahələrinə bu qar can verir,sanki qar torpağın yorğanıdır. İkincisi meyvə bağlarına və digər sahələr bu qar bir dərmandır. Çünki soyuq və qarlı havalarda torpağın dərin qatlarında olan ziyanverici həşaratların hamısı məhv olur.

Qış qarlı və şaxtalı olanda həmin bütün kənd təsərrüfatı məhsulları da bol olur. Xüsusən də taxıl məhsulu. Ona görə də ölkəmizə qar yağırsa, il bərəkətli olacaq! Bol məhsul isə uçuzluq və insanların sevinci deməkdir!

## Təmizliyə diqqət yetirsək...

Heç kimə sirr deyil ki,bir çox infeksion xəstəliklər natəmizlikdən yaranır və yayılır.

Ona görə də hər bir insan sanitargigyenik qaydalara əməl etməyə borcludur. Bu da o deməkdir ki, yeri gəldigəlmədi kiminləsə öpüşmək, əl görüşmək belə xəstəliklərin daha geniş yayılmasına münbit şərait yaradır! İndi bir tərəfdən koronavirus təhlükəsi, digər yandan da hepatit virusu bizi hər tərəfdən əhatəyə alıb.

Tanınmış həkim Rafiq Yusifli deyir ki, bu xəstəliklər insan həyatı üçün çox təhlükəlidir. Xüsusən də risk qrupuna daxil olan xəstələr daha diqqətli olmalı,



özlərini infeksiyadan qorumalı, metroda və avtobuslarda maskadan istifadə etməlidirlər.

Üstəlik də onlar gıgiyena qaydalarına əməl etməli,davamlı olaraq təmizliyə önəm verməlidirlər. Göründüyü kimi, sağlamlığa gedən yol təmizlikdən və özünü qorumaqdan keçir!

## Suyu qaynadılmadan içməyin

Adətən suyu qanadılmadan içirlər, çünki onun tərkibində çoxlu sayda minerallar maddələr var.

Amma qaynadılanda həmin maddələr məhv olur. Son vaxtlar ölkəmizdə sürətlə yayılan hepatit virusu bir çox mütəxəssislərin dediyinə görə , su vasitəsilə yayılır. Hətta öncələr həkimlər deyirdilər ki, Kürün suyunu qaynadıb için! Bakıda da əhalinin əksər hissəsinə Kür suyu verilir.

Elə bu gün də mütəxəssislər və ekspertlər bar- bar bağırırlar ki, Bakıda suyu qaynadılmadan içməyin! Belə ki, su da hepatit virusu yayır. Ancaq bu işlərlə əlaqədar əhali arasında maarifləndir-



mə işləri aparılmalıdır. Təəssüf ki, bu işlər ya aparılmır, ya da zəif təbliğ edilir. Xüsusən də bu maarifləndirmə işləri televiziya vasitəsilə aparılmalıdır. Ancaq televiziyaların da başı şou proqramlara və pul qazanmağa qarışıb.

**Ona vörə də ümid qalıb insanalrın özünə! Tanınmış həkim Rəşid Mahmudov da deyir ki, yayılmış hepatit virusu ilə əlaqədar olaraq suyu qaynadıb için. Deməli, özümüz özümüzü qorumalıyıq və başqa çıxış yolumuz yoxdur!**

**EMİL FAİQOĞLU**

# Rusiya girdiyi ölkəni heç vaxt tərk etməyib: Hələ bu ölkə MDB məkanıdırsa...

**Ermənistandakı 102-ci Rusiya hərbi bazası hər zaman ermənilərə "başağrısı" olub. Elə bu səbəbdən də erməni ictimaiyyətinin gündəmində tez-tez hərbi bazanın Ermənistandan çıxarılmasına aid söz-söhbətlər səngimir.**

Hətta, 9 il öncə Ermənistanın Gümrü şəhərində 102 saylı Rusiya Hərbi bazasında hərbi xidmətdə olan rusiyalı hərbi qulluqçu Valeri Permyakov Gümrüdə erməni ailənin 7 üzvünü o cümlədən körpə uşağı amansızcasına qətlə yetirildikdən sonra gündəm daha da qızışmış, əhali bazanın Ermənistanda qalmasına "Rusya hərbi bazası Ermənistanı tərk etsin" şüarı ilə mitinqlər də başladıldı.Bu tip mitinqlərə gələn ermənilərin sayına diqqət yetirsək görərik ki, həqiqətən də ermənilər bazanın ölkədən çıxmasına tərəfdardırlar və bunu hökümətdən yekdilliklə tələb edirlər. Ermənistanın Baş naziri Nikol Paşinyanın son 3 ildə yürütdüyü anti-rusiya siyasətinə nəzər saldıqda düşünmək olar ki, bazanın Ermənistanda qalması onun da ürəyini açmır.

Rusiya əlbəttə ki, bu soyuq münasibəti aydın görür və ehtiyatını tutur. iBeləki, Rusiya mesajlar verir ki, əslində ənənəvi olaraq, Rusiya qoşunu ilə girdiyi ölkədən çıxmaq kimi bir istəkdə heç vaxt olmayıb. Hələ bu ölkə keçmiş MDB məkanıdırsa və gələcəkdə yeni SSRİ-nin ərazisi olacaqsa.

Ermənilərin ciddi narazılıqlarına baxmayaraq, "Shah İntel" Teleqram kanalı fotolar təqdim edərək Rusiyanın adıgedən ölkədə daha da möhkəmləndiyini irəli sürüb. Teleqram kanalının təqdim etdiyi fotoların biri 2020-ci, digəri isə 2023-cü ildə çəkildiyi iddia edilir. Missiyası Ermənistan sərhədini qorumaq olan Rusiya 102-ci bazanın hərbçilərinin xidmət apardıqları "Karabzol" sərhəd zastavasında gücləndirmə işləri aparıdığı fotolarla təsdiq olunur.

Peyk vasitəsilə çəkilən fotolar ərazinin kökündən yeniləndiyini ortaya qoyur.Əslində son dəfə 1989-cu ilin fevralın 15-də rus ordusu Əfqanıstandan çıxıb.

Deyirdilər, e, 1993-cü il 25 may-rus qoşunlarının Azərbaycandan çıxarıldığı gündür.

Əslində rus qoşunları Azərbaycanı tərk etmədi, Qəbələdən, gəncədən çıxan rus ordusu başqa yollarla gəlim əlimizdən zorla alıb ermənilərə peşkəş verdiyi Qarabağa yığışdı.

Baxmayaraq ki, indi Qarabağda erməni qalmayıb, amma heç ruslaların Qarabağı tərk etmək fikirləri də yoxdu. 2020-ci ildən Qarabağdda yerləşdikləri yerləri Gümrüdəki baza kimi yenidən abadlaşdırıb, kilsə, park. abidə, 25 modul tipli qəsəbə tikib rahat oturublar. Rus girdiyi ərazidən çətin çıxar.

**Xatırlayırsınızsa, Canyataq kəndi ərazisində rus sülhməramlılarının olduğu avtomobil kiçik silahlardan atəşə tutuldu, hərbçilər həlak oldu. Həmin hərbçilərin şərəfinə Rusiya "Hərbi Sülhməramlıları Günündə" 2023-cü il sentyabrın 20-də Həmin hərbçilərin şərəfinə həmin kənddə abidə ucaldılıb.**

**Əntiqə Rəşid**

# Seçicilər prezident seçkilərində kimə səs verəcək?

**Xəbər verdiyimiz kimi, 7 fevral 2024-cü ilə təyin edilən növbədənkənar prezident seçkisi üçün qeydə alınan namizədlərin təbliğat kampaniyası 15 yanvardan başlayıb. Bildiyiniz kimi, namizədlər İlham Əliyev, Zahid Oruc, Razi Nurullayev, Fazil Mustafa, Elşad Musayev, Fuad Əliyev prezdentlik uğrunda seçkilərdə mübarizə aparacaq.**

Adalet.az xəbər verir ki, seçki ilə bağlı, hansı namizədə səs verəcəyi, ondan hansı gözləntilərin olması ilə bağlı bir neçə namizədin fikrini öyrənmişik.

**Səbirə Mahmudova** - 200 ildən bəri itirdiyimiz torpaqları kim qaytarırsa ona. Dünya standartlarına uyğun Ordu komandanı kimdisə,ona. Sərhədlərimizi bütövləşdirən kimdirsə, ona. Ermənistan dövlətinin varlığını şübhə altına alan lider kimdisə, ona. 44 günlük savaşda dünyanın aparıcı mediyasini siyasi masada fakt qarşısında mat qoyan prezident kimdisə, ona. Dinc əhaliyə ziyan vermədən,Antiterrorla Qarabağı silahlı qruplardan təmizləyən Sərkərdə kimdirsə,ona! 35 ildən bəri Qarabağ iddiasıyla hər iki xalqı zülmə salan,minlərlə şəhidlərimizə səbəb olan, torpagimizda saxta dövlət quran seperatçi erməni liderlərini qandalla Bakiya gətirdən ölkə başçısı kimdirsə,ona! Hələ də dədə torpaqlar uğrunda dünyaya meydan oxuyan rəhbər kimdisə,ona! Qarşıdan gələn seçgidə xarici siyasətini bəyəndiyim,daxili siyasətlə hər bir vətəndaşının prezidenti olmasını arzu etdiyim,İlham Heydər oglunavsəs verəcəyəm.




Siyasi məhbusların azadlığına, Quru sərhədlərin açılmasına,maaş və pensiyaların artırılmasına,usaqpulunun verilməsinə umidliyəm.

**Vüsal Qarayev:** Mən Milli Cəbhə Partiyasının Mətbuat Şöbəsinin müdiriyəm. Təbii ki, partiyamızın namizədi Razi Nurullayeva!

**Şirməmməd Fərəcov:** Mənim yeganə namizədim İlham Əliyevdir, bu şəxsiyyətdən başqa heç kimə səs vermərəm, ömrüm bitənə qədər! Ona görə ki, o, Qarabağ problemini Azərbaycanın xeyrinə və birdəfəlik çözdü.

**Coşqun Cəbrayılov:** Mən həmişəki kimi Cənab Ali Baş komandanımıza səs verəcəm qaldı ki gözləntilərə Komutanımızın gördü işlər göz qabağındadı söyləməklə bitmir onu əsirlər boyu tariximiz söyləyəcək . Qaldı ki o, birisi namizədlərə onlara məsləhət görürəm ki hələ prezidentliyə hələ namizəd olmaqları tezdi dekabr ayında bələdiyə seçkiləri olacaq səhf etmirəmsə namizədliklərini saxlasınlar o, vaxta .

**Seyfi Hesenov:** Mən İlham Əliyevə səs verəcəm,ona görə ki başladığı işi o başa catdıra bilər.

Rus qoşunu hələ burdadır,sərhədlər hələ tam bağlanmayıb,sülh müqavilesi imzalanmayıb,bir sözlə hələ yarımcıq qalan işlərimiz çoxdur.

**Yashar Dadashov:** Qısa konkret İlham Əliyevə səs verəcəm Allah bütün şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun, qazilərimizə can sağlığı versin. 34 il də gedib görə bilmədiyimiz torpaqlarımıza və bütöv Azərbaycana görə .Düzdü ölkəmizdə çatışmazlıqlar çoxdu. Amma inanıram ki, İlham Əliyev bunun da öhdəsindən gələcək. Razi Nurullayevə isə hörmətim var.

**Zəminə Cavadlı:** Mən İlham Əliyev cənablarına səs verəcəm. Çünki bu namizədlər özlərində onu dəstəkliyirlər.

Qeyd edək ki,respondentlərin bir çoxu 7 fevral növbədənkənar seçkiləri Azərbaycan tarixinin ən önəmli seçkiləri hesab edir.

**Sorğunu apardı:**
**Əntiqə Rəşid**

# İranın, Rusiyanın, Ermənistanın günahını isbat edib, Bakını hədəf seçmək...

**Ötən gün Sara Millerin Brüsseldə yerləşən "EU Reporter" xəbər platformasında məqaləsi dərc olunub. Tanınmış siyasi yazar məqaəsində deyir ki, Ermənistan İrana çox sayda silah tədarük etmiş ola bilər ki, bunlar da öz növbəsində HƏMAS və digər terrorçu təşkilatların əlinə keçib.**

Müəllif erməni hərbçilərinin necəsə 17 minə yaxın hücum tüfəngini itirdiyini xatırladıb: "17 min - bu rəqəmi anlamaq çətindir. Təsəvvür edin ki, bu silah 3,5 piyada briqadasını silahlandırmaq üçün kifayətdir. Bütünlükdə Ermənistan ordusunda 65 min hərbçi var, yəni çatışmayan silah onun dörddə birinə bəs edərdi. Lazımı qaydada qablaşdırılsa, bu 1400 ədəd yetərincə böyük və ağır qutular (hər birində 12 tüfəng olmaqla) olardı və daşınması üçün 10-dan çox hərbi yük maşını lazım olar. "Bu silahlar indi hardadır? Bu tədarüklər dəqiq Türkiyə, Gürcüstan və ya Azərbaycan sərhədlərindən Ermənistan ərazisindən çıxarılmayıb.



Planetin istənilən nöqtəsində silah əldə etməkdə maraqlı olan yalnız bir qonşu ölkə var: İran. Müxtəlif terrorçu təşkilatların əsas tərəfdarı olan Tehran mütəmadi olaraq onlara yüngül və ağır silahlar tədarük edir ".

S.Miller məqaləsinin sonunda əminliklə bildirir ki, 2020-ci ildən Ermənistanın hərbi anbarlarından "itmiş" Kalaşnikov avtomatları HƏMAS döyüşçülərinin əlinə keçib və ola bilsin ki, İsraildəki 7 oktyabr qırğınında istifadə olunub.

Maraqlıdır ki, oxşar fikirləri yanvarın 22-də Təhlükəsizlik Şurasının iclasında İsrailin BMT-dəki daimi nümayəndəsi Gilad Erdan deyib. Moskva terrorun sponsoru kimi tanınan Tehranla əməkdaşlıq edir. Rusiya məhz İranın PUA-ları vasitəsilə dinc ukraynalıları qətlə yetirir:"Hamımıza məlum olduğu kimi, İranın pilotsuz təyyarələri Rusiya tərəfindən Ukraynada dinc sakinləri öldürmək üçün istifadə olunur. İran terroru hamımıza təsir edəcək, bunu hər birimiz bilirik. Hətta İranla əməkdaşlıq edən Rusiyaya da".

Əgər Ermənistan İran vasitəsilə HƏMAS-a silah göndərirsə, Moskva terrorun sponsoru kimi tanınan Tehranla əməkdaşlıq edirsə,

İran Ukraynanı bombalamaq üçün Rusiyaya PUA və digər silahlar verirsə, onda bizi başa salın görək niyə Azərbaycanı hədəf almısınız?

**Qeyd edək ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinin fəaliyyəti məhdudlaşdırılıb, səsvermə hüququ bloklanıb, üstəlik, mandatının təsdiqlənib-təsdiqlənməməsi ilə bağlı Monitorinq Komitəsinə müraciət edilib.**

**Əntiqə Rəşid**

# Köhnə evlər niyə sökülür?

**Son vaxtlar bir neçə mütəxəssis və ekspertlər bildirir ki, Bakıdakı əksər beşmərtəbə binalar söküləcək və yerində yeni yüksək mərtəbəli binalar tikiləcək.**

Hətta bəziləri daha irəli gedərək doqquzmərtəbəli evlərində söküləcəkləri fikrini irəli sürürlər. Bu məsələyə isə doqquzmərtəbəli binalarda yaşayan insanlar birmənalı yanaşmırlar. Yaxşı, beşmərtəbəli binaların sökülməsini başa düsürük. Onların çoxu istismar müddətini başa vurub və bəziləri də qəzalı vəziyyətdədir. Bəs doqquzmərtəbələr niyə sökülməlidir?



Onların ki, istismar müddəti 100-120 ildir! Doqquzmərtəbəli bina qəzalıdırsa, onu sökmək olar. Amma Əhmədlidə, Yeni Günəşlidə və digər yerlərdə tikilmiş doqquzmərtəbəli binaların heç 40-50 yaşı yoxdur. Onlar təzə tikilən binalardan zəlzələyə daha çox davamlıdır. Bəs elə isə bu binaların sökülməsi ideyasını kim ortaya atıb və onların məqsədləri nədir?! Görünür, tikinti işləri ilə məşğul olan bəzi oliqarxların gözü Bakıdakı doqquzmərtəbəli binalara "düşüb". Guya yeni tikilən binalar zəlzələyə çox davamlıdır. İnanan daşa dönsün! Bakıda 2000-ci ildə baş vermiş zəlzələni yada salsaq görərik ki, bir doqquzmərtəbəli bina zəlzələ zamanı dağılmadı və zədələnmədi.

Amma indiki çoxmərtəbəli binalar olsaydı, onların əksəriyyəti o zəlzələyə tab gətirməz və dağılardı. Ona görə də mənzil tikintisi ilə məşğul olan şirkətlər əhali arasında xof yaratmamalı, öz tikdikləri yeni keyfiyyətsiz çoxmərtəbəli binaları boş-boş tərifləməməlidir. Çünki heç kim kor deyil, insanlar ağı qaradan daha yaxşı seçir!

**EMİL FAİQOĞLU**

# MƏTBUAT ŞURASI JURNALİSTİ MÜKAFATLANDIRDI




**Yanvarın 23-də Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə şair, publisist, Əməkdar jurnalist Əbülfət Mədətoğlunun 65 illiyi qeyd edilib. Tədbirdə millət vəkili Aqil Abbas, Qarabağ qazisi, ehtiyatda olan polkovnik Mirqiyas Seyidsoylu, şairə Kəmalə Abıyeva, yazıçı-publisist Vəsilə İsmayılqızı, yazıçı-publisist Ramiz Göyüş, Beynəlxalq Mətbuat Fondunun sədri Umud Rəhimoğlu və digər qonaqlar iştirak edirdilər.**

Görüşü Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq Əbülfət Mədətoğlunun həyat fəaliyyəti barədə məlumat verdi, onun Azərbaycan mətbuatındakı vurğulamışdı. Sonra millət vəkili, "Ədalət" qəzetinin təsisçisi, yazıçı-publisist Aqil Abbas Əbülfət Mədətoğlu ilə bağlı ürək sözlərini demiş və vurğulamışdır ki, biz uzun illərdir ki, bərabər çiyin-çiyinə çalışırıq. Necə deyərlər, həmkar kimi, qardaş kimi hər zaman bir-birimizin yanındayıq.

Sonra şairə Kəmalə Abıyeva söz alaraq vurğuladı ki, Əbülfət Mədətoğlu bir qələm adamı kimi sözünə, dostluğa, sevgisinə hər zaman sadiqdir. 80-ci illərdən başlayan dostluğumuz bütün sınaqlardan qalib çıxıb. Çünki bu dostluq təmənnasızdır.

Tədbir iştirakçısı Vəsilə İsmayılqızı isə qeyd etdi ki, bizim ailədə atamın dostlarına hər zaman "əmi" deyilib. Əbülfət Mədətoğlu isə qardaşım Qoşqarın ən yaxın dostlarından biri olduğu üçünr biz ailədə ona "qardaş" deyirik. Mən ailəm adından Əbülfət qardaşımı ürəkdən təbrik edirəm.

Tədbirdə yazıçı-publisist Ramiz Göyüş yubilyarın yaradıcılığının iki istiqamətindən - publisistikasından və poeziyasından söz açdı və bunu qoşa qanad adlandırdı. Onunla həmfikir olan Qarabağ qazisi, polkovnik Mirqiyas Seyidsoylu xüsusi vurğuladı ki, Əbülfət Mədətoğlu Qarabağ müharibəsinin birinci mərhələsində bizimlə çiyin-çiyinə idi. O, hətta bizim hərbi hissənin qəzetinin də 25 nömrəsinin çap olunmasında, araya-ərsəyə gəlməsində əməyini əsirgəmədi. Məhz onun köməyi ilə biz həmin cəbhə vərəqələrini, yəni qəzetimizi yaya bildik.

Görüşdə digər iştirakçılarla yanaşı Umud Rəhimoğlu da ürək sözlərini söylədi. O qeyd etdi ki, mən Əbülfəti hələ rayonda "Araz" qəzetinin nəzdində fəaliyyət göstərən "Ərgünəş" ədəbi məclisindən tanıyıram. Orta məktəbin aşağı sinifində oxusam da mən də dərnəyə gedib-gəlirdim. O illərdən başladı dostluğumuz və bu gün onun qədər mən də sevinirəm ki, bir Qarabağ ziyalısı özünü təsdiq edə bilib. Ona bundan sonra da uğurlar arzu edirəm.

Sonda Əbülfət Mədətoğlu onu Mətbuat Şurasının diplom ilə təltif edən Şura rəhbərliyinə və bütün iştirakçılara bu soyuq havada zəhmət çəkib gəldiklərinə görə, ürəklərinin istisini onunla paylaşdıqlarına görə öz təşəkkürünü bildirdi.

**Sübhan**

## "Berlin Rusiya ilə hərbi münaqişəyə hazır olmalıdır"

**Bu günlərdə Almaniyanın müdafiə naziri Boris Pistorius bəyan etmişdir ki, onun ölkəsi Rusiya ilə müharibəyə hazır olmalıdır. Rusiya Dövlət Dumasının beynəlxalq əlaqələr komitəsunin sədr müavini Dmitri Novikov almaniyalı nazirin bu bəyənatını şəhr edərək bildirib ki, əvvəla Berlin Rusiya ilə hərbi münaqişəyə girməyin nəticələrini düşünməlidir.**

"Hərbi idarənin rəhbəri belə bir bəyanat verməzdən əvvəl bilməliyidi ki, bu günlərdə KİV-lərdə Almaniyanın Rusiya ilə müharibəyə hazırlaşması ilə bağlı planlar hazırladığı barədə məlumatlar yayılmışdı. Təbii ki, hər bir ölkənin silahlı qüvvələrinin müxtəlif təhlükələrə qarşı planları ola bilər və bu planlara əsasən hərbi təlimlər keçirə bilər. Bu adi iş planlarıdı. Lakin hərbi idarənin rəhbərinin bu cür açıq bəyənatlarla çıxış etməsi və təhlükə mənbəyi kimi Rusiyanı göstərməsi yolverilməzdi və sadəcə olaraq Qərbin yaratdığı hay-küydən başqa bir şey deyil"-deyə Novikov bildirib.

Komitə sədrinin müavinin fikrincə, Almaniya daxili problemlərini həll edə bilmədiyi üçün, Rusiyanı təhlükə mənbəyi kimi göstərməyə cəhd edir.

**Rüstəm Hacıyev**




**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**


# Gözlərimiz səni axtarır...

...Mənim o qədər də çox dostum olmayıb. Başqa sözlə demiş olsaq, barmaqla sayılası dostlarım, yoldaşlarım var. Ramiz Rövşən demişkən: "Onları sınamışam, hamısı da saf çıxıb". Deməli, bu, dostlarla çörək kəsməyə, çay içməyə, yoldaşlıq etməyə dəyərmiş...

Onlardan biri də, 1990-cı ilin iyulun 26-dan 2015-ci ilin may ayına qədər "Ədalət" qəzetində bir yerdə işlədiyimiz, dostluq elədiyimiz və ağır gündə bir-birimizə arxa durduğumuz filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafadır.

Dünyanın ən sadə və səmimi adamlarından biridir desək, yanılmarıq! Çünki özünün də qəşəng bir deyimi vardı: "Özümdən başqa bu dünyada sadə və səmimi adam görmədim". Bəli, bu, sözü deməkdə Məhəmmədəli qardaşımız haqlı idi. Çünki bəzən kimdənsə etibarsızlıq, xəyanət görəndə ürəyi sınırdı və hətta o adamla görüşmək belə istəmirdi...

...Onunla həddindən artıq yaxın idik. Mənim anam, qardaşlarım, ailəm və balalarım sadəliyinə görə Məhəmmədəlini çox istəyirdilər. Nə az, nə çox düz 30-40 dəfə Bəhmənlidə bizim evdə olmuşduq. Mən onsuz kəndə gedəndə rəhmətlik anam küsərdi və deyərdi ki, Məhəmmədəlini niyə gətirməmisən, axı o, da mənim oğlumdur?! Bax beləcə, Bəhmənlidə mənim qohum-əqrabamın hamısı Məhəmmədəli Mustafanı çox istəyərdi...

...İki il bundan əvvəl ahnan-tufun içində dünyasını dəyişdi. Qardaşı Azər onu həddindən çox istəyirdi. Elə Məhəmmədəli də ona bağlı idi. Azər müəllim deyir ki, Məhəmmədəli insult keçirtdi, xəstəxanaya apardım, bir həftədən sonra vəziyyəti yaxşılaşdı. Amma birdən-birə hər şey dəyişdi və keçindi!.. Biz dost itirdik, Azər müəllim isə qardaş itirdi. Elə biz də qardaş itirdik ey! Çünki Məhəmmədəli bizim hər birimizə qardaş idi. Ondan əvvəl yaxın dostlarımız Lətif Süleymanlını, Qələndər Xaçınçaylını, sonra isə Nazim Ağamirovu itirdik. Onlar bizim ən yaxın qələm dostlarımız, sirdaşlarımız idi...

...Tez-tez onunla çay içdiyimiz Gənclikdəki çayxanaya baş çəkirəm. Amma o çayxanaya girə bilmirəm. Elə yarı yoldan da geri qayıdıram. Gözlərim dolur... Məhəmmədəlisiz, Lətifsiz, Qələndərsiz, Nazimsiz orda o çayı içə bilmərəm. Orda çayı tək içmirdi ki, masanın ətrafında onlarla yanaşı, Asif Talıboğlu, Daşdəmir Əjdəroğlu, Lətif Novruzov və digər dostlarımız da əyləşərdi, deyib-gülərdik, zarafatlaşardıq, amma heç birimiz bu zarafatlardan incimərdik. Əksinə, çayxanadan çıxanda kefimiz ala buluddan nəm çəkərdi!..

...Hara baxıram gözümə Məhəmmədəli Mustafa dəyir. Metronun "Neftçilər" stansiyasından çıxıb, yenə onunla bir yerdə tez-tez əyləşdiyimiz çayxanaya da üz tutmaq istəyirəm. Axırıncı dəfə o çayxanada Asif Talıboğlu, mən və Məhəmmədəli Mustafa çay içmişdik. Bax, o bizim son görüşümüz oldu...

...Həddindən artıq ürəyi yumşaq idi və balaca uşaq da onu aldadardı. Adi bir tanımadığı adam rəhmətə gedəndə özünə gələ bilmirdi...

...Yaxın dostumuz və ağsaqqalımız, istedadlı jurnalist Mail Cəbrayılov rəhmətə gedəndə onun hansı hisslər keçirdiyinin şahidi oldum. Çünki o, Mail müəllimlə bir otaqda əyləşir, ezamiyyətə gedir və yaxın dost idilər. Yas yerində oturduq, hamı çay içdi, o, bir qurtum çay da içmədi. Bizim hamımız orda ağlayıb, ürəyimizi boşaltdıq. Məhəmmədəlinin isə gözləri bulud kimi dolmuşdu. Yas yerindən 30-40 metr ayrılmışdıq ki, onun hönkürtüsünü eşitdik. Göyüzündən yağış necə yağırsa, onun da gözlərindən yaş elə axırdı... Asif Talıboğlu, Lətif Süleymanlı, mən və Daşdəmir Əjdəroğlu onu güclə kiritdik. Düz bir ay nə güldü, nə də zarafat elədi!.. Hər gün rəhmətlik Mail müəllimi xatırlayırdı. Deyirdi ki, elə həftə olmur Mail müəllim yuxuma girməsin. Hətta ona bir "Yasin" də oxutdurdum...

...Bax, Məhəmmədəli Mustafa dostluqda, yoldaşlıqda belə sədaqətli insan olub. Atası 80 ildən çox yaşamışdı. Mən də deyirdim ki, Məhəmmədəli, bu sağlamlıq ki, səndə var, atandan çox yaşayacaqsan. Amma Allahın yazısına pozu yoxdur! Onun ölümünə çoxları inanmır və bu gün də elə bilirəm ki, Məhəmmədəli sağdır. O ölümə inanmayanlardan biri də mənim oğlum Emildir. Emil deyir ki, ata, nə Məhəmmədəli əminin, nə də Elxan əminin ölümünə inana bilmirəm. Hətta Emil hər şeyi unudub, bəzən deyir ki, gedək "Neftçilər"də Məhəmmədəli əmiylə çay içək, birdən yadına düşür ki, Məhəmmədəli rəhmətə gedib. Bax, onda da Emilin gözləri dolur və kövrəlir...



...Qardaşımız və dostumuz Məhəmmədəli Mustafa 63 yaşında Allahın dərgahına qovuşdu. Yeni çapdan çıxmış kitabını da görmədi. Amma qardaşı Azər onun arzularını həyata keçirtdi və 40 mərasimində o kitab çap olundu. Bu, Məhəmmədəlinin yeni ömrü demək idi... Kaş bütün qardaşlar Azər kimi sədaqətli və vəfalı olalar!..

Sentyabrın 1-də Məhəmmədəli Mustafanın 65 yaşı tamam olacaq. Düzdür, biz ad gününü onsuz keçirdəcəyik. Amma Məhəmmədəli kimi böyük insanlar - alimlər, yazıçılar, publisistlər, jurnalistlər həmişə sağdırlar. Bu yaxınlarda yaxın dostumuz və qardaşımız Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı ilə görüşdüm. Çünki Məhərrəm müəllim uzun illər Məhəmmədəli ilə dostluq edib, çörək kəsib və hər ikisi də bu dostluğa sədaqətli olub. Elə bir görüşümüz olmayıb ki, orda Məhəmmədəli Mustafadan, Rafiq Hacıyevdən və Lətif Süleymanlıdan söhbət açmayaq. Biz onları həmişə xatırlamışıq. Yazımızı Məhərrəm Qasımlının Məhəmmədəli Mustafaya həsr etdiyi "Söndüm" şeiri ilə tamamlamaq istəyirik. Məhərrəm müəllim onun məzarını ziyarət edərkən yazır: "Gözlərində həyat çağlayan, ancaq ömrün erkən məqamında bizdən ayrılan dostum Məhəmmədəli Mustafanın nisgil dolu məzarı önündə dayandım. Elə bil məzar dilə gəldi:

*Qışdan-borandan adlayıb,*
*Söndüm, yaz başında söndüm.*
*Dostu-yaxını odlayıb -*
*Södüm, yaz yaşında söndüm.*

*Yoxa çıxdım izlərimdən,*
*Dağlarımdan, düzlərimdən.*
*Yar çağıran gözlərimdən -*
*Əlləri qaşımda, söndüm.*

*Məhəbbətim, mehrim vardı,*
*Ovsun-ovsun sehrim vardı.*
*Bir könüldə yerim vardı,*
*Söndüm, sirdaşımda söndüm.*

*Orxan Paşa, susar oldum,*
*Sən dərdimi yazar oldun.*
*Torpaq oldum, məzar oldum,*
*Söndüm, başdaşımda, söndüm".*

**ASALA-nın lideri , türkləri təhqir edən Akop Akopyan 28 aprel 1988-ci ildə Afinada məhv edilir.**

**Onun cibindən çıxan vərəqədə yazılanlar bütün ermeniləri şoka salmışdı: "Sənə Kür Şadın salamını gətirdim. Hamınız birbir yox olacaqsız..." Erməni lideri məhv edən isə, ermənilərin qorxulu röyası olan türk igidi Abdullah Çatlı idi...**

***ASALA ovçusu***

"Terrorçularla danışıqlar aparılmaz, sövdələşmə olmaz. Terrorçunun başına güllə sıxırsan, savab qazanırsan. Vəssəlam!"

Sizcə kimdir bu qiymətli kəlamların sahibi?

Bir zamanlar Türkiyədəki "Dərin Dövlət"in mənsubu, beynəlxalq "Qladio" şəbəkəsinin üzvü,Türkiyə xüsusi xidmət strukturlarının məxfi operativ agenti. PKK və ASALA terror təşkilatlarına qarşı çeşidli məxfi əməliyyatların təşkilatçısı, iştirakçısı Abdulla Çatlı...



# ASALA yenidən xortlayıb: Bir DİFAİ, bir də Abdulla Çatlı ehtiyacımız var...

Türkləri qətlə yetirmək, öz maraqlarını həyata keçirtmək üçün Beyrutda 1975-ci ildə qurulan ASALA, 8 il içində 36 türk diplomatını qətlə yetirib. ASALA-ya dəstək verən və himayə edən ölkələrdən biri də Fransa olub. Fransa həmişəki kimi bu gün də erməni terror təşkilatlarına gizli şəkildə dəstək verir.

**1982-ci ildə** Çatlı dünyanın ən təhlükəli terror strukturlarından biri sayılan ASALA terror təşkilatının bütün (!) rəhbərlərinin məhvini nəzərdə tutan xüsusi əməliyyatı hazırlayaraq gerçəkləşdirməyə başlamışdı.

7 təhlükəli terrorçunun hər birini o, uzun müddət səbrlə izləmiş, sonra isə peşəkarlıqla məhv etmişdi:"Mənim dövlətimə, türk xalqına güllə atan hər bir şəxs deməkdir ki, ölecək yaşdadır. Bütün erməni qurumlarını məhv edərəm, amma bir türk əzdirmərəm. Mən kimsəni əzmədim, əzəni əzdim ayaqlarım altında. Bir şəhid övladının göz yaşı bütün dünyanı başlarına yıxaram".

**1983-cü ildə** Parisdəki Orli Hava limanında 8 Türkiyə vətəndaşı partlayış nəticəsində öldürülür. Bu teror aktını ASALA öz üzərinə götürür. Lakin partlayış zamanı zəhərlənmədən və qəlpə yaralarından ümumilikdə 46 nəfərin həlak olması Fransa hökumətinin səbrini daşırır. Fransa polisi teror aktında əli olan 20-dən artıq terroçunu həbs edir. ASALA-nın Fransadakı bazası ləğv edilir. Bütün Avropanı qorxu altında saxlayan bu terror təşkilatının məhv edilməsində isə türk oğlu Abdulla Çatlının rolu böyük olub. Avropada, xüsusilə Fransada fəal olan ASALA məhz Abdulla Çatlı tərəfindən məhv edilib. Bəli...ASALA-nın rəhbərləri Çatlı öldükdən sonra da onun adını eşidəndə qorxurdular, təşviş keçirirdilər...

**3 noyabr 1996-cı il** ... Abdulla Çatlının olduğu avtomobil "təsadüfən" traktora çırpıldı. Qəzanın qəsdən törədilməsi ilə bağlı versiya olsa da, bunu sübuta yetirmək üçün faktlar ortaya çıxmadı.

Çatlının doğma şəhərində baş verən dəfn mərasimində təxminən 50 min insan iştirak etdi...Onun məzarında hər zaman Azərbaycan bayrağı olur. Çünki Azərbaycana olan sevgisi sonsuz idi.

***P.S.** **ASALA yenə xortlayıb...Yenə də "mən də varam" deyir, yenə də türklərin qanını axıtmaqda israrlı görünür. Bəs bizim ermənilərə qan udduran DİFAİ-miz yenidən canlanacaqmı? Yeni Abdulla Catlımız oğulacaqmı? Hələ ki gözləyirik... düz 1993-cü ildən gözümüz yollardadır.***

**Əntiqə Rəşid**

# GUYA DÜNYA DAĞILSA MİLYARDERLƏR SAĞ QALACAQ?

**Milyarderlər bir-birinin ardınca gözdən uzaq, tənha yerlərdə gizli sığınacaqlar tikməyə başlayıblar. Belə yerlərdə inşa edilən qalaya bənzər sığınacaqlara milyonlarla dollar xərclədiyi bildirilir.**

Deyilənlərə görə, milyarderlər iki səbəbdən belə sığınacaqların tikintisinə pul xərcləyirlər. Birincisi, Rusiyanın Avropa ölkələrindən birinə hücum edərsə III Dünya Müharibəsinin başlaya bilməsi qorxusu, digər tərəfdən isə, qlobal istiləşmədən əriyən buzlaqlardan şəhərləri su basması ehtimalıdı. Buna görə də milyarderlər lazım gəldikdə belə təhlükələrdən qorunmaq üçün gözdən uzaq, təhlükəsiz yerlərdə sığınacaqlar tikirlər. Bildirilir ki, "Facebook", "Instagram" və "WhatsApp"ın bağlı olduğu "Meta"nın rəhbəri Mark Zukerberq də Havay adasındakı qalaya bənzər sığınacağı üçün 100 milyon dollar ödəyib.

Sağlam həyat tərzi keçirməsi ilə məşhur olan amerikalı milyarder Frank Vanderslutun da Havay adalarında sığınacaq tikmək üçün 51 milyon dollara torpaq aldığı ortaya çıxıb.



OpenAI süni intellekt şirkətinin baş direktoru Sem Altman da çətin durumlarda PayPalın ortağı Peter Thielin Yeni Zelandiyadakı sığınacağından istifadə etmək barədə razılıq əldə edib. Google-un ortağı Larri Peyc də Yeni Zelandiyadan yaşayış icazəsi alıb.

Kriptovalyuta brokeri Mihai Dinulescu da pandemiya zamanı sığınacaqları ilə məşhur olan Yeni Zelandiyaya qaçmışdı. Futbol ulduzu Tom Bredi, Donald Trampın qızı İvanka və müğənni Xulio İqlesias da Mayamidən cənubda Biskayn körfəzinə baxan təhlükəsiz kənddə malikanələr alıblar. LinkedInin partnyoru Red Hoffman da bir çox texnologiya milyarderinin sığınacaq tikdirdiyini bildirib.

**MEHRİBAN**

# ABŞ-ın 154 illik qanlı tarixi: Marias çayının sahilində qırğın, Beyker qətliamı, qatil general Şeridan...

**ABŞ-ın son zamanlar ölkəmizlə bağlı bədxah addımları hər birimizdə təəccüb yaradıb. Yadınızdadırsa, ötən ilin sonunda ABŞ dövlət katibi Entoni Blinken Azərbaycanı "dini etiqad azadlığının ciddi şəkildə pozulmasına görə xüsusi nəzarət altında olan ölkələr siyahısına" daxil etdiklərini və hesabat hazırladıqlarını bəyan etdi.**

Hesabatda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sözdə erməni abidələrinin vəziyyəti ilə bağlı narahatlıq, müsəlman abidələrinə qarşı törədilmiş vandalizmə münasibətdə isə dözümlü yanaşma sezilir. Eyni zamanda Komissiya üzvlərini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə dəvət edirik. Belə ki, Azərbaycanda "Dağlıq Qarabağ" adında inzibati ərazi vahidi yoxdur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları vardır.

### *Süddən çıxmış "ağ qaşığın", hamıya "qara" deməsi həyasızlığı*

Azacıq ədaləti olan istər siyasi xadim, istər, ölkələr, istər beynəlxalq təşkilatlar anlayar ki, bu qərar Azərbaycana qarşı böyük bir qərəzin növbəti nümunələrindən biridir.

Bəli hələ 2 ay əvvəl ABŞ Konqresinin yuxarı palatası Azərbaycana hərbi yardımın dayandırılmasını nəzərdə tutan və "2023-cü il tarixli Ermənistan Müdafiə Aktı" olan S.3000 qanun layihəsini təsdiqləyib.

Bəli, S.3000 qanun layihəsi Azərbaycanla bağlı 907-ci düzəlişin dayandırılmamasını nəzərdə tutur ki, bu da ölkəmizə qarşı qərəzli və qeyri-dost bir addımdır.

***907-ci düzəliş ilk dəfə 1992-ci ildə guya "Azərbaycan tərəfindən Qarabağın "işğalı" və Ermənistana qarşı blokadanı dayandırmaq" məqsədilə senator Con Makkeyn tərəfindən, daha sonra isə senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqressmen Veyn Ovens tərəfindən təklif edilib. İndi keçək Azərbaycanı ermənilərə qarşı ədalətsizlikdə, mərhəmətsizlikdə, dini etiqadlara qarşı vandallıqda, soyqırım, xalqların öz taleyini təyinetmə hüququndan istifadəsinin qarşısını almaqda günahlandıran ABŞ-ın öz ölkəsində necə bir ədalət sərgiləməsinə.***

***Deməli, ABŞ-lı hüquq müdafiəçilərinin məlumatlarına görə, 2021-ci ildə ABŞ-də dini dözümsüzlük zəminində yəhudi və müsəlmanlara qarşı törədilmiş 1005 cinayət faktı qeydə alınıb.***

***Eləcə də 2022-ci ildə 6720 müsəlman dini ayrı-seçkiliyə məruz qalıb. Anti-İslam əhvali-ruhiyyəsinin həyəcanverici həddə çatması barədə məlumatlar Amerika reallıqlarının kiçik bir hissəsini əks etdirir. Bu mənzərə ABŞ-ın müasir mənzərəsini sərgiləyir , bəs ABŞ-ın tarixi, yaxın keçmişi "ədalətli" ola bilibmi?***

### *Marias çayında qırğın, Beyker qətliamı - 154 ilin üz qarası*

Əziz oxucularımız, yəqin ki, ABŞ-ın bir soyqırımı dövlət olduğunu çoxunuz bilmirsiniz. Çünki çoxunuz ABŞ ərazisində həyata keçirilən qətliamlar haqqında heç nə bilmirsiniz. ABŞ qoşunlarının hindu qəbilələrinə qarşı həyata keçirdiyi həmin cəza əməliyyatları haqqında çoxunuzun məlumatı yoxdur. Söhbət bu gün həmin əməliyyatlardan biri olan Marias çayında qırğın, Beyker qətliamı kimi yadda qalan soyqırımlardan gedir. 1870 - ii ilin bu günü amerikalı əsgərlər əksəriyyəti uşaqlar, qocalar və qadınlardan ibarət 217 qəbilə üzvünü öldürüb. Qətliam Montana ştatının ərazisində baş verdi. Qırğını törədən isə ABŞ Ordusunun mayoru, Marias qırğınında 2-ci ABŞ süvari batalyonunun komandiri olmuş Yevgeni Baker idi.Yanvarın 23-də səhər saatlarında hindu qəbiləsinin yaşadığı Heavy Runner-in düşərgəsində üç yüzdən çox hindu vardı. Çiçək xəstəliyindən hinduların çoxu əziyyət çəkirdi, yerlərindən qalxıb hərəkət edə bilmirdilər. Sağlam kişilərin çoxu ov üçün düşərgəni tərk etmişdi. Beləliklə, o şiddətli soyuqda düşərgənin demək olar ki, bütün sakinləri qadınlar, uşaqlar, xəstələr və qocalar idi. Düşərgənin üstündəki dağ silsilələrindən ABŞ əsgərləri yatmış insanlarla dolu lojalara uzun müddət atəş açdılar. Qarşı tərəfdən atəş səsləri gəlmədiyi üçün əsgərlər bir müddət sonra düşərgəyə daxil oldular. Vilyam Birç adlı zabit lovğalanırdı ki, onlar çadırların örtüklərini qəssab bıçaqları ilə doğrayıb içəridəki silahsız insanları güllələyibləri: "Biz bəzilərini balta ilə öldürdük və "onlara dəhşətli bir qırğın yaşatdıq".





Hadisədən təsadüfən sağ çıxan balaca qız xatirələrində danışır ki, əsgərlər bir lojanı (cadır, sığınacaq) mühasirəyə alır və əvvəl yorğan, paltar və istədikləri hər şeyi götürdülər. Sonra isə bütün sığınacağı söküb yandırdılar. Qızcığaz yanğında yaralıların yandırdıqlarını gördüyünü də deyir. Bakerin adamları hesablamasına görə hindu ölülərinin sayı 173 nəfər göstərildi. ABŞ ordusundan isə bir sıravi əsgər Makkey həlak olduğunu , digər əsgər isə atdan yıxılaraq ayağını sındırdığı deyildi .Amma sonrakı illərin istintaq nəticəsində məlum oldu ki, ölənlərinin sayı 217 nəfərdir.

Beləliklə 154 il keçməsinə baxmayaraq ABŞ hökümətinin soyqırım siyasətinə qurban gedən yerli hindu xalqı hər il o soyqırım gününü Montana ştatında Marias çayının sahilində kədərlə qeyd edirlər.

Həmin ərazidə belə bir monumental heykəl də ucaldan hindular indi də bu ayrıseçkiliyin davam etdiyini bildirirlər.

### *Ağ dərililərin qızıl dəri ovu hər zaman davam edib*

Hadisələrin əvvəli isə belə başlamışdı. 1492-ci ildə məşhur səyyah Xristofor Kolumb Amerikanı kəşf edəndən təqribən 100 il sonra Yeni Dünyaya əsl axın başlandı. Təcrübəli avropalılar okeanın o tayındakı ucsuz-bucaqsız torpaqları sürətlə işğal etdilər. İşğal nəticəsində yüzlərlə hindu tayfaları əsrlərlə yaşadıqları ərazilərdən qovuldu, tarixi torpaqlarından, meşələrdən, otlaqlardan və göllərdən məhrum oldular. Proses Vəhşi Qərbə xas üsullarla - amansızlıq və qətiyyətlə aparılırdı. Bəzi hallarda torpaqların zəbti ikitərəfli müqavilələrlə rəsmiləşdirilsə də, həmin müqavilələr yalnız bir tərəfə sərfəli olurdu. 1492-ci ildə məşhur səyyah Xristofor Kolumb Amerikanı kəşf edəndən təqribən 100 il sonra Yeni Dünyaya əsl axın başlandı. Təcrübəli avropalılar okeanın o tayındakı ucsuz-bucaqsız torpaqları sürətlə işğal etdilər. İşğal nəticəsində yüzlərlə hindu tayfaları əsrlərlə yaşadıqları ərazilərdən qovuldu, tarixi torpaqlarından, meşələrdən, otlaqlardan və göllərdən məhrum oldular. Proses Vəhşi Qərbə xas üsullarla - amansızlıq və qətiyyətlə aparılırdı. Bəzi hallarda torpaqların zəbti ikitərəfli müqavilələrlə rəsmiləşdirilsə də, həmin müqavilələr yalnız bir tərəfə sərfəli olurdu. Birbaşa hindi soyqırımları, torpaqlarından zorla qovulan hinduların rezervasiyalara yerləşdirilməsi, immun sistemilərinə yad olan su çiçəyi xəstəlikləri kimi Qədim dünya xəstəliklərinin qəsdən yoluxdurulması, axtalama və hindu uşaqlarının xristian missionerlər tərəfindən uzun müddət ailələrindən uzaqda saxlanılaraq ABŞ hindu məktəbləri və Kanada hindu məktəbləri kimi yerlərdə ana dillərində danışmalarının qadağan edilməsi (mədəni soyqırım) kimi müxtəlif soyqırım növləri həyata keçirilib. Bundan başqa iqtisadi resursları nəzarət altına almağı hədəfləyən utilitar soyqırımlar da həyata keçirilib. Utilitar soyqırımlara Braziliya və Paraqvay hindulaına qarşı həyata keçirilən soyqırımları misal göstərmək olar. 8 sentyabr 2000-ci ildə ABŞ-də Hindu İşləri Bürosunun sədri gəlmələrin yerlilərə qarşı həyata keçirdiyi soyqırımlar üçün hindulardan rəsmi şəkildə üzr istəyib. Hindulara qarşı həyata keçirilən soyqırım siyasətinin başında duran isə ABŞ generalı Filip Şeridan olmuşdu.Yellovstone Milli Parkındakı Şeridan dağı 1871-ci ildə Kapitan Con V. Barlou tərəfindən Şeridanın şərəfinə adlandırılmışdır. Koloradodakı Sheridan dağı da onun şərəfinə adlandırılmışdır. "Şeridan Mükafatı" Cenevrə gölündə illik yarışın qalibinə verilən yaxta yarışları üzrə əbədi kubokdur . Bu, generalın 1874-cü ildə Cenevrə gölünə səfəri münasibətilə başladı.




### *ABŞ əskinaslarında təsvir olunan 53 nəfərdən biri - general və qatil Şeridan*

1937-ci ildə ABŞ Poçt İdarəsi müxtəlif Ordu və Hərbi Dəniz Qüvvələri qəhrəmanlarının şərəfinə bir sıra xatirə markaları buraxdı. O markalardan biri də qatil və terrorçu Filip Şeridanın xatirəsinə həsr olunmuşdu.

***P.S.*** ***Bax belə, keçmişi ləkəli, terrorçuluq, kütləvi qətllər, amansızlıq, irqi və dini ayrıçeçkilik halları ilə dolu olan ABŞ Azərbaycanı öz ləkəsi ilə suçlamaq hüququ yoxdur. Amma hüququ olmasa da həya - sızlığı bun ameyadan açır.***

**Əntiqə Rəşid**

---


*Elxan Şükürlü*


# ƏDALƏT YOLÇULARININ ƏBƏDİ RƏHBƏRİ...



***"Əlinin İsadan üstün olduğunu deməyə dinim, İsanın Əlidən üstün olduğunu qəbul etməyə isə vicdanım yol vermir".***

***Bu, dünya elmindən və ədəbiyyatından xəbərsiz hansısa bir cahilin deyil, Həzrəti Əli haqqında ən yaxşı tədqiqatlardan birinin - 5 cildlik "İmam Əli - insan ədalətinin səsi" kitabının müəllifi, məşhur livanlı xristian yazıçı Con Cordaqın sözüdür.***

***Həzrəti Əlinin həyatını, düşüncələrini, əxlaqını, idarəetmə fəlsəfəsini və xarakterini dərindən araşdıran, xütbə və məktublarının, kəlamlarının toplandığı "Nəhcül-Bəlağə"ni ciddi şəkildə tədqiq edən yazıçı onu dünyanın, o cümlədən müasir Avropanın ən yaxşı filosoflarıyla müqayisə edərək, sonda üstünlüyü yenə də Peyğəmbərimizin (s.) öz yanındaca böyüdüb yetişdirdiyi bu möhtəşəm tarixi şəxsiyyətə - Həzrəti Məhəmmədin (s.) özünə və yoluna ən sadiq ardıcılına verirdi!***




***Təəssüf ki, biz azərbaycanlılar özümüzü müsəlman saysaq da, nəinki Məhəmməd Peyğəmbəri (s.), heç Onu bizə daha gözəl tanıdan, anladan Həzrəti Əlini də nə bir filosof, nə də bir rəhbər kimi oxuya, öyrənə, dərk edə bilməmişik.***

***Ədaləti, bəsirəti, yoluna və rəhbərinə sədaqəti, cəsarəti, imanı, zəkası və əxlaqıyla bütün bəşəriyyətə işıq saçan, örnək olan bu nəhəng filosof-rəhbərin tarixdəki rolunu, ümmətinin maraqları naminə öz şəxsi arzu və istəklərindən necə keçdiyini, yenicə təşəkkül tapmış İslamda vəhdətin qorunub saxlanması, müsəlmanların parçalanmaması üçün hansı əzablara qatlaşdığını və kritik situasiyalardakı heyrətamiz davranışlarını oxuyub öyrənmək, sevmək əvəzinə, onu hələ də təriqət liderliyinədək kiçildir, öz alçaq boyumuza biçir və utanmadan adını müasir Müaviyə ardıcıllarının fitnəkar siyasətlərinə alət edirik.***

***Həzrəti Əli isə siyasətdən - dünya işlərindən çox-çox üstün və uca, bilgiləri, düşüncələri və həyat tərziylə bütün bəşəriyyətə xoşbəxt yaşamağın açarını, qızıl qaydalarını təqdim edən filosof-alim, ictimai maraqları şəxsi maraqlarından üstün tutmağın və ədalətli idarəetmənin örnəyini yaratmış əsl Rəhbərdir!***

***Cordaq onu təsadüfən "İnsan ədalətinin səsi" adlandırmırdı. Çünki İmam Əli bütün varlığıyla elə ədalətin özüydü!***

***Baxın, doğuluşundan 14 əsr keçib, ancaq bu 14 əsr boyu Həzrəti Əli şəxsiyyətinə münasibət müsəlmanlar arasında haqq ilə nahaqqı ayıran əsas müəyyənləşdirici xətt sayılıb, Peyğəmbərimizin (s.) məşhur "Ya Əli, səni yalnız mömin sevər, sənə yalnız münafiq ədavət bəslər" kəlamı isə möminlə münafiqi, riyakarla dürüstü tanımağın ən aydın əlamətinə, işarətinə çevrilib! Çox maraqlıdır ki, bütün orta əsrlər boyu Yaxın və Orta Şərqi əhatə edən müsəlman coğrafiyasında, o cümlədən elə Azərbaycanda da ən təsirli elmi-siyasi-ədəbi məktəblərin, cərəyanların, tarixin gedişini dəyişən üsyan və etirazların başçıları və hərəkətverici qüvvəsi əsasən Həzrəti Əli ilə Peyğəmbər (s.) qızı Fatimənin soyundan törəyənlər olublar!***

***Bu, bütün elmi tədqiqatçıları heyrətləndirən tarixi fakt, heç kimin silib ata bilmədiyi bir gerçəklik və "Qurani-Kərim"də vəd olunanların da mütləq şəkildə həyata keçəcəyini göstərən ən böyük dəlillərdəndir!***

***Rəcəb ayının 13-ü bu nəhəng şəxsiyyətin - Məhəmməd Peyğəmbərdən (s.) sonra İslam dünyasının bəşəriyyətə təqdim etdiyi ikinci ən böyük simanın, Qiyamətədək artacaq və sonda bütün müsəlmanları birləşdirəcək Peyğəmbər (s.) soyunun əsas davamçılarının - Cənnət gənclərinin ağaları sayılan Həsənlə Hüseynin atasının və bütün bəşəriyyətə ədalət istəyənlərin həqiqi və əbədi Liderinin müqəddəs Kəbə evində dünyaya göz açdığı günün növbəti ildönümüdür.***

***Bəşəriyyətə xilas və nicat düsturunu təqdim edən Məhəmməd Peyğəmbəri (s.) bizə tanıdan və sevdirən yolu yolumuz, duaları isə həmişə birgə görmək istədiyi Ümmətimizin qoruyucusu olsun!***



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Söykəndiyim söz

## O sözün işığında sizinlə baş-başayam

**Adətən öz-özümlə söhbət etməyə, xəyallarımla baş-başa qalmağa, xatirələrimin izinə düşüb getməyə və bir də şəkillərə baxıb... onların səsini eşitməyə elə öyrəşmişəm ki, demək olar ki, bu dediklərimdən uzaqda nə dinclik tapa bilirəm, nə də qərar tuta bilirəm. Sanki kompüter kimi, robot kimi proqramlaşdırılmışam. Məhz bu çevrənin içərisində yaşamaq (əgər bu yaşamaqdısa-Ə.M.)... yaşadıqca da həmin o çevrənin özünü dü özünlə yaşatmaq bir ayrı dünyadı, bir ayrı ömürdü, onu yaşamayanlar bilməz. Yaşayanlar da özləri kimi bilər, mənim kimi yox. Ona görə də dostlarla, doğmalarla, duyğusal oxucularla həmsöhbət olanda, üz-üzə gələndə müxtəlif suallar çıxır ortaya. O sualların da əsas qayəsi mənim nostalji duyğulardan uzaqlaşa bilməməyimdi. Demək olar ki, bu və ya digər formada məni yalnız dünənə bağlılıqda ittiham edirlər. Ordana qopa bilmədiyimi, oranı özümlə daşıdığımı söyləyirlər... olsun!**

**Bəli, mən bir Allah bəndəsi olaraq əlimi ürəyimin üstünə qoyub, Allahın və sənin qarşında etiraf edirəm ki, günahlardan xali deyiləm. Mən də harda, nədəsə günahım olduğumu Allah da, sən də bilirsən və mən də etdiyim günahların cəzasını zaman-zaman çəkmişəm və bu gün də çəkirəm. Heç vaxt da cəzaya görə asi olmamışam. Düşünmüşəm ki, dərd qar-daş üçün olmadığı kimi, cəza da dağ-daş üçün deyil. Deməli, dərd də, cəza da insan üçündür. Əgər bir insan, bir Allah bəndəsi kimi varamsa, ayaqdayamsa, dərdi də çəkməliyəm, cəzanı da. Özü də mənim inancıma görə, Allah dərdi çəkənə verir. Deməli, dərdi çəkən də Allahın sevdiyi bəndələrdəndir. Adətən, biz sevdiyimizi, çox istədiyimizi daha tez-tez xatırlayırıq. Daha tez-tez onların adını çəkirik, onlarla bağlı hansısa bir addımı atırıq. Deməli, uca Yaradan da dərdi o adama verir ki, onu tez-tez xatırlayır, onu tez-tez yada salıb mükafatlandırır. Təbii olaraq bu xatırlanma, bu mükafatlandırma mərasimi nə canlı yayıma çıxarılmış, nə də hansısa bir rəsmi fərmanla, sərəncamla elan edilmir. O Allahla bəndənin arasında olan bir gözəgörünməz tele-körpünün bağlantısından üzə çıxır. Və deməli həmin tele-körpüdən insanın varlığına, ruhuna, üreyinə axıb gəlir tanrının istəyi, verdiyi hədiyyəsi. Bax, həmin an insanın ürəyi işığa dönür. Çünki onun bütün varlığı həmin an Allahın ovcunun içində olur. Xoşbəxt anların isə yozumu yoxdur. Onu olduğu kimi yazmaq da hələ heç bir bəndəyə qismət olmayıb. Odur ki, mənim söylədiklərim, yazdıqlarım sənin qəlbinə dəyməsin. İnciməyəsən və biləsən ki, bütün hallarda sən əsl mahiyyətdəsən. Olanların şah damarındasan. Hətta sənə yazdığım ”İncimə” şeirində dediklərim də bir pıçıltı olaraq təsəlli üçün deyil, sadəcə həmin o anın bir işartısıdı. Mən yazmışam ki:**

*Bura şəhər, sən də sakit və həlim,*
*Səsim, küyüm səni yorsa, incimə...*
*Kənd havalı bir damarım, bir əlim -*
*Bir nimçəni salıb qırsa... incimə!..*

*İstəmirəm göy titrəyə, yer əsə,*
*Sübh oyanıb toxunanda nəyəsə...*
*Qaşlarının bir tərəfi əyilsə -*
*Lap başına, ”cin də vursa”, incimə!*

*Ağarıbdı telim kimi, ağlım da,*
*Maraqsızdı, həyat adlı nağılım da!*
*Mənlə keçən bu illərin axırında -*
*Qazandığın kül, ya qorsa, incimə!*

*Fərəhlənmək... kədərlənmək nisbidi,*
*Baxışlar buz, göz yaşısa istidi!*
*Bəndənizdi, Əbülfət də ismidi -*
*Sevdin məni? - deyib sorsa, incimə!*

**Yəqin ki, bu nostalji duyğulara köklənmiş pıçıltılar öz-özlüyündə azdan-çoxdan nəysə dedim. Və həmin o azdan-çoxdan deyiləni də hamı olmasa da, beş-on adam dinlədi...o dinləyənin də beşi-üçü yəqin ki, qəbul etdi. Bax, bu sıralamanın yekununda bir məqam sual işarəsi kimi dayanıb göz önümdə:**

**Nə olsun, bütün bunlar nə üçündü?**

**Həqiqətən, ağıllı və məntiqli sualdı. Mən o sualı bir də olduğu kimi təkrar edirəm:**

**Nə olsun, bütün bunlar nə üçündü?**

**Sizi anlayıram və heç bir inciklik, filan ağlıma gətirmədən demək istəyirəm ki, həqiqətən sizin üçün həmin ”nə olsun?” sualı mənə tuşlanan ağrının gülləsidi, mərmisidi. Və sizin təklikdə olan barmağınız o cümlənin, o mərminin hara dəyəcəyinin fərqində deyil. Ona görə də mən heç bir izahat, şərh vermədən elə sizin sualınızı özünüzə qaytarıram:**

**Nə olsun?**

**Bir ürəyin ağrıması, bir ruhun göynəməsi nəyi dəyişir? Ümumiyyətlə dəyişmə gücündədirmi?**

**Bəli, bu dialoq olmadı, bu sadəcə bax, yaranmış mənzərənin anlayan və anlamayan arasındakı nöqtəyə sancılmış bir xəncərdir. Həm kəsir, həm də ”dayan!” deyir. Mən də hər ikisinin sizə xatir əməl edirəm. Könlüm, ruhum isə Tanrı ilədi.**

***

**Yazı adamlarının bir-birinə doğmalığı onların qələmini şərəfləndirən sözdən keçir. Belə götürəndə, söz var, mövcuddur və ondan hər kəs bacarlığı qədər istifadə edir. Amma bu o demək deyil ki, bütün danışanlar bir-biri ilə doğmadı, qohumdu, əqrabadı. Lakin şairlərin, yazıçıların, ümumiyyətlə, söz adamlarının qovuşma nöqtəsi olan Söz qələmdən-qələmə, ruhdan-ruha daşıyır o istiliyi, o əlaqəni. Və nəhayətdə, ortaya məhz söz adamlarının doğmalığı gəlib çıxır. Mənə görə bütün söz adamları bir dünyanın təmsilçiləri, bir ailənin üzvləridilər. Təbii ki, ailədə hamı cüssəliyi, boylu-buxunlu, səliqəli, sahmanlı və hamı da eyni məntiqli, düşüncəli olmur. Deməli, bu da, əgər yozum etsək, məntiqlə yanaşsaq, onda göstərir ki, söhbət bir dünyada (yəni, söz adamlarından - Ə.M.) cəm olan adamlardan gedir. Titullar da, oxucu sevgisi də, gündəmdə olmaq da, hətta oxucu məktubu almaq da məhz həmin o bir dünyanın təmsilçisi olanların sözünün qiymətidi, mükafatıdı. Ona görə də paxıllıq, xainlik, biganəlik, etinasızlıq, lap elə gizli və ya açıq qeybətlər, qarayaxmalar, halal sözün sahibinə heç vaxt yapışmır. Necə deyərlər, yel qayadan heç nə aparmır. Bu məqamda yadıma indi oxuyacağınız misralar düşür:**

*Yenə üreyimi qəm çəkir dara,*
*Üzüm gün batana, yolum gecəyə.*
*Üstümə çəkilən boyalar qara -*
*Sağım mənə gülür, solum gecəyə...*

*Alqış dilimdədi, dua qəlbimdə,*
*Min illik sevgiyə yuva - qəlbimdə!*
*Gözlərin görəni duya qəlbində -*
*Əlim sübhə açıq, qolum gecəyə!...*

*Tanıdım, vuruldum, bildim sirr səni,*
*Seçdim Qiblə səni, bildim Pir səni!*
*Yuxuma gətirir hərdən Bir səni -*
*Bu xətrə qoy qurban, olum gecəyə!*

***

**Bir az da həmsöhbət olduq, bir az sözün məclisində üzbəüz oturduq. Bilmirəm sizə xoş gəldimi, ya yox. Amma bütün hallarda mən elə özümü götürüb gəlmişdim görüşünüzə. Və bu gəlişimin də səbəbkarı Allahım və Sən idin. Ona görə də gəlməyə bilməzdim. Və əgər gəlməsəydim, bunun özü də günahlarıma bir günahın da əlavəsi olacaqdı.**

**Doğrudur, günahın sayı və onun çəkisi əl çatıb ün yetməyən dərgahda qiymətləndirilir. Buna baxmayaraq unutmaq olmaz ki, Allah hər yerdə, hər kəsdə, hər andadır.**

**Və mənim üçün də hər kəsdə, hər yerdə və hər anda olan Allah səni də mənim hər anımda var edibdir. Çünki mən Allah sözünü hər an eşidir və dinləyirəm. O sözün mənim qələmimdəki bir yozumu da belədir:**

*Eşq sonsuz, dünya gidi,*
*İnanc sözə söykəndim.*
*Ürək mənə ”döz!” - dedi -*
*Susub, dözə söykəndim...*

*Cığırdı, yoxsa yoldu,*
*Ot bitdi - gözüm doldu.*
*Ruhum da göz-göz oldu,*
*Mən bu gözə söykəndim...*

*İstəyimə yetdiyim,*
*Ümid hesab etdiyim.*
*Tüstüsünə getdiyim -*
*Oda, közə söykəndim...*

*Varlığın mənə həbdi,*
*Gözlərimə nur təpdi!*
*Qələm verən Söz səpdi -*
*Mən o sözə söykəndim!..*

**Bu anda, bu yerdə zənnimcə susmaq lazımdı... susub sözün cavabını gözləmək lazımdı! Susub söykəndiyimiz sözün cavabıdı.**

# UZUN, İNCƏ BİR YOL HAQQINDA TƏBRİK

**Onun dünyaya gəldiyi günü çox adam xatırlamır. Çünki onu dünyaya gətirən anası çox erkən yaşda, ömrünün otuz dördüncü baharında dünyadan köçüb, nənəsi, babası da çoxdan torpağın əbədi sakini ünvanını qazanıb.**

Mənə sual versələr ki, ”Mübarizə” nə deməkdir? Mən düşünmədən anamın adını çəkərəm. Məncə mübarizənin, savaşın, usanmamağın, yorulmamağın ən dəqiq təsviri odur. Ona görə yox ki, o mənim anamdır, yox, əsla, ona görə ki, adam anasızlığın ağrısını, arzularının arxasınca qaçmağının yorğunluğunu, sözün və etibarlılığın məsuliyyətini, zəhmətin, halallığın işığında yol getməyin fəlsəfəsini bilən, duyan və yaşayan adamdır

Anam haqqında ilk dəfədir ki, yazı yazıram. Düzü, anam haqqında uzun-uzun danışdığımı da xatırlamıram. Bəlkə də o mənim üçün danışmağın yox, hərəkətin, əməlin, düzgünlüyün, göründüyün kimi olmağın, olduğun kimi görünməyin nümunəsi olub deyə, məndə onun haqqında danışmaq ehtiyacı olmayıb.

Yazmaq ehtiyacı isə bu gün, onun ad günü zərurətinə bağlıdır, desəm, yalan olmaz. Yox, bu yazı, ancaq təbrik yazısı deyil. Bu yazı, həm də yaddaş yazısıdır, tarixi ismarışdır, keçmişin gələcəyə ”sözü”dür, uzun, incə bir yolun təbrikidir...



Bəyaz müəllimə ömrünün otuz ilini Azərbaycan təhsilinə həsr edib. Bu otuz ildə bir dəfə də olsun, onun nədənsə şikayət etdiyini və ya kiminsə ondan şikayət etdiyini görmədim.

Bəyaz müəllimə Azərbaycan təhsilinin bütün çətinliklərini bir kəlmə söz demədən, böyük sevgi və hörmətlə öz biliyi və təcrübəsi ilə çəkməyi bacaran müəllimlərdəndir.

Bakı şəhəri, Yasamal rayonu, 20 nömrəli lisey-məktəbdə şagirdlərin sevgisini, kollektivin hörmətini qazanıb. Onun xoşbəxtliyi də elə bundadır. O, Azərbaycan gəncliyini hazırlayan və yetişdirən fədakar bir pedaqoq kimi öz işində heç vaxt ”yoruldum” demədi. Bəlkə də bir müəllim kimi əziyyətinin qarşılığı almır, ancaq onun üçün bir mükafat var: O da xalqın gələcəyi ilə bağlı işıqlı sabahlara savadlı, vətənpərvər və faydalı vətəndaşların yetişdirilməsi mükafatıdır. Bu mükafatı qazanmaq hər adama qismət olmur

Pafoslu, standart sözlərdən uzağam, Ana! Bilirsən ki, hisslərimi aşkar ifadə etmək də mənlik deyil. Ancaq onu bil ki, sən həyatla mübarizədə ən çox özünə qalib gəlmisən, atamı, bacımı, məni və doğmalarını bu mübarizədə tək qoymamısan, hamıya kömək əlini uzatmısan, əlin ağrımasın, ancaq bir az da özün üçün yaşa !

Yaz fəslini sevirsən, baxmayaraq ki, qışda doğulmusan, Yazların həmişə üzünə gülsün, bir də yadımdan çıxmamış onu deyim ki, sənin haqqında danışmaq da çətindi, ancaq yazmaq lap çətin imiş

**Sözümün gücü nəyə çatdısa yazdım, yazdım ki, səni belə təbrik edim, hamı kimi yox, özüm kimi ! Ömrün uzun, ”mübarizən” qutlu olsun!**

**Tural Cəfərli**



Ramil Şınıxlı

## “Min” Şükür

**Dağlardanmı gəlmisən**
**Gül tək ətirlənmisən**
**Qız necə sevimlisən**

**Min min min min şükür**
**Səni verənə min şükür**
**Qız necədə gözəlsən**
**Səni verənə min şükür**

**Gözəllərin balısan**
**Hər kəsin xəyalısan**
**Hansı kənd maralısan**

**Heyran etdin naz məni**
**Öldürdün ay qız məni**
**Dəli eləyib naz məni**

**Min min min min şükür**
**Səni verənə min şükür**
**Qız necədə gözəlsən**
**Səni verənə min şükür**

## Kiyev elan etdi: Qərb F-16-ları verməyə hazırdır

**Qərb artıq Ukraynaya F-16 təyyarələri verməyə hazırdır. Bunu Ukrayna Hərbi Hava Qüvvələrinin spikeri Yuri İqnat deyib.**



**Onun sözlərinə görə, təyyarələri Ukraynaya göndərmək üçün təkcə təlim keçmiş pilotlara deyil, həm də müvafiq infrastruktura və təlim keçmiş mühəndislərə sahib olmaq lazımdır: ”F-16-nın əsas vəzifələrindən biri Rusiya təyyarələrini cəbhə xəttindən geri oturtmaq və Ukraynaya hücum edən ”Şahid”ləri məhv etmək olacaq”.**

# *Ülkər Qəmbərli:* "Dedim, institutun qabağına yazın ki, qadın vəzifədə olmayacaq burada"

*"Özüm kolxozçu ailəsində böyüsəm də, biz kökdən bəy nəsliyik - Təmrazbəyovlardan. Neftçi-geoloq olmağı təsadüfən seçmişəm. Amma sonradan bu peşəni o qədər çox sevmişəm ki, bir də doğulsam, bir də geoloq olardım".*

*Bu fikirləri Oxu.Az-a müsahibəsində 87 yaşlı Ülkər Qəmbərli deyib. Ülkər xanım çox maraqlı həyat yolunu və xatirələrini bizimlə bölüşüb. Müsahibəni təqdim edirik:*




**- Ülkər xanım, uzun illər neft sahəsində çalışmısınız. Hansı ailədə böyümüsünüz, valideynləriniz nə işlə məşğul olublar?**

- Mən 1937-ci ildə Füzulidə, kolxozçu ailəsində anadan olmuşam. Anam fəal kolxozçu olub. Atam 1941-ci ildə rəhmətə gedib, mənim üç-dörd yaşım olanda.

**- Necə oldu ki, neftçi-geoloq sahəsini seçdiniz?**

- Demək, mən məktəbi bitirəndə imtahan verdim. Mənə qızıl medal düşürdü. Elə oldu ki, bir ədəbiyyat müəllimim özünün qaynını saldı məndən əvvələ. Mən rus dilindən "5" aldım, ədəbiyyatdan - "4". Elə oldu, gümüş medal aldım, qızıl vermədilər.

**- Neçənci il idi?**

- 1956-cı il.

**- Belə çıxır ki, sizin neftçi-geoloq ixtisasını seçməyiniz təsadüfən olub.**

- Bəli. Mən fikirləşdim ki, ən çətin ixtisas nədir, gedib onu oxuyacağam. Dedilər, get AZİ-yə (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - red.). Gəldim AZİ-yə, bütün sənədlərimi verdim, arxayın oturdum ki, imtahanı verib, keçəcəyəm. Altı imtahanın beşindən "5" aldım. Bircə fizikadan "4" aldım. Girdim instituta, oxudum, qurtardım.

**- Həyat yoldaşınız da sizin kimi neftçi-geoloq olub. Harada tanış olmusunuz - institutda, yoxsa?..**

- Yox. Təcrübəyə gedəndə. Deməli, biz getdik Şamaxının Çuxuryurd kəndinə. Üçüncü kursda oxuyurduq. 1959, ya 60-cı il idi. Fərhadgil də (həyat yoldaşı - red.) orada təcrübədə idilər. Bir dəfə Pirsaat çayından keçmək lazım idi. Mən fikirləşdim ki, heç kimə əlimi verməyəcəyəm. Qızlar oğlanların əlindən tutub keçirdilər. Nə qədər elədilər, heç kimin əlindən tutmadım ki, özüm keçəcəyəm, onda da düşdüm suya. Hamı əlini uzatdı, yenə tutmadım. Onda Fərhad əlindəki çəkicin ağzını uzatdı, ondan tutub çıxdım. Sonra da beləcə... *(gülür)*

**- Neçə il işləmisiniz neftçi-geoloq kimi?**

- Qırx dörd il.

**- İşinizi bizə necə təqdim edə bilərsiniz, bu işin özəlliyi nədir?**

- Neftçi-geoloq çox aparıcı fakültədir. Deyə bilərəm ki, neft sənayesində ən irəli gedən geoloqlardır. Biz geoloqlar quyunun yerini təyin edirik, sonra gözləyirik ki, quyu işə düşsün. Elə olur ki, quyu ləğv olunur, elə də olur ki, ömürboyu işləyir. Məsələn, Mişovdağda 2 nömrəli quyu vardı (Təxminən 1954-56-cı illərdə qazılıb - red.). Həmin quyu mən təqaüdə çıxanacan işləyirdi.

**- Yoldaşınızla eyni sahədə işləmisiniz. Evdə iş məsələləri müzakirə edirdinizmi?**

- Əlbəttə, danışırdıq, hesablayırdıq, hətta mən sahəyə çıxanda deyirdi ki, gələndə mənə xəbər ver. İki-üç dəfə mən getdim sahəyə. Sonra bizim böyüyümüz vardı, o hamımızı çağırıb dedi ki, "Bu qadın niyə gedir sahəyə? Haradasınız siz, ay kişilər? Niyə göndərirsiniz onu? Gedər, qorxar". Deyirdim, mən heç nədən qorxmuram, həvəslə işləyirəm. Axırıncı iş günümdə ərizə yazdım. İngilislərlə işləyirdik. Müdir mənə dedi ki, "Qulaq asın, Ülkər xanım, mən düşünürəm ki, burada bilikli, ziyalı bir qadın var. Mən onunla fəxr edirəm. Niyə gedirsiniz? Kimdir sizə get deyən?" Dedim, bəs bacım xəstədir, ona qulluq eləməliyəm. Sonra da işdən çıxdım.

**- İşinizin ən maraqlı tərəfi nədir?**

- Geologiyanı çox sevirəm deyə onun hər yeri mənə maraqlıdır. Maraqsız tərəf görə bilmirəm.

**- Bəs ən çətin tərəfi?**

- Bizə "nenormirovannı" (qeyri-standart qrafikli) işçi deyirdilər. Yəni orada qanun yoxdur - əgər işin qurtarmayıbsa, oturursan, işini qurtarırsan, sonra gedirsən. Bizdə o qədər maraqlı işlər var idi ki, onların həll olunmasında kömək olmuşam.

**- İlk dəfə mədənə gedəndə təəssüratınız nə oldu? Neçənci il idi?**

- Mədənə institutu qurtarıb, sonra getmişdim. İnstitutu da qurtarmışdım 1961-ci ilin 9 iyulunda. Həmin ilin sentyabrında ilk dəfə gəldim işə. Mənə də demişdilər ki, sən elmi-tədqiqat laboratoriyasına get. Bu laboratoriya nefti analiz edir, suyu analiz edir - bir sözlə, hər şeyi. Getdim oraya. Direktor bir oğlana tapşırdı ki, məni aparsın mədənə. Oğlan məni gətirib təhvil verdi mədənə. Mədəndə elə bildilər ki, qadınam deyə heç bir iş görmərəm. Nə isə, oturdum. Dedim, mən axı burada oturmalı deyiləm, tədqiqata gəlmişəm, mədənə getmək istəyirəm. Dedilər, nə olar ki, gedərik. Təsəvvür edin, mədənə getdim, axşamçağı bir vərəq çatışmazlıq gətirdim: filan quyuya baxılmalıdır, filan quyuda neft axır və s. Baxdılar geoloqun üzünə, dedilər, bu səndən betərdir, çətin olacaq. İki ay işlədim orada. Əvvəl geoloq kimi götürdülər, iki-üç ay sonra oldum baş geoloq. On il sonra oldum mədən müdiri.

Çox həvəslə işləmişəm. 1968-ci ildə "AzNeft"in "Qızıl kitabı"na adım yazılıb. Əlavə işlər də görmüşəm. Məsələn, texnikum uşaqları diplom yazmaq üçün kömək etməyimi istəyirdilər, hamısına kömək edirdim.

**- Ülkər xanım, siz də, rəhmətlik həyat yoldaşınız Fərhad müəllim də neft yataqlarının açılmasında iştirak edən azsaylı adamlardansınız. Yadınızdadırmı ilk dəfə neçənci ildə və hansı yatağın açılışında iştirak etmisiniz?**

- Biz ancaq bir sahədə idik - "Mişovdağ"da. Yazdığım əsasnamə üzrə orada bir quyunu açdılar, qaz alındı. Baxmayaraq ki, orada əvvəl qaz yox idi. "Kəmaləddin" yatağının açılışında mənim rolum olub. Sonra Kürdəmirdə, "Muradxanlı" yatağının açılışında da mənim iştirakım olub. Yoldaşım ancaq "Kirovdağ"da işləyirdi. Orden alıb, medal alıb. Ona "Sosialist Əməyi Qəhrəmanı" adı verməli idilər. Hətta buna görə bizim evə də gəlmişdilər. Nə oldusa, vermədilər.

**- Neçənci il idi?**

- 1967-ci il.

**- Niyə yataqların açılışında az adam iştirak edirdi?**

- Çünki bilən yox idi. Bilik səviyyəsi yetən az idi.

**- İşdən neçənci ildə çıxdınız?**

- 2005-ci il fevral ayının 28-də. Fevralın 28-də çıxdım, amma mənim üçün geniş bir yığıncaq təşkil etdilər - yolasalma. İşdən tam çıxdım martın 8-də. İndi 8 mart həm yaşımdır, həm də işdən çıxmağım.

**- Bəs sonra?**

- Sonra - heç nə. Oturdum evdə. Çox istəyirdim ki, AZİ-də dərs deyim. Çünki o işi o qədər mənimsəmişdim ki, bir dəqiqə bikar vaxtım olmurdu. Bu boyda bilikdən, təcrübədən istifadə edə bilərdilər, uşaqlara öyrədə bilərdim. Bunu mənə təklif edə bilərdilər.

**- Bikar vaxtınızın olmadığı illərdə ailə ilə mədəni necə bir araya gətirirdiniz?**

- Bacım var idi. Uşaqlara bacım baxırdı, dərslərinə mən baxırdım.

**- Övladlarınızı böyütməyin yükü, bacınızdan başqa, ən çox kimin çiyninə düşüb - sizin, yoxsa Fərhad müəllimin?**

- Fərhadın, demək olar, vaxtı yox idi. O heç vaxt səhər yeddidə gedib, axşam beşdə gəlməyib. Həmişə gec gələrdi. Ancaq uşaqların hamısının yaşında qalıb, evə bazarlıq edib gətirib, ad günlərini böyük bir bayram kimi keçirmişik. Həmişə. Üçünün də.

**- Kiçik qızınız Şəkər xanım da neft sahəsində çalışır, mühəndisdir. Bu sahəni seçməsində valideyn kimi təsiriniz olub, yoxsa özü seçib?**

- Özü seçib. Şəkər Moskvada oxuyurdu. Moskvadan gəldi, burada oxuyub qurtardı geologiyanı. O, yaxşı oxuyurdu, çox yaxşı oxuyurdu. Mən elə bilirdim ki, Şəhla onun kimi deyil. İndi gəldim buraya (qızıgildə yaşamağı nəzərdə tutur - red.), görürəm, elə deyil. Şəhla Azərbaycan dili və ədəbiyyatı müəllimidir.

O qədər xoşuma gəlir onun müəllimliyi, o qədər... Bilmirəm e, necə deyim. Görürsən ki, uşaqlar ona öz xətləri ilə təbrik yazırlar. Deyirəm, "ay Şəhla, bu diqqət hər adama qismət olan şey deyil".

**- Övladlarınızın yolunu davam etdirməsini istəmisiniz?**

- Yox. Özüm istəmişəm ki, Şəhla rus dili müəllimi olsun. Şəkər ixtisasını özü seçdi, Mahirə də deyirdim, həmişə istəmişəm ki, oğlum "Politexnik"i (indiki Texniki Universiteti) bitirsin, sən sənədlərini radiotexnika fakültəsinə ver.

**- Bildiyim qədərilə fəal ictimaiyyətçi, neftçi hüquqlarının müdafiəçisi olmusunuz, bir çox gənclərin oxumağında, ailə qurmasında rolunuz olub. Bütün bunların öhdəsindən necə gəlmisiniz?**

- Fərhadın belə bir xasiyyəti vardı - ürəyim gəlmir e, ona Allah rəhmət eləsin deyim, heç ürəyim gəlmir (kövrəlir - red.). O, gözləyirdi qapının ağzında. Deyirdi, nə oldu? Deyirdim, ay Fərhad, elə yaxşı oldu, barışdırdım. Deyirdi, əla, gəl, çay içək. Dediyiniz kimi, neftçi hüquqlarının müdafiəsində də olmuşam, kimin nə işi vardı, köməyinə gedirdim.

**- Ülkər xanım, bu qədər xanımxatınlıq sizə ananızdan keçib?**

- Mən sizə deyim, biz kökdən bəy nəsliyik. Füzulidə dağılan yerləri çəkiblər, görmüşünüz, yəqin. Baxıram, orada hər şeyi uçurublar, bircə bizim evdən başqa. Uçura bilməyiblər e, ona görə. Çünki bizim evin layihəsini o vaxt ulu babam - atamın atasının atası - gürcü memarlardan satın alıb. Soyadımız Təmrazbəyov olub. Sonra o vaxt camaatı QULAQ-a göndərəndə (QULAQ - 1930-50-ci illərdə, İ.Stalin dönəmində məcburi əmək düşərgələrini idarə edən dövlət qurumu. İlk dəfə belə düşərgələr 1918-ci ildə yaradılmışdı və termin geniş formada SSRİ-də hər hansı əmək düşərgəsini təsvir etmək üçün istifadə olunurdu - red.) ulu nənəmgil gedib pul verib, soyadlarını dəyişiblər ki, uşaqlara xətər toxunmasın.

**- Ədəb-ərkanlı adam kimə deyirlər?**

- Onu hər kəs bir cür görə bilər, amma mənə görə, ədəbli adam o adama deyilir ki, heç kim yanında olmayanda da özünü ədəbli aparır.

**- Ülkər xanım, xoşbəxtlik nədir?**

- Xoşbəxtlik hər işdə var. Həyatında yaxşı iş olanda, övladların yaxşı olanda. Allah hamınızı saxlasın. Çox razıyam uşaqlarımdan. Qorxuram da bunu deməyə, deyirəm, bəlkə, xoşbəxtəm.

**- Bəlkə, xoşbəxtsiniz?**

- Bəlkə, xoşbəxtəm. Uşaqlarım, elə bilin, özümdürlər. Şükür.

**- Neçə nəvə-nəticəniz var?**

- Doqquz nəvəm, on nəticəm var.

**- Xasiyyət baxımından özünüzü hansında görürsünüz?**

- Hələ balacadırlar. Heç deyə bilmirəm. Həm də uzaqda olurlar, xarakterlərini bilmirəm.

**- Bəs uşaqlarınızdan?**

- Uşaqlardan üçünün də xarakteri mənimdir.

**- Deyirsiniz, Fərhad müəllimdən heç nə götürməyiblər?**

- Yox, yox. Ataları... Onların ataları o qədər uşaq istəyən idi, o qədər yazığa, yetimə yiyə duran adam idi... Gedirdik bazara, görürdük bir balaca, nəzarətsiz uşaq var, deyirdi, Ülkər, gəl bunu aparaq, Allah haqqı, yaxşı olar, götür, aparaq saxlayaq. Deyirdim, ay Fərhad, mən evdəyəm məgər, öz uşağımı bacım saxlayır... Elə ürəyiyuxa insan idi.

**- Ülkər xanım, uğurlu olmaq üçün nə etmək lazımdır?**

- Elə bilirəm ki, düz yolu getmək lazımdır. İşin düz olmalıdır. Yalançılıqla iş olmaz. Nə cür deyim, uğuru ancaq düzgün tərbiyədə, düzgün yolda görürəm.

**- Maşallah, 87 yaşındasınız. Uzun illər "Şirvanneft" Neft-Qaz çıxarma İdarəsində geoloji şöbənin rəisi işləmisiniz. Bu gün Ülkər Qəmbərli həyatda kimə minnətdardır?**

- Anama. Atamı görməmişəm axı. Anamın dediyi mənim üçün yazı idi. Anamın ali təhsili yox idi, amma qəzet oxuyurdu, həmişə çalışırdı.

**- Sizin dövrünüzdə neftçi-geoloqun aldığı maaş başqaları ilə müqayisədə yüksək idimi?**

- Yox, elə yüksək deyildi. Baxma ki, hər işi bilirdim. Deməli, bir şey deyim: Bir dəfə gəlib dedilər ki, yer açılıb - şöbə müdiri, onu filankəsə veririk.

Gəldim müdirin yanına, dedim ki, niyə verirsiniz ki filankəsə? Məni görmürsünüz orada? Dedi, heç eşitmisiniz ki, neft sənayesində hansısa qadın vəzifədədir? Dedim, onda institutun qabağına yazın ki, qadın vəzifədə olmayacaq burada. Görək kim gələr orada? Nə isə, verdi mənə şöbə müdirliyini. Hər cür yoxlayırdılar, hər cür sual verirdilər, ancaq şükür Allaha ki, həmişə yaxşı çıxmışam sınaqdan. *(gülür)*

**- Operator işi ilə başlamısınız ilk dəfə.**

- Bəli. İlk dəfə tədqiqat operatoru işləmişəm. O da geoloq peşəsinin başlanğıcıdır.

**- Bəs şöbə müdiri neçənci ildə olmusunuz?**

- 1970-ci ildə.

**- Bugünkü gənclərə tövsiyəniz nə olar?**

- Yaxşı oxusunlar. Özü də eləbelə oxumaq yox e, oxuduqlarını bilsinlər, başa düşsünlər. Bilən adamlara yaxınlaşsınlar, bir ağıllı söz eşitsinlər.

**- Ülkər xanım, uşaq anasını eşitməlidir, yoxsa nənəsini?**

- Anasını. Ananın sözünü.

**- Yadınıza düşəndə hələ də üzünüzü güldürən hadisə varmı?**

- Var. Fərhadla tanışlığımız mənim üçün çox gülməlidir. Çayın məni apardığı yerdə heç kimə mən əl vermədim, Fərhad çəkici uzatdı, tutdum ondan, çıxdım. O ana kimi Fərhadı nə görmüşdüm, nə tanıyırdım. Bizim institutdan da deyildi. Təsəvvür edin, həmin Pirsaat çayından Çuxuryurda qədər piyada gəldik. Bu yol ömrümüzün axırına kimi birləşdirdi bizi.

**- Siz Füzulidə, Sərdarlıda anadan olmusunuz, bəs yoldaşınız?**

- Yoldaşım Füzulinin Kürdlər kəndindəndir. Ancaq onlar çoxdan köçüblər Bakıya.

**- Siz neçə yaşında köçmüsünüz Füzulidən?**

- Orta məktəbi qurtarıb çıxmışam.

**- Getmək istəmisiniz heç?**

- Getmək istəmişəm... İşğal altında olanda... İndi bu yaşımda necə gedim?

**Əzizə İsmayılova**



Vüqar Abbasov

# Münaqişə bitər, Qafqazı rahat buraxsalar

**Bugünlərdə, mərkəzi idarəsi Almaniyada olan, Avropa Xəbər Agentliyində (European News Agency) Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı yazım yayımlanıb. Həmən yazınını Azərbaycan dilində "Ədalət"in oxucuları ilə də bölüşmək istəyirəm. Xüsusi qeyd etmək istəyirəm ki, yazı readksiyaya 13-10-2023 - cü ildə təqdim olunub, yəni bayrağımız Xankəndində dalğalanmamışdan öncə. O vaxtdan da redaksiya ilə yazışmalarımızın nəticəsində yazıya bəzi düzəlişlər etdim, sonunda yazı yayımlandı. Etiraf edim ki, artıq yazının veriləcəyinə inamımı itirmişdim. Hər bir halda yazıda Azərbaycan həqiqətlərinin öz əksini tapdığına inanıram.**

***

**Qafqazda baş verənlər yenə də dünyanın diqqət mərkəzindədir. Daha doğrusu, Azərbaycanın bir hissəsi olduğuna, əslində, kimsənin şübhə etmədiyi, hər bir siyasətçinin bildiyi, Qarabağda baş verənlər dünyanın diqqət mərkəzindədir. Qarabağın Azərbaycanın ərazisi olduğunu sübut etmək o qədər də çətin deyil, sadəcə Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsinə (S/RES/822 (1993), S/RES/853 (1993), S/RES/874 (1993), S/RES/884 (1993)ç mənbə: https://www.un.org/security-council/content/resolutions-adopted-security-council-1993) və iyinminci əsrin əvvəllərində olan xəritəyə baxmaq kifayət edir. Bundan başqa, Azərbaycan Respublikası 1991 - ci ildə o zamnkı SSRİ - dən ayrılaraq müstəqilliyini elan edib və dünyanın bir çox dövlətləri, həmçinin də Avropa dövlətləri Azərbaycanın müstəqilliyini tanıyıblar və həmən vaxt olan ərazi si, 86,6 min kv. Km. ərazi ilə, yəni Qarabağ da daxil. Ermənitstanın hazırkı Baş Naziri Nikol Paşinyan da Azərbaycan ərazisinin bütövlüyünü tanıyıb, yəni 86,6 min kv.km. olmasını. Bu da o deməkdir ki, Qarabağın Azərbaycan ərazisi olmasını rəsmən tanıyıb.**

**Məlumat üçün qeyd edim ki, Ermənistan təxminən otuz il öncə Azərbaycanın ərazisi olan Dağlıq Qarbağ (o zaman belə adlanırdı, indi isə sadəcə Qarabağ adlanır) və yeddi rayonunu işğal etmişdi. 27 sentyabr 2020 - ci ildə başlayan və 10 noyabr 2020 - ci ildə bitən 44 günlük müharibə ilə Azərbaycan öz ərazilərinin bir hissəsini işğaldan azad etdi.**

**İndi isə Azərbaycan ərazilərinin tamını öz nəzrətinə almaq istəyir. Bu da o deməkdir ki, Xankəndi də daxil olmaqla digər ərazilərdən Ermənistanın silahlı birləşmələrini çıxartmağa çalışır. Amma ən yuxarı səviyyədə orada yaşayan ermənilərə müracət edilib ki, Azərbaycan vətəndaşlığını qəbul edən və qanunlarımıza əməl edəcək hər bir erməni Qarabağda yaşamağa davam edə bilər. Artıq xeyli sayda erməni millətindən olan şəxslər də Azərbaycan vətəndaşlığını almaq üçün müraciət edibdir. Görkəmli Fransız yazıçısı Jan - Jak Russo "İctimai müqavilə" əsərində "Dövlətin qanunlarına tabe olanlar vətəndaş adını alırlar" yazır və haqlıdır da. Bir çox erməni millətindən olan şəxslər isə vətəndaşlığı qəbul etmək istəməyərək Qarabağı tərk ediblər. Əslində anlaşılandır, bütün bu olanlardan sonra ehtiyatlı davranmaları üçün əsasları ola bilər. Amma inanıram ki, bir müddət sonra bir çoxları yenə də geri qayıtmağa qərar verə bilərlər. Dünyanın bir çox ölkələrinin rəhbərləri də bu durumdan naratlığını ifadə ediblər. Anlaşılan ola bilərdi, əgər həmən dövlətlər 1992 - ci ildə Azərbaycanın ərazisi olan, o zamankı Dağlıq Qarabağ və digər yeddi rayon işğal olunanda, bir milyona yaxın insan öz yaşayış yerini tərk edəndə də narahat olsa idilər. Anlaşılardı, əgər 1992 - ci ilin 26 fevralında Xocalıda baş verənlərə də həssas münasibət bildirilsə idi. Amma bunu görmədik. Özümə sual edirəm, görəsən nədən görmədik? Həmçinin sual edirəm, görəsən bu gün baş verənlərdən narahat olan bəzi dövlət başçıları bu narahatlıqlarında nə qədər səmimidirlər?**

**O zaman, yəni ötən əsrin 90 - cı illərində Ermənistan Rusiyanın köməkliyi ilə Azərbaycan ərazilərini işğal etdi. Bu gün isə Azərbaycan öz ərazilərini işğaldan azad edə bilir, çünki Rusiyanın başı Ukrayna müharibəsinə qarışıb. Bəziləri israrla bu baş verənlərə dini aspektdən baxmağa çalışırlar. Amma bunun dini savaş olmadığını da çoxları yaxşı bilir. Dini bir savaş olsa idi, İran Ermənistana, İsrail isə Azərbaycana tərəf saxlamazdı. Məsələ əslində çox fərqlidir. Böyük güclərin Qafqazda güc yarışmasıdır, maraqlarının təmin edilməsi savaşıdır. İllərdir Rusiya və bir çox Qərb dövlətləri Ermənistana tərəf saxladı, kimsə bunları görmədi. Bu gün Türkiyə Azərbaycana tərəf saxlayır, əslində isə haqlı tərəfə tərəfkeşlik edir. Bir çoxları isə bundan narahat olurlar. Məncə, narahat olmağına dəyməz. Əgər belə narahatdırlarsa, Qafqaza rahatlıq versinlər və imkan versinlər ki, bu iki xalq, Erməni və Azərbaycan xalqı öz talelərinə özləri qərar versinlər İnanıram ki, belə olduğu halda, bu münaqişə, bir daha yenidən başlamamaq şərti ilə, sona çatar.**

# Cəfakeş ifaçı

**...Gözünü dünyaya açandan vuruşdu, çarpışdı, əlləşdi. Dərdin, əlimin içinə girib yaşamaq istədi. Məgər dərdlə, dərdli yaşamaq olar? Aygün isə yaşadı. Düz 15 yaşından son nəfəsinədək, 48 yaşına kimi nələr çəkmədi, nələri yaşamadı. Dərdi özündən, dünyasından böyük Aygün kepkasını başına qoyub kişi kimi həyat sürdü, yaşadı. Mənasız, sönük, gündəlik ibtidai və ali qayğılara qoşulmadı. Onun dərdi daha yüksək, zirvəli idi. Adam dərdin zirəsini fəth edəndə usanır, yorulur, həyatdan bezir. Üzü dönür adamın hər şeydən. Aygün isə ən yaxınlarının belə onu başa düşməyib, onu təbii və qeyi-adi qayğılarla yüklədikləri zaman o qazanc qazandı, ailəsinin əlindən tutdu. Hamının dərdini çəkdi Aygün.**

Həyatın adi, basit və yorucu axınına düşmədi, qarışmadı... Öz dünyası vardı Aygünün. Onun dünyası, təkcə onun olan nəğməli dünya.



Aygün çölü yox, içi, ürəyi, ağlı, şüuru ilə ağrılı oxuyurdu. O, hamı kimi oxumurdu. Aygün yolda da, ayaqüstə olanda da, yatanda da oxuyurdu.

Mayası musiqidən yoğrulmuşdu Aygünün. Təkcə səsi, nəfəsi ilə oxumurdu. İçi, məni, üzü, çöhrəsi bütün vücudu, barmaqları ilə oxuyurdu. Ürəklərdə, qəlblərdə daşları əridir, nəğmə çələngi toxuyurdu.

Başdan ayağa musiqi, nəğmə idi Aygün. Yaşamın ayını, gününü gəzdirirdi qəlbində. Ürəyində həyat qaynayıb daşırdı. Istedadı, ifası ilə bütün çətin sərhədləri aşırdı.

O, elə oxuyurdu ki... Səsindən, nəfəsindən, içindən, çölündən nəğmə süzülürdü. Mahnını elə yaşayırdı ki, biz üzülürdük, özü də üzülürdü. Ifası özünəməxsus idi. O qədər içdən, içəridən, ürəkdən oxuyurdu ki, heyran olmaya bimirdik.

Görməsə də bir ağ gün, özü boyda nəğməydi Aygün. Mahnını təkcə oxumurdu, yaşayırdı Aygün. Nəğmənin içinə girib, bizə ürəkdən ötürürdü Aygün. Yaşadıqlarını bizə də yaşadırdı. Kepkasından tutmuş ən uzun barmağının ucuna qədər mahnı, musiqiydi Aygün.

...Cəmi 48 il yaşadı. 48 il bu gen dünyada nədir ki?! Bir göz qırpımı. Amma bu bir anı, göz qırpımını Aygün elə yaşadı, oxudu ki, sanki bir əsrə bərabər ömür sürdü.

Xəstələnsə də, ölümü ayaqüstə görsə də ruhdan düşmədi, səhnədən sürüşmədi. Getdi oxuya-oxuya, zümzüməsiylə. Adını yazdı yaddaşımıza unudulmaz səsiylə.

...Tut yemədi doyunca. Heç ömür də, həyat da yemədi doyunca. 48 il nədir ki! Ömrü xəlvətdə gördü Aygün. Eh, mənim balam kimə neyləmiş? Getdi, əbədiyyətə qovuşdu son sözünü deməmiş.

**...Qara günlər qoy Tanrının dərgahında səndən uzaq olsun. Məzarın nurla dolsun, Aygün bacım. Nəğmə tacım...**

**Adil Misirli**

# «Söz» jurnalının yeni sayı çapdan çıxıb

**Yazıçı-juralist Sevda Əlibəylinin baş redaktoru olduğu "Söz" ədəbi-publisistik jurnalın 2024-ci il üçün ilk sayı çapdan çıxıb. Nəfis tərtibatlı jurnal S.Əlibəylinin tanınmış kardiocərrah, tibb elmləri doktoru, Əməkdar həkim, millət vəkili Rəşad Mahmudovun 50 illik yubileyinə həsr olunmuş məqaləsi ilə başlanır.**

Sonrakı səhifələrdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Hacı Allahşükür Paşazadənin, dünya şöhrətli uroloq-alim, akademik, Əməkdar elm xadim Sudeyf İmamverdiyevin, Xalq yazıçısı Elmira Axundovanın, Milli Məclisin sədr müavini Fəzail İbrahimlinin, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun, Milli Məclisin üzvü, akademik Rafael Hüseynovun, siyasi elmlər doktoru, professor Hadi Rəcəblinin, SOCAR prezidentinin müşaviri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Xaliq Məmmədovun, hüquq elmləri doktoru, professor İbrahim Quliyevin, Buzovna məscidinin axundu Hacı Soltan Əlizadənin, inşaatçı-mühəndis Mehrab Dadaşovun Rəşad Mahmudova ünvanladğı təbrik yazıları, şairə Sakitə Ülvinin yubilyara həsr etdiyi "Ay Rəşad həkim" şeiri yer alıb.

Yazıçı-jurnalist Gülnar Əsədli isə R.Mahmudovun valideynlərinin sevgi dolu ömür yoluna güzgü tutub.

Jurnalın bu sayında polkovnik, şair-publisist Ramiz Duyğunun yaxın dostu, Türk




Ağsaqqalları Birliyinin sədri, akademik, Əməkdar elm xadimi Sudeyf İmamverdiyevin 85 illik yubileyinə həsr etdiyi "Ötən ömrün yanğısı" poeması dərc olunub. Nuranə Qubadova "Atam haqqında xatirələrim" yazısında atası, Lənkəranda ilk travmatologiya şöbəsinin yaradıcısı və müdiri olmuş tanınmış həkim, mərhum İlham Qubadovun 90 illiyi barədə söz açıb.

Əməkdar müəllim Füzuli Qasımovun jurnalda yer alan "Hər zaman sevimli tələbəm" adlı yazısı isə 50 ildən artıq pedaqoji cəbhədə çalışmış respublikanın Əməkdar müəllimi Mehriban Rəcəblinin 75 illik yubileyinə həsr olunub.

**Oxucular jurnalın səhifələrində həmçinin "Söz"ün 30 illik yubileyi münasibətilə keçirilən tədbirlər barədə yazılarla da tanış ola bilərlər.**

**Ağaddin BABAYEV**

# "Azərbaycanda güclü zəlzələ olacağı ilə bağlı açıqlamanın əsası yoxdur"

**"Dünən və bu gün müxtəlif saytlarda Azərbaycanda zəlzələ olacağına dair müxtəlif fikirlər səsləndirilməsindən sonra bizə vətəndaşlarımız tərəfindən çoxsaylı müraciətlər edilib. Məlumat üçün bildirmək istəyirəm ki, bu açıqlamaları verən və özlərini seysmoloq-ekspert kimi adlandıran şəxslər ölkədə kompleks geofiziki-seysmoloji tədqiqatlar aparan və yeganə təşkilat olan AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində çalışmırlar. Həmçinin onların zəlzələyə dair verdiyi açıqlamaların hansı tədqiqatlara söykəndiyi də bizə məlum deyil".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin mətbuat xidmətinin rəhbəri Vüsalə Rafiqqızı deyib. "RSXM tərəfindən respublika ərazisində fasiləsiz olaraq 24 saat "real vaxt rejimi"ində 84 seysmik



stansiyalar və 24 GPS stansiyaları vasitəsi ilə müşahidə aparılır. İl ərzində respublika ərazisində geofiziki poliqonlarda maqnometrik və qravimetrik tədqiqatlar aparılır. Saniyəbəsaniyə alınan məlumatlar mərkəzin müvafiq şöbələri tərəfindən emal olunur, təhlil edilir və yalnız bundan sonra biz alınmış nəticələrə dair açıqlamalar veririk. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan seysmik baxımdan aktiv bölgədə yerləşir.

Ərazimizdə hiss olunan və hiss olunmayan, yaxud zəif hiss olunan təkanlar olur və bu seysmik zonalar üçün xarakterik haldır. Dəfələrlə də qeyd etdiyimiz kimi zəlzələnin dəqiq proqnozu olmadığına görə, zəlzələ olacaq və olmayacaq kimi birmənalı fikir söyləmək də bu günkü günümüzdə tək bizim ölkəmizdə deyil, bütün dünyada mümkün deyil. Son vaxtlar başqa ölkələrdə baş verən zəlzələlərlə bağlı məlumatlarda da bu aydın göründü.

Bu mövzu ilə bağlı məlumat və ya proqram hazırlarkən məsələnin həssaslığını nəzərə almağınızı, ümumi fikirlərə deyil tədqiqatlara əsaslanan məlumatlar yaymağınızı xahiş edirəm. Zəlzələ ən qorxulu təbiət hadisəsi olduğuna görə həssas mövzudur və insanlarımıza bununla bağlı hər hansı məlumat verərkən hər birimizin diqqətli olmağımız vacibdir. Ayrıca, AMEA nəzdində RSXM olaraq media ilə yaxından əməkdaşlıq etdiyimiz üçün istənilən vaxt, istənilən suallarınızı bizə ünvanlaya və aparılmış tədqiqatların nəticəsi olaraq real vəziyyətə dair məlumat ala bilərsiniz", - deyə V.Rafiqqızı bildirib.



**ŞƏDDAT CƏFƏROV**
*İqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü Beynəlxalq Yazıçılar Birliyinin üzvü*

# QAFAR CƏFƏRLİNİN ÜÇ HEKAYƏSİ HAQQINDA

### *1.Xoşbəxtliyin sirri*

**XIX əsrin II yarısından sonra Mirzə İsmayıl Qasirin Lənkərana gəlişi ilə burada ədəbi mühit daha da canlanır. Söz-sənət xiridarları, xüsusilə şairlər Mirzə İsmayıl Qasirin ətrafında cəmlənir, yazdıqlarını bir-birinə oxuyur, ədəbi müzakirələr aparırdılar. Əlbəttə, Qarabağ, Şirvan, Naxçıvan əyalətlərində yaşayan söz-sənət adamları ilə də məktublaşmalar olurdu. Bu da istər-istəməz sənət xiridarlarını, sözə sevgisi olanları sözün sirlərini öyrənməyə sövq edirdi. Yeni-yeni istedadlar parlayır, Lənkəranda yaşayıb yaradan şairlərin şöhrəti kənarlara da çatırdı. Beləliklə, mərkəzi Lənkəran olmaqla cənub bölgəsində möhtəşəmliyi ilə çox uzaqlardan görünə bilən ədəbiyyat tonqalı yandırıldı. Sonralar ədəbi mühitin aparıcı simaları bu böyük ədəbiyyat ocağını sönməyə qoymadılar.**

Sovet dövründə də ədəbiyyatın istedadlı və zəhmətkeş simaları ədəbi qüvvələri bölgədə nəşr olunan mətbu orqanların ətrafında cəmləyə bildilər.

Nasir Məhəmmədhüseyn Əliyev, şair Şəkər Aslan, şair-tədqiqatçı Mirhaşım Talışlı, şair İltifat Saleh... və bu estafet davam etməkdədir. Bu gün cənub bölgəsində ədəbi karvanın, əgər belə demək mümkünsə, sarvanı Qafar Cəfərlidir.

Mən Qafar Cəfərlinin "Saatın 61-ci dəqiqəsi" hekayələr kitabı haqqında geniş və əhatəli yazmışam. Onun hekayələrinin əsas maraqlı məziyyətlərindən biri yığcamlıq, hadisənin əsas cizgilərini göstərə bilən dəqiqliyə riayət olunması ilə şərtlənir.

Q.Cəfərli realist yazıçı olaraq həyat həqiqətlərinə sadiqdir. Demək olar ki, heç bir uydurma, havadan, göydən gəlmə mövzudan yapışmır. Sanki gördüyü, şahidi olduğu hadisələri yazıya gətirməyə çalışır. Bu da ona imkan verir ki, dövrün, zamanın əsas problemlərini oxucuya başa düşəcəyi, qavrayacağı, qəbul edəcəyi səviyyədə çatdırsın. İnsafən Qafar Cəfərli son illərdə həyatının mənasını ədəbi mühitə xidmətdə görür. Bir-birinin arxasınca maraqlı hekayələrlə mətbuatda çıxış edir. "Ömür yolu" kimi dəyərli bir nəsr əsərini yazıb çap etdirir. Lənkəran ədəbi mühitinin qaynarlığını təmin etmək üçün maraqlı tədbirlər təşkil edir. Elə bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin yubileyinin AYB-nin Natəvan klubunda təntənəli şəkildə qeyd olunması da onun ədəbi və təşkilatçılıq işinin fəallıq göstəricilərindən sayılmalıdır.

Qeyd etdik ki, Q.Cəfərli hekayələri ilə daha çox populyardır. Lakonik, yığcam hekayələri oxumağa başlayan hər kəs mütləq hadisənin sonuna çatmağa çalışır. Və sanki yetdiyi sonluqla onun gözlərinin qarşısında çox maraqlı, düşündürücü, həyati bir mənzərə canlanır.

Qafar Cəfərlinin hələ nəşr olunmamış 3 hekayəsi əlimin altındadır. "Gülgəzi", "Tənha qadın", "Yaşamaq eşqi". Nə gizlədim? İşin-gücün ağır, çətin vaxtında hekayə oxumaq və bu barədə yazmaq o qədər də asan deyil. Birinci növbədə ona görə ki, oxumaq üçün vaxt lazımdır. Vaxt isə bizi hətta nəfəs çəkməyə belə demək olar ki, qoymur.

Hər cür vaxt qıtlığına baxmayaraq, "Gülgəzi" hekayəsini kağızlar arasından seçib götürdüm. Həcmcə o qədər də böyük deyil. Əvvəlcə sətirlərə göz gəzdirdim, səhifələrə diqqət elədim. Əsərin qəhrəmanının adı diqqətimi çəkdi: Məşəbilə.

Bilirəm ki, Q.Cəfərli hekayələrində dəqiq müşahidə etdiyi həyat epizodlarına əsaslanır. Elə hekayənin baş qəhrəmanının adı da onun maraqlı müşahidələri əsasında özünəməxsus bir kəşfidir. Hekayə bir toy mənzərəsi ilə başlanır:

"Müğənninin səsi Məşəbilənin canına yağ kimi yayılırdı:

***Bağa girdim üzümə,***
***tikan batdı dizimə.***
***Əyildim çıxarmağa,***
***yar sataşdı gözümə.***

Musiqinin ahənginə uyğun olsa da, Məşəbilənin yaşına uyuşmayan əl-qol hərəkətləri, çiyin oynatması, arada ayaqlarını çarpazlayıb sürətli dönüşü həmişə olduğu kimi yenə də məclis əhlinin gur alqışları ilə müşayiət olundu. Gülgəzin onun üzünə zillənib əynindəki uzunqol paltarın biləyinə kimi örtdüyü əllərini havada oynatması, gözlərini nazla süzüb, iliq bir təbəssümlə gülməsi, arada başından açılıb boynuna tərəf sürüşən örpəyini ani bir hərəkətlə alnına kimi dartması və yenidən əda ilə rəqsinə davam etməsi də həmının ürəyinə yatırdı. Bu zaman alqışların Məşəbiləyə və ya Gülgəzə aid olmasını ayırd etmək çətin idi".

Həqiqətən, bu dörd misradan ibarət bayatı toylarda çox oxunur. Özü də maraqlı məzmunu var. Sevgilisinin sorağı ilə aşiq olduğu qızın bağının ətrafında dolanan aşiq elə yar sorağı ilə bağa girir. Əlbəttə, gözləri dörd yanı gəzir. Elə beləcə də, üzüm dərmək istəyir. Amma bu zaman dizinə tikan batır. Aşağı əyilir ki, dizindən tikanı çıxartsın. Aşağı əyiləndə bağın başqa bir tərəfində, sıx yerində sevgi duyğuları ilə fikrə dalmış, bəlkə də elə onun özünü gözləyən sevgilisini görür. Bir sözlə, yarı gözünə sataşır. Bundan gerisi aydındır. Müğənninin oxuduğu bu nəğmə əsərin qəhrəmanının da ruhunu səfərbər edib. Məşəbilə adlı şəxs həmin musiqinin sədaları altında rəqs edir. Həmin məqamlarda o özünü dünyanın ən xoşbəxt insanı kimi bilir. Çünki dünyanın bütün dərdlərindən, ağrı-acılarından bu musiqi sədaları ilə qurtulan Məşəbilənin ruhunu oxşayacaq tərəf müqabil də oyuna çıxır. Bu da onun halal arvadıdır. Amma onun sevgi duyğuları hətta yaşının ağırlıq dərəcəsini keçmiş olsa belə, bütün ruhunu səfərbər edən həmin gözəlin adı elə Gülgəzdir.

Qafar Cəfərli özünəxas təsvirlə toyun mənzərəsini çox dəqiq cizgilərlə verir. Bununla sanki yaddaşımıza qaytarır ki, toy hay-küy yeri deyil. Toy insanların zövq almaq məkanıdır. Adamların ruhunun daha da saflaşması, sağlamlaşması yeridir. Mərəkənin ortasında Məşəbilə və arvadı Gülgəz rəqs hərəkətləri ilə sanki bir-birinin könlünü oxşayır. Varlıqlarına yayılan zövq duyğuları ilə elə bir-birinə öz hərəkətləri, rəqs ədaları ilə ən ülvi, ən isti duyğularını çatdırırlar.



Rəqs bitir. Oynayanlar öz yerlərinə çəkilirlər. Hətta bu zaman da Məşəbilə öz arvadına yüksək rəğbət və ehtiram hisslərini gizlətmir. Bu da ətrafdakılara xüsusi münasibət təlqin edir. Sanki Qafar Cəfərli bununla hər kəsə çatdırır ki, əgər siz ailədə ər-arvad olaraq doğmalığınızı səmimiyyətinizlə qoruya bilsəniz, onda xoşbəxtlik heç vaxt sizi tərk etməyəcək.

Onu da qeyd etmək lazımdır ki, Məşəbilənin həyatı hamar, rahat olmayıb. O bəlkə də, hamıdan çox əzab əziyyət yolu keçib. Məhz bu yolla irəliləyərək həyatının indiki mərhələsinə gəlib çatıb.

Məlum olur ki, Məşəbilənin əsl adı Qüdrətdir. "Bilə" adını ona hələ məktəbdə oxuyanda şagird dostları veriblər. Bu da hörmət, əzizləmə mənası daşıyır. Sonralar bir Məşhəd səfəri də olub. Beləliklə, Qüdrətin adı Məşəbilə olaraq tanınıb.

Qeyd etdik ki, Q.Cəfərli qəhrəmanının müsbət obrazını birdənbirə, havadan təqdim etmir. Onun hansı həyat acılarından keçdiyini də diqqətə çatdırır. Qüdrət, yəni Məşəbilə ixtisasca aqronomdur. Sovet hökümətinin dağılması ilə işsiz qalıb.

Ancaq o elə adam deyil ki, aciz olsun. Axır ki, "Jiquli"si ilə adamlara taksi xidməti göstərib. Bu yolla çörək pulu qazanmağa çalışıb. Amma bu işdə bəxti gətirməyib. Qəzaya düşüb və arvadı da bu qəzada həlak olub.

Məlumdur ki, belə qəzalarda humanizm göstərmək, günahkarı daha yüngül cəza ilə vəziyyətdən çıxarmaq olardı. Amma Məşəbilə 5 ili həbsxana divarları arasında keçirir. Axır ki, həyatının bir axara düşən vaxtı gəlir. Və bu zaman qonşu kənddən ərə getmək vaxtı keçmiş Gülgəzlə evlənməli olur. Hətta ondan bir oğul da dünyaya gəlir.

Neçə ildir Məşəbilə öz xoşbəxtliyini bütün varlığı ilə bağlı olduğu Gülgəzi ilə birgə toylarda hamıya göstərməkdən xüsusi məmnunluq duyur. Elə bil hamıya çatdırmaq istəyir ki, əgər xoşbəxt olmaq istəyirsinizsə, çox şeyə yox, öz ailə mühitinizdə istəklərinizlə səmimi olun. Zənnimcə, Q.Cəfərlinin bu hekayədə oxucuya çatdırmaq istədiyi ən üstün təlqin olunan fikirlərdən biri elə budur.

Məşəbilənin Gülgəzlə evlənməsi də özü bir halallığa xidmət edən əməldir. Əslində o Gülgəzlə tamah məqsədi ilə və ya ehtirasa xətir yox, bir insan ömrünü ləyaqətlə yaşamaq və digərinə yaşatmaq üçün evlənib.

Kənddə hər kəs yaxşı görür ki, onlar necə xoşbəxtdilər.

Amma həyat da öz sözünü deməkdə idi. Məşəbilənin çəkdiyi zillətlər, ağrı-acılar öz nəticəsini göstərməli idi. Və onu cismən əzmiş, demək olar ki, canında yaşayan xəstəlik öz işini görmüşdü.

Məşəbilənin ölüm mənzərəsini də Qafar Cəfərli xüsusi cizgilərlə verir. Ən başlıcası, Gülgəzin Məşəbiləyə olan xüsusi rəftarı elə onun xəstəlik çağında daha açıq görünür: "Məşəbilənin ilk həkim müayinəsinə getməsi, bir müddət xəstəxanada yatması, sonra öz xahişi ilə illərin xatirələrini özündə yaşadan doğma ocağına dönməsi və günlərin birində isə bir əli atasının adını yaşadan oğlu Məmmədin, o biri əli onu bütün varlığı ilə sevən, on dörd il onu öz "uşağı" kimi əzizləyən Gülgəzin əlində bu dünyaya əlvida deməsi heç bir ay çəkmədi". Burada işlədilən "uşağı" ifadəsi çox şeydən xəbər verir. Hətta bəlkə başqa bir yazıçı bunun mahiyyətini aydınlaşdırmaq üçün hekayəyə nə qədər epizodlar uydura bilərdi. Amma Qafar Cəfərli ifadəni o qədər dəqiq, sərrast və yerində işlədib ki, daha başqa təfərrüata ehtiyac qalmır.

Ümumiyyətlə, insanın insana sədaqəti, inamı əslində həyatın əsl mahiyyətidir. Dağılan ailələrin bir çox hallarda, xəyanətlə üzləşmələrin, qətllərin, tərəflərdən birinin digərinə zor etməsinin, ümumiyyətlə, həyatdan küsgünlüyün və hətta intiharların hamısının baş verməsində inamsızlığı, səmimiyyətin olmamasını əsas götürmək olar. Tərəflər ruh etibarı ilə bir-birinə doğma olmayanda nə desən baş verə bilər. Məşəbilə və Gülgəz həyatda heç bir artıq tamaha meyl göstərməyən adamlardır. Onlar öz həyatları ilə həmkəndlilərinə necə xoşbəxt olmağın yolunu göstərirlər və buna da heç bir kitab, dərs tələb olunmur.

Onların öz həyatları bəs edir ki, xoşbəxtlik axtaranlara görk kimi nümunə olsunlar.

İndi artıq Məşəbilə yoxdur. Gülgəz çox çətinliklə dünyaya gətirdiyi oğlu ilə baş-başa qalıb. Oğlunun doqquz yaşı var. Necə olacaq? Onlar Məşəbilədən qalmış xoşbəxtliyi davam etdirə biləcəklərmi? Əlbəttə, əgər Gülgəz mənəvi saflığını qoruyarsa, bu xoşbəxtliyi onun və oğlunun əlindən kimsə ala bilməz.

Yenə toydur. Məşəbilə il yarım bundan əvvəl dünyasını dəyişib. Amma həyat davam edir. İndi kimsənin cəsarəti çatmır ki, adamların "Gülgəzi" adlandırdıqları həmin havanı çaldırsın, kimsə qolunu qaldırıb bu havaya oynasın.

Doğrudur, yazıçı əlavə məlumat vermir, amma hiss olunur ki, Gülgəz sanki kənd əhlini intizardan qurtarmaq üçün və onlara xoşbəxt yaşamağın heç də uzaqda olmadığını göstərmək üçün musiqiçilərə həmin havanı çalmağı işarə edir: "...Bütün məclis həyacan içində idi. Uşaqlı-böyüklü hər kəs yerindən dikəlib musiqiçilərin oturduğu yuxarı başa boylanırdılar. "Gülgəzi" havası çalınırdı. Son il yarım ərzində kənd əhlinin eşitmədiyi bu hava hamını təsirləndirmişdi. Tədricən hamı ayağa qalxmağa başladı. Amma kimsə rəqs etməyə cürət etmirdi. Məşəbilənin yoxluğunu bilsələr də, sanki hər kəs möcüzə gözləyirdi. Gənc müğənninin səsi isə Şadlıq sarayını başına götürmüşdü:

***Bağa girdim üzümə,***
***tikan batdı dizimə.***
***Əyildim çıxarmağa,***
***yar sataşdı gözümə.***

Sonra baş verənləri məclis əhli heyrət içində izlədi".

Sanki həyat təzədən öz axarına qayıdır. İndi bundan sonra nə olacaq - hələ bunu kənd əhli bilmir. Amma Gülgəz işin içərisindədir. O, insanları heyrətdə qoymaz və sanki öz əməli ilə əri Məşəbilənin ruhuna insanların dilindən səslənəcək rəhmət nidalarına yol açmalı olacaq.

Doğrudur, il yarım elə də çox vaxt deyil. Və bu ötən vaxt hələ də Gülgəzin tam sağalmayan, qaysaq tutmayan yarasını unutdura bilməyib. Amma həyat sevgisi, oğluna nikbin, gələcəyə inam təlqin edən bir duyğu bəxş etməyi özünə borc bilən Gülgəz kimsənin təkidini gözləmədən ortaya çıxır.

Yazıçı bu mənzərəni çox təsirli, lirik bir ovqatla təqdim edir:

"Əri Məşəbilənin ölümündən keçən il yarım ərzində ilk dəfə baldızı nəvəsinin toyuna gələn Gülgəz arvad birdən irəli çıxdı, qol götürüb rəqs etməyə başladı. Elə gözəl rəqs etdi ki, hamı biixtiyar əl çalmağa, onu alqışlamağa məcbur oldu. Bir azdan məclis büsbütün alqışlara qərq oldu. Gülgəz əvvəlki tək ədalı baxışlarla biləyinə kimi örtülü əllərini xüsusi bir zəriflikə çiyinləri bərabərində oynadır, gözlərini qırpmadan qarşısındakı məchul nöqtəyə baxır, sanki qarşısındakı "Məşəbiləni" süzür, arada isə boynuna düşən örpəyi cəld hərəkətlə alnına kimi dartıb nazlana-nazlana dövrə vururdu. Əvvəlki vaxtlarda heç olmayan isə örpəyin tam örtə bilmədiyi ağ saçları və yanaqlarında şırım açan göz yaşları idi.

Məclis əhlinin yenidən və daha gur alqışları isə doqquz yaşlı Məmmədin eynən atası kimi oynamağına ünvanlanmışdı".

İndi hər şey aydın olur və demək, həyat davam edir. İnsanlara isə elə alqışlı nidalarla bu həyatı şən notlarla yaşamaq istəyi düşür.

**Q.Cəfərli həyat adamıdır. Həyatı sevdirmək üçün sözdən məharətlə istifadə edir.**

**(ardı olacaq)**

# YAĞIŞ YÜKLÜ BULUDUN MƏHƏBBƏT SERENADASI, YAXUD İLĞIMDAN QANADLANAN SEVGİ TƏRANƏLƏRİ - TƏHLİLÇİ SAÇMALARINDA

**Ali bir müəllimdir məhəbbət. Əhli kamal edər adiləri. Kamil fikir, kamil duyğu bəxş edər insanlara. Ali müəllimlikdən də ucada olan məhəbbət vardır. Buna deyirik Tanrı sevgisi. Orta əsrlər poeziyasında bu sevginin klassik nümunələri çoxdur. Müasir poeziyamızda bu cür şeirlərlə assosiasiyalanan nümunələrinin yaradılmasına cəhdlər edildiyini müşahidə etmişik. Onlar poetik siqlətinə, fikir daşıyıcılığına görə Tanrı sevgili şeirlərin kölgəsində görünməz mərtəbədədir. Bu, belə də olmalıdır, çünki indi islamiyyətə, Tanrıya inanclıqda süni effektlər açıqça göz qamaşdırır, amma bütün ruhumuzla duyğusallıqla görür və dərk edirik ki, bunlar riyakarlığa, təkəbbürə, haramlığa diz çökən, nəfsin köləsi olan, simasızlıq və mənəviyyatsızlıqdır.**

"Yağış yüklü bulud" şeirlər kitabının ("Səda" nəşriyyatı. 2019) müəllifi şair Adil Məmməd oxucularla bu ikinci görüşündə onlara məhəbbət dərsi keçmək, gözəllik və məhəbbətə Tanrı sevgisi kimi baxıb dərdləşmək niyyətindən uzaqdır. Əksinə o bu məhəbbəti yağış yüklü bulud məkanından yerə ələyir - təbiiliklə, səmimiliklə, estetik kateqoriya kimi səciyyələnə bilinən bir ülviyyətlə. Özü də canlı bir yaşantı kimi. Düşünürsən ki, şairin poetik "mən"i elə mənim öz duyğularımı dilə gətirib, yəni şeirin ruhu, koloriti, poetik nəfəsi fərdilik ətəyindən uzaqlaşaraq ictimai baxış sferasına köklənə bilib. Onun bu bədii "yalanı", bu səlahiyyəti təbii ki, əlahəzrətin - şair Ətraf Sərraf demiş "Tanrıdan aşağı, bizdən yuxarı" - sözün gücünə qazanıb; bizi canavar kimi uladan, ölüb-dirildən, "niqabi - qeybdən hərdən görünən", yerə çaxan, göyə ucaldan, baş kəsən, baş kəsdirən, ruhumuza sərkərdəlik edən SÖZün. İlk və önəmli olaraq deyə bilərik ki, Adil müəllim SÖZ-ə inam və iman gətirən şairlərdəndir. Çünki onun məhəbbət və gözəllik lirikası önündə baş əyiləsi zərif bir abidədir, onu gül yarpağı ilə belə çubuqlamaq olmaz. Müdrik başların səcdə etdiyi bu məkana kim qıya bilər; orijinal, özünəoxşar, özünü təsdiqə yolaçar şeiriyyət çəmənidir bu çeşmə.

Adillə onun şair "mən"i əkiz qardaşdır; söz üçün , məhəbbət, insanlıq üçün bir şamda alovlanırlar. Kitabda toplanmış şeirlərin çox böyük hissəsini məhəbbət motivli şeirlər təşkil edir. Digərləri isə Vətənə, torpağa, təbiətə bağlılığı ifadə edir.

Mən Adil Məmmədin poetik təsərrüfatını geniş şəkildə şərhə cəlb etmək, analitik təhlilini vermək istəmirəm. Şifahi söhbətlərimizdə, eləcə də "Ürək göylərə can atır" adlı ilk şeirlər kitabını incələyərkən bunu etmişəm. Digər tərəfdən kitaba ön söz yazan filologiya üzrə fəlsəfə doktoru Samirə Məmmədli bu təsərrüfatın ümumi cizqilərini çox orijinal bir bədii mükəmməlliklə hövsərləyib. Bu esse zərif hissiyatla, estetik gözəlliklə, bədii-fəlsəfi incəliklə işlənib. Esseyə verilən "Sözün yaddaş mürgüsü - metaforik sərhədlər, yaxud bir ana möhtac olan uzun ömür - şeirin ləpədöyəni" başlıq həm kitabın ümumi məzmun arealını, həm poetik çəkisini, həm də Adil Məmmədin poetik fərdiyyətini açıqlayır. Bu fərdin poetik gəzişmələrinə rəng verib rəng alan sözçü yeri gəldikcə özünün orijinal düşüncələrinə də essesində yer alıb. Essenin sonu Adil Məmmdəin şair obrazının koleydoskopik əksini təqdim edən fikirlə tamamlanır. Oxucular üçün də maraqlı görünəcəyini nəzərə alaraq həmin parçanı tam halda təqdim edirik.

"Sözlər bəzən dualara bənzər, dua mətnlərindən çıxıb gəlir, çünki şeir yazmaq an məsələsidir, zamanın, taleyin diktəsi deyil, bəlkə, itirdiyin, ömrünün içindən qeyb olan, elə buna görə də tutub yanında saxlamaq istədiyin anların sirrini çözmək cəhdidir, ancaq bilirsən ki, heç nə görülməyəcək, bu anları nə qədər "məharətlə" tutsan, bir o qədər də uduzmuş olarsan və bunu bütün varlığınla hiss edib uzaqlaşmaq istəsən, amma bu müstəvidə ən uzaq yer də sənin öz içindədir". Necə ki, Adil Məmmədin poetik "mən"i ilə fərdi dünyası bir çeşmədən aşıb daşan bulağa bənzəyir, esse müəllifinin də elmi təfəkkürü ilə bədii təfəkkürü bir bədəndə kök atmış əkiz bacı misalındadır. Şairin

*Qabıq verən ilan kimi*
*Dərdə sarılıb gedəcəm.*

*Kor olsa da iki gözüm,*
*Soraqlayar əlim səni.*

*Titrəyib əsən körpəyəm*
*Saçlarına bələ məni.*

*Mən sənsiz çoxdan ölmüşəm,*
*Gəl özün dəfn elə məni.*

*Günəşin qədrini bilməyən kəslər*
*Günəşin telindən qəlb asa bilməz.*

- və s. kimi deyimlərdəki poetik gəzişmələr anın hökmüylə yaransalar və onlardan uzaqlaşmaq cəhdlərinə rəvac versən belə o sənin özündür, öz içindəki yaşantılar, tumurcuqlayan duyğulardır. Bu tumurcuqlar poetik "mən"in qəddini dikəldir, sabahlara səsləyir və poetik təfəkkürün İlahi səsi son hökmünü belə açıqlayır:

***Bu bəşər səsi deyil!***
***Susun, Allah bəndələri,***
***Mənimlə Allah danışır.***

Tanrıyla danışan şair. Peyğəmbər Əlehüssəlam da şairlərə "Allahın yerdə açarı"-deyə dəyər vermişdi. Adil Məmməd məhəbbət motivli şeirlərində nə qədər yer şairi kimi görünürsə, bir o qədər də ictimai məzmunlu kədərə bükülmüş şeirlərində isə göylər şairi kimi özünü təqdim edə bilir, baxmayaraq ki, onun havalanmış bir sıra poetik düşüncələrini buludlardan yuxarıda görə bilirik.

O, "Yağış yüklü buludu gözünün qarası" biləndə də, "qarın ehtirassız bakirə dodaqlarından öpəndə" də, "ürəyinin dərdini kipriyindən asanda"da, özünün işıqlı və "kölgəli" tərəflərini "azad ruh, kölə bədəni" kimi dəyərləndirəndə də, hətta "Adilin yasından gələn bulud" kimi ötəndə də poetik təbi, nəfəsi təravətli, fikri, düşüncəni hərəkətə gətirən istedadlı bir şair kimi göz önündə canlanır. O, məhəbbət şeirlərində "Əllərini Kərəm əli bilib Əsli yaxasında qalan", sevdiyinin "bülbül tək qoxusuna gələn", "ovcunda çırpınan ürək gəzdirən", "sənsizlikdən göydən imdad diləyən", "nəğmə pıçıltılı külək" şair kimi təbiidir, səmimidir, etirafında təmizdir. Bu şair sevdiyinə "Ruhuma bir Vətən bilmişəm səni, sənin baharına uçub gəlmişəm" kimi ötəndə onu eyni zamanda "cənnət gülü" kimi bənzərsiz təriflərlə vəsf edir.

*Demirəm yaqutsan, demirəm zərsən,*
*Xəyal göylərində ruh tək əsərsən,*
*Antik bir heykələ yaman bənzərsən*
*Alnından, boynundan sinənə kimi.*

*Bu da bir qismətdir, bu da bir naxış,*
*Gördüm deməmişdir Nəsimi yanlış,*
*Allahın əliylə Allah yazılmış*
*Qaşından, burnundan çənənə kimi.*

Adil Məmməd o məhəbbət poeziyasını yaradanlardandır ki, onu poetik "mən"i kimi "Məcnunun biri də artdı dünyada", deyə "Qeysə göz aydınlığı" verir, bu Məcnun "məhəbbətin beçə balın dadır" və nakam Məcnundan fərqli olaraq, "dupduru, ətirli yağışa sevgi yağışı" adını verir, eşqi dəniz, ürəyi ada olan bu "Məcnun" ömür dostuna ül-



viyyətlə mayalanmış könül rübabını xüsusi bir gözəlliklə ünvanlayır:

*Bir gözəllik xumarında yatmısan,*
*Baxışımın tumarında yatmısan,*
*Bir sevincin qucağında batmısan*
*Gör ürəyim niyə gəlib fəryada.*

*Ömür sənin, məhəbbəti mənimdi,*
*Ayrılığın yanağında çənimdi,*
*Bu tufanlar eşq gəmimə qənimdi*
*Qoyma batsın sevgi adlı dəryada.*

Aydın görünür ki, düşüncələrim Adil müəllimin poetik tapıntıları üzərində qurulub.

Bu o deməkdir ki, biz onun poetik fikir axarlarına qoşulmuşuq, onun cazibə sahəsindən ayrıla bilməmişik. Bu, nədən xəbər verir? Təbii ki, onun poetik dünyasının axar-baxarlığından, tam müstəqim mənada metaforik təbiətinin dərinliyindən, xüsusilə də ahəngdarlığından; Ritm, ahəng, forma və məzmun kamilliyinin adilikdə qeyri adiliyindən, özünəməxsus bənzərsizliyindən. Biz yenə də onun təzə poetik eşidimlərindən uzaqlaşa bilmirik, bizi maqnit cazibəsindən qopmağa qoymur, hətta onun poetik "mən"inin təzadlar önündə sarsıntılara düşməsi də bizə öz yaşantımız kimi görünür, buradakı, hisslər, duyğular "gəncliyin arxasında itib qalmış duman-çən" kimi bizi qarsıyır, alova salır.

*Gözümdən gözümə bir alov düşdü,*
*Axdı damarımda, isitdi məni.*
*İstədim uşaq tək dəlilik edəm*
*Məni buxovladı saçımın dəni.*

*Alnımda illərin qırış naxışı,*
*Qəlbimdə çağlayan duyğular təzə.*
*Gözlərin de, məni hara aparır?*
*İlahi, gedirəm gedər-gəlməzə.*

Kitabın "Yaddaşıma ömürlük yazılan adlar və anlar" bölməsində toplanmış şeirlər, demək olar ki, fərdi ünvanlıdırlar; ömrün yaddaşına çökmüş insanlardır. O insanlar ki, onların əksəriyyəti Göyçayda böyük nüfuz və hörmət qazanmış, hətta adları region çəpərlərini aşaraq Şirvan elində belə rəğbətlə anılmaqdadır. Bu şeirlərin önəmli cəhətləri nədən ibarətdir? - sualına cavabımız belədir; fərdi münasibətlərin oyatdığı duyğusallıqlar, hərəki görünən memuar saçmalar, maraqlı poetik çətirlər altında belə işıqlı insanların öz fərdiliklərində ictimailəşə bilməsi həmin şeirlərin məzmun və bədii siqlətini çəkərli etmişdir. Bu şeirlərdə də şairanə təfəkkürün zərif, həssas qatlarından süzülüb gələn yeni poetik eşidimləri müşahidə edə bilərik, hətta təsirli yaşantılara düşməli oluruq. Tanınmış yazıçı Əli Səmədli ilə Adil müəllimin dostluğu bizə çoxdan məlum idi. Onun ölümündən iki ay ötməsinə baxmayaraq Adil müəllim özündən asılı olmayaraq oyaq xatirələrin təsiri altında Əli müəllimə zəng edir, səssə gəlmir və birdən sanki "yuxudan ayılırsan, qəlbin ahəngi dəyişməli" olur.

***Telefonu söndürdüm.***
***Ordan səsin ki, gəlməyəcəkdi,***
***Əziz dostum, qardaşım,***
***Əli müəllim,***
***Daha neynirdim***
***o zəngi!***

"Bir ulduz axdı" şeirini isə İsgəndər Coşquna həsr edib Adil müəllim. "Ömür piyaləsi əyilən", "su kimi doğulduğu torpağa səpilən" şairəməzara müraciət edən şair deyir:

***Bir salam büküb***
***Ovunmayan kədərimə,***
***Sənə əmanət verirəm.***

***İsgəndər Coşqun,***
***Çatdır onu Rəsul müəllimə,***
***Nigar xanıma,***
***Bir də Əli Kərimə.***

Bu baxımdan şairin xalq şairi Məmməd Araza, tanınmış istedadlı şair Ətraf Sərrafa, ustad tarzən Rövşən Zamanova həzr etdiyi şeirlər də təsirli olub, yadda qalandırlar. Sinəsində tarı alışan, barmaqları arasında simi yanan tarzənin çalğısı artıq Azərbaycana yayılmışdır. Rövşən müəllim Ramiz Quliyevin tələbəsi olmuş, Möhlət Müslümovla bir kursda təhsil almış, Alim Qasımovu müşayət etmişdir. Onun tarının sədaları altında hallanan, əriyib muğamata qarışan şair "Qəlbin köçüb barmağının ucuna..." şeirinin son akkordunu belə tamamlayır:

*Bu çalğını görsə Leyli atası,*
*Başı üstdə Allahını görərdi.*
*Sən getsəydin elçiliyə tar ilə*
*Tilsimlənib Leylini Qeysə verərdi.*

Bu deyim Adil Məmmədin şah söyləmidir. Elə buradaca bir diləyimi sözə çevirmək məqamıdır; hansı ki, bunu Ə.Sərrafın son kitabından danışarkən də bildirmişəm. Adil müəllim, sən təpədən-dırnağa poeziyasan, ədəbiyyat adamısan, kitabxanandakı kitablarının sayı bilinməzdir. Bunlara baxmayaraq, bundan sonra üç-beş elə poeziya nümunəsi yarat ki, ədəbi hadisəyə səbəb olsun, hər kəs onları oxuyanda öz heyrətini bir sözlə belə ifadə etsin - "Klassika!". Yaddaşlarda daimi yaşamağın açarı bundan ibarətdir. Poetik imkanların, düşüncənin metaforik mükəmməlliyi, ritm, ahəng yaratmağının gözəlliyi bu diləyimizin gerçəkləşməsinə zəmanət verə bilir. R.Rzanın "Soruş", Ə.Kərimin "Qaytar ana borcunu", S.Rüstəmin "Təbrizim", S.Vurğunun "Azərbaycan", M.Arazın "Qalx ayağa, Azərbaycan", R.Rövşənin "Qara çadralı qadın" və s. şeirlərə bərabər ədəbi nümunələr yaratmağın zamanı ötməkdədir. Şairin "İki yol ayrıcında", "Öldürdü", "Vətən, bağışla", "Ruhum axtarır səni", "Sənsizəm", "Bir cənnət gülüsən", Gülə-gülə", xüsusilə "İndi mən səninçün", "Ömrümün yaz fəsli bir gözəl gördüm", "Ulu Tanrım sən qüdrət ver", "Bir gün mən gələcəm sənin yuxuna" kimi şeirləri əsl poetik istedadın yaratdığı təsirli, yadda qalan nümunələridir. Eləcə də "Tənha qovaq", "Öldürdü",, "Güman var ki", "Həsrət", "Nağıl aləmindən qarşıma çıxan", "Bu əziz gün", "Bir alov düşdü", "İtki", "Tanrı payı" kimi şeirləri də sükutla qarşılamaq olmur.

Adil Məmmədin poeziyası əsas etibarilə şeirlərinin hər birində oxucuya təzə fikir söyləməsi etibarilə əlamətdardır. Təsadüfi olar ki, bəzi şeirləri məzmun və ritm çəkərliyi cəhətdən səciyyələnsin. Bu məzmun və ahəngi müəmmalarla, dolayısı yolla bəzəyəndə, təbii ki, daha təsirli aura yaradılmış olur. Fonetik səs uyarlığı, söz seçimi və düzümünün klassik ifadəsi, məzmun və ideya kamilliyi, beytlər, bəndlərarası sintaktik bağlılığın poetrikası - bunlar hər hansı bir mətndə ehtiraslı bir çağlayışla, həzin pıçıltıyla gerçəkləşəndə adamın içində heyrət duası baş qaldırır, dodağında xoş təbəssümlü "yaxşı deyib!" nidası səslənir.

**Adil Məmmədin poetik təsərrüfatı başlıca olaraq sevgi, vüsal, ayrılıq, həsrət, kədər, sevinc notlarıyla müşayət olunan məhəbbət lirikasından ibarətdir. Təsadüfi məqamlarda bu lirikanın ruhunda real həyatdan gəlmə ictimai-siyasi ştrixləri müşahidə etmək olar. Belə görünür ki, o özünü Nüsrət Kəsəmənli kimi məhəbbət şairi obrazında ədəbi ictimaiyyətə təqdim etmək istəyir. Onun "Ürək göylərə can atır" ilk kitabındakı şeirlər də məhəbbət ovqatlıdırlar. Təbii ki, şair "azadlığına" müdaxilə etmək onun mənəvi dünyasına qandal vurmaq kimi bir şeydir. Lakin nəzərdən qaçırmayanda ki, o, ədəbi mühitdə ələnən, yəni ədəbi hadisəyə, yaxşı mənada söz-söhbətə səbəb olacaq şeirini hələ yazmayıb, onda qoy öz təlaşını özü anlatsın. Biz işarə vurduq, onun 2-3 şeirini, dillər əzbərinə çevrilməsinə ilk sevinən onun elə dostları, ədəbiyyat adamları olacaq və nəticədə poeziyamız qazanacaq. Səndən hərəkət, qələmindən bərəkət, Allahdan mədəd. Gərəkdir ki, yağış yüklü bulud kimi yenidən dolasan, yükünü yağış kimi göylərdən yerə endirəsən. Və qeyd etdiyimiz o üç-beş şeiri elə yerə çatmamış göydəcə bağrımıza basaq, heyrətimizi evristik kəşf kimi bəyan edərək yaraq: "Əla, gözəl, klassika". Bunu səndən gözləməyə haqqımız, əsasımız var. Bu haqqın, əsasın adı Adil Məmməddir. Göyçayın "yeganeyi-dəhri" olan şair dostumuz - Adil Məmməd.**

**Əkbər ƏLİOĞLU**



Zakir Bayramlı,
Şair-publisist, AYB AJB-nin üzvü

# Zərərli vədişlərin sağlamlığa mənfi təsiri

Sağlamlıq dedikdə insanın fiziki və mənəvi keyfiyyətlərinin vəhdəti başa düşülür. O bəşər övladının mənəvi sərvəti hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə sağlamlığı belə dəyərləndirib: "Sağlamlıq fiziki, əqli və sosial rifahın bütöv bir şəkildə mövcud olması, xəstəliklərin və bəlanın insan bədənindən uzaq olmasıdır". Yaşayış şəraitindən, maddi təminatdan asılı olaraq insanın sağlamlıq vəziyyətində müəyyən dəyişikliyin baş verməsi labüddür. Sağlamlığa təsir edən amillərə yaşayış yerinin coğrafi mövqeyini, təbii-iqlim şəraitini, geniş və rahat mənzil təminatını , təhsili, yaxşı maaşlı iş yerini, ailənin büdcəsinə daxil olan pensiya və digər gəlirləri, ailədə yaşamaq üçün əlverişli mühit: sakitliyi, mehribançılığı, hörməti, sevgini, əmin-amanlığı, hüquq bərabərliyini, haqq-ədaləti, bir-birinin şəxsiyyətinə hörməti, birgəyaşayış yerində daimi ünsiyyət mədəniyyətinin olmasını və s. aid etmək olar.

İnsanın sağlamlığı təkcə onun özündən asılı deyil. Sağlamlığa tam nail olmaq üçün insan daxili aləmi ilə yanaşı, həm də xarici aləmlə, yəni ətraf mühitlə də normal qarşılıqlı əlaqədə olmalıdır.Xarici amillərin təsiri nə qədər ciddi və güclü olursa-olsun sağlamlığa vurulan hər hansı ziyan və ya zərbə insanı şəxsi məsuliyyətdən azad etmir. Ona görə də şəxsi sağlamlığın göz-bəbək kimi qorunması , ona hər cür qayğı göstərilməsi hər bir insanın, o cümlədən gənclərin öz üzərinə düşür. Bu məqalədə zərərli vərdişlərin insan sağlamlığına, xüsusilə gənclərin səhhətinə vurduğu mənfi təsirlər barədə söhbət açacağıq.

Yer üzünün əşrəfi sayılan, şüurlu, yeganə dərketmə qabiliyyəti olan canlı varlıq- insanın sağlam və xoşbəxt yaşamağa tam haqqı vardır. Allah ona görə insanı, fərdlər arasında heç bir fərq qoymadan yalnız bu məqsəd üçün yaradıb. Və yaşamaq-yararmaq, gen-bolluq içində dünya nemətlərini israf etməmək şərtilə Allah ömür sürmək üçün bütün dünyanı yeraltı və yerüstü sərvətləri ilə birlikdə insana hədiyyə edib. Lakin nədənsə dünyaya gələn insanların hamısı müxtəlif səbəbdən sağlamlıq adlanan imkandan yetərincə istifadə edə bilmir. Sağlamlıq və xoşbəxtlik onlar üçün əlçatmaz bir xəyala çevirilir. Ona görə ki, həmin insanlar şəxsi sağlamlığın qorunması məsələsi ilə hər gün məşğul olmurlar. Lakin iqtisadi cəhətdən zəngin və ya kasıb olmasından asılı olmayaraq hər kəs müntəzəm olaraq öz sağlamlıqlarının qayğısına özü qalmalıdır. Çünki özünədərk və özünəinam kimi fərdi keyfiyyətlərə malik olan insanda özünəhörmət, özünətəsir, özünüaparma, özünüqoruma, özünəhakim, özünüidarə, özünəqiymət, özünənəzarət, özünüqiymətləndirmə, özünümüdafiə və s. kimi yüksək iradi keyfiyyətlər də tam formalaşmalıdır.

Dünyada qlobal istiləşmə, ölkələrdəki nəhəng kimya, metallurgiya, maşınqayırma və digər zavodların, həmçinin böyük şəhərlərdə milyonlarla avtomobilin havaya buraxdığı tüstü və zəhərli qazlar ekoloji tarazlığa mənfi təsir göstərir. Atom elekrtik stansiyalarının nüvə tulantıları, istehsal müəssisələrinin çirkab suları və s. okeanlara, dənizlərə və b. axıdılır. Nəticədə ətraf mühüt , xüsusilə hava, su və torpaq çirklənərək yararsız hala düşür. Dünyanın bir tərəfində isti və quraqlıq hökm sürdüyü halda, digər tərəfində qasırğa, ternado,dolu, yağışlar, daşqınlar, sinamilər iflic vəziyyəti yaradıb. Bu kimi səbəblərdən də böyük təbiətə, xüsusilə, meşələrə, yerin bitki və heyvanat aləminə və b. böyük ziyan dəyməsi ilə ciddi iqlim dəyişməsi baş verir.

Təbiət hadisələri ilə yanaşı insanların, xüsusən gənclərin sağlamlığına ciddi ziyan vuran amillərdən biri də onların zərərli vərdişlərə qoşulmasıdır.

İnsanın özünəməsuliyyət hissi olmadan onun həyatda sağlam yaşaması qeyri-mümkündür. Ona görə də sağlamlıq adlı neməti qazanmaq və onu möhkəm qoruyub saxlamaq hər kəsin öz əlindədir. Hər bir insan,xüsusən gənclər öz şəxsi sağlamlığını qorumalı, ona vaxtlı-vaxtında diqqət və qayğı göstərməli, can sağlığının insan həyatındakı mühüm rolunu yüksək qiymətləndirməlidir.

Siqaretə , spirtli içkilərə aludəçilik və onların müntəzəm olaraq qəbul edilməsi, narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə etmək nəticəsində güclü asılılıq yaranır. Nəticədə insan zərərli vərdişlərin qurbanına çevirilir. Psixoloqlar qeyd edirlər ki, zərərli vərdişlər ilk anlarda əvvəlcə beyinə yalnış həzz siqnalları ötürür. Bir müddətdən sonra isə qazanılan vərdiş bədəni incitməyə və ağrı verməyə başlayır. Beləliklə həmin vərdiş tədricən asılılıq yaradır.Tamah və təcrübəsizlik üzündən o vərdişləri həmin insanlar ömürlük olaraq polad zəncirlərlə öz yaxalarına bağlayırlar.

Görəsən zərərli vərdişlərin caynağından qurtarmaq mümkündürmü? Psixoloqlar deyirlər ki, bəli qurtuluş yolu var. Bu şərtlə ki, hər bir aludəçi yiyələndiyi zərərli vərdişi tanısın. Onu pis hal kimi qəbul etsin. Günahlarını tam boyununa alsın.Və vərdişlə necə mübarizə aparmaq yolunu özü seçsin. Türk psixoloqu Sərhad Yabançının isə məsələ barədə fikiri belədir: " Çox vaxt hansısa vərdişə meyilli olan insanlar onu problem kimi qəbul etmir və inkar edirlər". Ortada inkar etmək sözü varsa belə halda zərərli vərdişi heç uzunmüddətli müalicə yolu ilə də aludəçidən kənar etmək mümkün deyil. Gənclərin içindəki qaynayan enerjini müsbət istiqamətə yönəltməsi daha faydalı və təhlükəsiz olardı. Çünki tükənmək bilməyən həmin enerjinin səhvən başqa-başqa məcraya yönəldilməsi gəncləri düz yoldan azdıra bilər. Bu məqamda hər bir gəncə düzgün istiqamət vermək, onların coşubdaşan tükənməz enerji çeşməsinin gözünü dünyaya açmaq hamımızın borcudur.

Mən həyat təcrübəmdə gördüyüm zərərli vərdişbarədə bir nümunə göstərəcəyəm. Pis vərdişli belə insanlardan biri ilə vaxtıkən mən sanatoriyşqa rəng yox idi. Onun düşüncəsi ilə yer üzündə yaxşı insan olmayıb və bundan sonra da olmayascaq. Yaxşı sözünü dilinə gətirməyə, kimisə tərifləməyə heç vaxt dili gəlmirdi. Sonralar eşitdim ki, bəd və mənfi xasiyyət, neqativ düşüncələr, qara fikirlər onu normal ömür sürməyə qoymayıb. Pis xasiyyət, narazı -neqativ düşüncə , irəlini, təbiətin, cəmiyyətin və insanların gözəlliyini, yaxşı cəhətlərini görməmək, bir sözlə paxıllıq hissləri onu həyatla vaxtsız vidalaşmağa məcbur edib. Yəni, nümunədə qeyd etdiyim kimi psixoloji durumun normal qaydada olmaması da sağlamlığa mənfi təsir edən ən başlıca faktordur.

Gəlin, bütün dünyamızı, ailələrimizi və gələcəyimiz olan gənclərimizin sağlalığını qoruyaq! Oların zərərli vərdişlərdən uzaq olmasına çalışaq.



# Ehtiram İLHAM -55

## AVTOPORTRET

Bu adam sevmədi özünü,
Özgələrini sevdi amma...
Ömründə bir xoş gün görmədi,
Əzablı günlər gördü amma.

Başına uçuldu tikdiyi,
Fil çəkənməyəndi çəkdiyi.
Tumurcuqlamadı əkdiyi,
Gül-çiçək açdı dərdi, amma...

Qaçmasa da bir yol sözündən,
Qaçdılar hər yerdə özündən...
Qarışqa idi öz gözündə,
Başqaları bir devdi amma.

Dözüb də hamının nazına,
"Hə" dedi hər şeyin azına.
"Can" deyib oğluna, qızına,
Çörək yox, ürək verdi amma.

Bəlkə də heç baxtlıq deyilmiş,
Bugünlük, sabahlıq deyilmiş.
Ölüb yaşamaqlıq deyilmiş,
Bəlkə yaşayıb öldü amma.

## GEDİM, BU ŞƏHƏRDƏN GEDİM

Düşüb həyatın dibinə,
Uyub da vaxtın dəbinə,
Başımı salıb aşağı,
Əlimi soxub cibimə,
Gedim, bu şəhərdən gedim.

Bu təmiz ürək üçünmü,
O şirin dilək üçünmü,
Baş götürüb hamı qaçır
Bir tikə çörək üçünmü?
Gedim, bu şəhərdən gedim.

Ah... bu torpaq, bu məmləkət,
Bu nə tale, bu nə qismət.
Şeytana iman gətirib,
Öz cəzasın çəkir millət,
Gedim, bu şəhərdən gedim.

Girim yerə, çıxım göyə,
Salım səsə, basım küyə.
Mən kimə gərəyəm burda?
Gərək tüpürüb hər şeyə,
Gedim, bu şəhərdən gedim.

Subay öldü ömrün yazı,
Baxdım tamarzı-tamarzı.
Yüz qızına vurulsam da,
Sevmədi məni bir qızı,
Gedim, bu şəhərdən gedim.

Sayılsın günah, sonrası,
Pis olsun sabah sonrası.
Mən Allah deyib gedirəm,
Allaha pənah sonrası -
Gedim, bu şəhərdən gedim.

## ADAM

Səni elə istəyirəm,
Elə istəyirəm, Adam.
Bu qış günü bir sərçəyə,
Gülə istəyirəm, Adam!

Gəl ha, içimi də yar, bax,
Heç nə səndən deyil uzaq.
Saçımda ağarır daraq,
Telə istəyirəm, Adam.

Nə bu eldən doyan olduq,
Nə kimsəyə əyan olduq.
Yaxşı olduq, yaman olduq -
Dilə, istəyirəm Adam.

Ömür buydusa, qoy keçsin,
Seçirsə, bircə Haqq seçsin.
Adım ürəyinə köçsün -
Belə istəyirəm, Adam.

## BİR AZCA

Mən adam acıyam, dostum,
Gəl, səndən dadım bir azca.
Bir azca savab eləyib,
Günaha batım bir azca.

Nə mübarək camalın var,
Al məni, dünyamdan qopar.
Haman dərdlərimi qaytar,
Qurusun matım bir azca.

Gəm, yenə düşüm azara,
Mən azarlı üzüqara.
... Başımı qoşum başlara,
Başımı qatım bir azca.

Hər saz xalında, gülündə,
Hər kəs yurdunda, elində.
Bir halal adam dilində
Çəkilsin adım bir azca.

## ANAMA YAZDIQLARIM

1

Məni ən çox istəyənim,
Ən çox istədiyim adam.
Gözümü açıb dünyada,
Ən öncə gördüyüm adam.

Evim, qalam, bürcüm, dağım,
Arxam, önüm, solum, sağım,
Mənim ən çox yaşatdığım -
Ən çox öldürdüyüm adam.

Qanadın üstümə sərib,
Nəyi varsa, mənə verib.
Dərgahına səcdə edib -
Allahım dediyim adam.

2

Məni ovudarmı xatirələrin -
Səni xəyallarda anıram indi.
Nəfəsin qoymazdı dərd mənə bata -
Dərdimnən canımı yenirəm indi.

Sən vardın, dünyada hər şeyim vardı,
Ömrüm də, günüm də nə bəxtiyardı.
İndi haman dünya ruhuma dardı,
Özümü kimsəsiz sanıram indi.

Sənsiz nə ünvanım, sənsiz nə adım...
Halıma acıyır uzağım, yadım.
Vaxtında başına dolanammadım -
Qəbrinin başına dönürəm indi.

3

Bir ana yaşardı, bir vaxt sən adda...
Nisgilin qaldımı görən, həyatda.
Sızladı, göynədi qohum da, yad da,
Fəryad qopardılar ölümünə də.

Qapından girmədi nə haram, nə şər,
Nə küsüb incidi səndən bir bəşər.
Sağ ikən özünə həsrət çəkdilər -
Həsəd apardılar ölümünə də.

Nə qəfil yetişdi axır güzarın,
Son anda yenmədi yenə vüqarın.
Quş tək uçmasaydın, - gül balaların,
Əlac tapardılar ölümünə də.

4

Üzümdə su yoxmuş, içimdə qəhər,
Qalmadı canımda nə güc, nə təpər.
Bu qansız dünyayla qaldım bərabər, -
Yaşadım, ay Ana, səndən sonra da...

Yapışıb qolboyun dərdnən-amannan,
Qurtardım biryolluq dinnən, imannan.
Ağrıyan ürəknən, titrəyən cannan,
Yaşadım, ay Ana, səndən sonra da...

Elə dünənəcən Sən də vardınmı?
Oğlunla, qızınla bəxtiyardınmı?
Sən mənsiz bircə an yaşayardınmı, -
Yaşadım, ay Ana, səndən sonra da...

Sənsiz bu gündümü, bu həyatdımı?
Dözüb dayanıram, zarafatdımı?
Xəbərin oldumu, Ruhun şaddımı? -
Yaşadım, ay Ana, səndən sonra da...

# CAN SAĞLIĞININ SORAĞINDA



*Yusif Həsənbəy*
*Əməkdar İncəsənət xadimi*

**(HEKAYƏ)**

Unutmaq mümkün deyil. Yanqısı qora bişirən yox, daş qaynadan o istilərin göynərtisi yadıma düşəndə başımdan tüstü çıxır. Planetin hər yerində, o cümlədən Bakıda da cövlan edən istiləşmələr get-gedə qızışırdı. Hərarət gecələr də səngimirdi. Havanın quruluğu tənginəfəslik və boğulmalarla müşayət olunurdu. Arktikada neçə milyard il bundan əvvəl özünü tutan buz dağlarının zirvələri əriməyə başladı. İsti sellər qocaman buzların özüllərini laxladır, binə-bəndlərini sökürdü. Buz qayaları aysberqlərin belinə böyrü üstə çırpılır, gurultuya üfüqlər titrəyir, ağ ayıların qulaqlarından qan açılırdı. Amma insanlar guya bu iqlim dəyişməsini görmür, gurultuları eşitməməzliyə vururdular. Okeanlarda qasırğalar gəmiləri batırır, sellər, qabarmalar sahil şəhərlərini altına alırdı. Təbiətin belə acışmasına səbəb nəydi? Günəşi yaradan, o günəşin tacından qopub ətrafa səpələnən kösov parçalarının, alov dilimlərinin qarşısında müdafiəçi - qalxan rolunu oynayan bir "Ozon qatı"nı da yaratmışdı. Min dəfə əhsən! Ustadına min bir bərəkallah! O, son dərəcə qızmar kütlə "Ozon qatı"nın filterindən keçərkən bir növ yuyulur, təmizlənir, mülayimləşir, həyat üçün yararlı hala salınır. Yer üzündə canlıların və təbiət qüvvələrinin həmahəng, barışıq şəraitində yaşamasına zəmin yaranır. Durna gözü suyunu içib, kristal havasını udub, meyvələriylə qidalanıb xoşbəxt günlərimizi yaşayarkən, çox təəssüf ki, ətraf mühitdən muğayat olmağı unutduq. Dahi Ələkbər Sabir demişkən, "öz qövmümüzün başına əngəl-kələf olduq". Nəticədə "Ozon qatı"nın səthi yerdən üzü yuxarı şığıyan qaz, tüstü süngüləriylə deşim-deşim oldu, süzəyə döndü. Kimyəvi tullantılarla parçalandı, dağıntılara məruz qaldı səmamız. İstiləşmələr gücləndi. Nəfsi, tamahı quduzlaşan bəzi güclülər, daha çox torpaq zəbt etmək, seçilmək, zənginləşmək yoluyla dünyaya hakim olmağa can atırdılar. Silah-sursat zavodlarının bacalarından qalxan kimyəvi tullantılar, raket başlıqlarından, bomba və qumbara partlayışlarından atmosferə atılan qurğuşun, benzol, kükürd qazları, vulkan püskürmələrindən yaranan hidrogen, xlor birləşmələri də "Ozon qatı"nın qatlarını sökür, şüaların sərbəst axını yergöyü yandırmaqda davam edirdi.

Lakin bəşəri faciədən xəbərsiz dünya eyş-işrətdədir. Toy-toya qarışır, məhsul bayramları el şənliklərinə çevrilirdi. Arabir televiziya kanallarında görünən alimlər bu hadisəni təbiətin "şıltaqlığı" kimi qələmə verirdilər. Çox nüfuzlu din və məscid alimləri bu vəziyyətin Allah tərəfindən tezliklə nizamlanacağını söyləyir, xalqa təsəlli verirdilər. Amma bəzi başbilənlərdən və ziyalılardan fərqli olaraq uzaqgörən şair Səməd Vurğun cəmi insanlığa qənim kəsilən istiləşmələrə qarşı barışmaz mövqe nümayiş etdirdi.

Xalq şairi Səməd Vurğun ceyrana, quşa nə qədər güllə atsa da, patrondaşı daim dolu ovçu, ovçu Səməd Vurğun qələmi əsərdən-əsərə püxtələşən, ilham çeşməsi boşaldıqca dolan şair idi. Onun İkinci Dünya Müharibəsi ərəfəsində yazdığı "Vaqif" pyesi uşaqlı-böyüklü xalqın tamaşasıydı. Hitler faşizmi ilə ölkəmiz arasında gedən müharibənin ağrı-acılarından yaxa qurtarmaq istəyən, teatrlara da gedirdilər. Sifətində barmaq qalınlığında qırışları titrəyən, başındakı şah-tacında rəngbərəng daş-qaşları bərq vuran Şah Qacar vəhşi görkəmiylə vahimə doğururdu. Oğlundan qara kağız alan analar, nişanlısından nigaran gəlinlər, Qacarın timsalında Hitleri görür, nahaq qanlar axıdan o faşistə lənətlər yağdırırdılar. Onun ataşfəşanlıqla parlayan "Zəncinin arzuları" əsəri qara dərililərin azadlıq yollarında mayaka çevrildi.

Şairin 1956-cı ilin baharında Opera və Balet teatrında keçirilən 50 illik yubileyinə ədəbi aləmdə yaxşı tanınan qələm dostları da gəlmişdilər.

Tədbir ərəfəsində şairin səhhətində problemlər üzə çıxmış, "dağıntılar" yaranmışdı. O, tədbir iştirakçıları yubiliyarı öz yanlarında görmək istədiklərini bildirdilər. Bu istək baş tutmayanda "heç olmasa səsini eşidək" dedilər. Mərəz şairin boğazını tutmuşdu. Xırıltılı səs eşidənləri şoka salar, sarsıda bilərdi. Yubiley komissiyasının sədri Rəsul Rza əlindəki zərfi hamıya göstərərək - Səməd Vurğun məktub göndərib -dedi. -Şair ən çətin anlarda da həssaslığından, insanpərvərliyindən qalmır. Qulaq asın, görün bizə necə can yandırır Səməd. Qurbağa gölünə daş atdılar sanki, Rəsul müəllim, böyük şairin siqləti çoxsaylı cildlərə sığmayan iki cümləlik məktubunu oxudu. - "Axır vaxtlar havalar çox istiləşib! Sizə can sağlığı arzulayıram".

Səməd Vurğun əsər müzakirələrində və rəsmi çıxışlarında da sözaltı sözlərə, ideomatik ifadələrə daha çox yer verirdi. Yüz ölçüb, bir biçən şairin bişirilməmiş bir söz çıxmazdı ağzından. İstiləşmələrdən gələn narahatçılığını siqləti qalın tomlara sığmayan, iki sadə cümləylə "qızım, sənə deyirəm, gəlnim sən eşit" zərb -məsəlinə rəğmən yubiley iştirakçılarına deyib, dünyanın qulağına çatdırdı.

Qonaqlar təəccüblə bir-birlərinə baxdılar. -Hava istiləşməsinin can sağlığına aidiyyatı varmı?-soruşdular bir-birindən. - Var! Özü də əsaslı dəxli var -dedi -titrəyən çənəsini əliylə qamarlayan qoca. -Səməd Vurğun "havalar istiləşir" deyəndə ona işarə vurur ki, yerdən göyə qalxan tüstülər, kimyəvi tullantılar, zəhərli qazlar otmosferin "Ozon qatın"ı söküb-dağıdır! İstiləşmələr gücləndikcə xəstəlik daşıyan bakteriyaların doğulub törəməsinə münbit şərait yaranır. "Donuz qripinin" qılçasını qırdıq, "Quş qripi" süngüsünü dirədi boğazımıza. İndi də "Koronovirusun" əlində aciz qalmışıq. Ustad bizi, dünyamızdan muğayat olmağa çağırır -deyə havanı yumruqlayan qoca, birdən fağırlaşdı, doluxsundu: -Ay pir olmuş, Səməd qağa! Can sağlığı arzulayırsan, çox yaxşı! Ancaq onu necə əldə eləyək? Bilirsənsə yerini göstər. Dükanda, bazarda satılırsa, biz də alaq, tökək uşaqların qabağına. Bir-ikisini də ataq ağzımıza. Yoxdu belə bir həb! Amma faciədən qurtulmaq yolu var. Biologiya elmləri doktoru Mirəli deyərlər mənə. Qlobal istiləşmə və parazitlərin artması barədə yüzlərlə məqalə çap etdirmişəm. Qoca üzü şirə dərisi kimi qırışan portfelini ağzı aşağı çevirdi. Masanın üstündə əl boyda blaknotlar, cildli kitablar, rəngi solmuş qəzet və jurnal nüsxələri üst-üstə qalaqlandı. -Bu necə işdi, ay balam? Aidiyyatlı şəxslər susurlar. Ancaq Allah sənin canına dəyməsin, ay Səməd qağa. "Nə? Nə? Xəstə hüceyrələr?" Lov xəbər. Xəstə hüceyrələrlə yüklənmiş səma qalın bir yorğan kimi çəkilib üstümüzə. İldırım kimi çaxdı başımda! Canıma qorxu düşdü. "Vaxsey! İşimiz bitdi! Evimiz yıxıldı ki! O yorğanın altından salamat çıxa biləcəyikmi biz? Düşünür, üzülürdüm. "Mərifətli danış! Ağzını yuyucular yusun. Bizi diri-diri torpağa basdırma". Öz aləmində hədələyirdi qocanı. Hay -küy salıb baykot eləmək istədim". Amma, deyəsən, həqiqət vardı sözündə. Əlbətdə, o bakteriyaların bir neçəsi keçib qanıma. Bel tirimi, yançaq sümüklərimi, oynaqlarımı gəmirən də elə o bakteriyalardı. Məktubun məzmunundan vəcdə gələrək "Yaşamaq gözəl şeydir, qardaşam", -dedi, dünya poeziya artirelyasının uzaq vuran topçusu- şair Nazim Hikmət. Amma o, "gözəl yaşamaq, firavan, geninə-boluna təminatla, şessotka maşınlarla, bağ evləriylə yaşamaq, vəzifə pillələrini qalxa-qalxa yaşamaq gözəl şeydi" demədi. Çox sadə və adi yaşamağa üstünlük verdi Nazim əfəndi.

Səhər tez oyanasan. Aynəbəndin pəncərələrini həyətə tərəf itələyib açasan. Yarpaqların üstündən sürüşən şeh damcıları əllərini sanca. Bu gicitkan iynələri kirpiklərinin ucunda olan -qalan yuxunu qaçıra. Qollarını velosiped təkərləri kimi fırladıb, xırman vəli kürəklərinin sığnağında büzüşən damarlarını cana gətirsin! Cuşa gələn qanın bədəninin bütün nahiyələrinə fəvvarələrlə atılsın! Sinə dolusu nəfəs alasan, udduğun kövrək hava keçən axşam içdiyin rakiyının çöküntülərini yuyub, nəfəs yollarını təmizləyə. O hava-məlhəm hisi-pası üzə çıxan içərilərini yaxşı-yaxşı qalaylaya! Başını krantını alnına tutasan, şaqqa-şaqla axan sular kürəklərindən qayış yerlərinə süzülə, biləsən ki, yaşayırsan!

Nazim Hikmət ustad saydığı Səməd Vurğunun iki cümləlik məktubunu Qlobal istiləşməyə qarşı mübarizə proqramı kimi qəbul etdi. "Mən", "Sən", "Biz" deyərkən kürreyi-ərzi bu mübarizədə əlbir olmağa çağırırdı.

"Mən yanmasam, sən yanmasan,
biz yanmasaq, -
Necə çıxar qaranlıqlar aydınlığa?

Yaşa dolduqca həyatın ətəyindən bərk-bərk yapışırıq. Di gəl ki, əlimizdə saxlaya bilmirik. Mənim davam- divanım da kəskin ağrılar- sancılarla əsayişimi pozan, hələ həkimlərin də dəqiq baş tapmadığı xəstəlikdir. Neçə vaxtdı ki, Təcili yardım, Hospital, Poliknika yollarında həlak - yorğunam. Həblər atmışam, iynələr vurdurmuşam, heç tükü də tərpənməyib xəstəliyimin. Yüz faiz əminəm ki, anamı ağladan da o Mirəli kişinin dediyi bakteriyalardı ki, bir neçəsi boynuma, əlimə daraşıb, qanıma keçib. "Yüz imama yalvarınca, bir Allaha yalvar" deyiblər. İmkanlarımı götür-qoydan sonra mənə tanış hospitala gəldim. Dərdimi-şikayətimi soruşmadılar. Qoluma girib qan vermə kabinetinə gətirdilər. Dedim axı, keçən həftə elə bu kabinetdə olmuşam. Qan da alıblar, "UZİ" dən də keçmişəm. Analizlərin cavabı cibimdədi. Gəldim ki, bu dəfə əlli min rubla institutu qurtaran yox, bəlkə savadlı bir həkim o analizlərə baxsın, sağaltsın məni.

-Xeyr- dedi üzümə irişən, həvədiş həkim- O analizlər köhnəlib. Bu dəfə qanınızı üç aspektdə yoxlayarıq. Diabetə, yəni şəkərə görə, mədəaltı vəzində prostata görə, bir də qara ciyərin sirrozuna görə. Düzdü, bir az qiymət artacaq! No, zato can sağlığı hər şeydən qiymətlidi.

-Ay doktor, deyirlər axı, xəstə viruslarla dolu səma, yorğan kimi çəkilib üstümüzə. Bəlkə o bakteriyalardan bir neçəsi keçib qanıma?

-Ola bilər! No, zato, uzun müddət İranın Kosmos Agentliyində həkim işləmiş kolleqam Ağayi Firdovsi loğman bir-iki seansa sizi sağaldar. Ağzımı doldurmuşdum "Yalan deyənin atasına lənət! İranda hələ Kosmos Agentliyi yoxdu. Orda belə qurum ancaq 2004-cü ildə təsis olunacaqdır -deyib həvədişə bir turşulu aş yedirmək istədim. "Ancaq göyərçinin canı bardağdadı, bardaq da Devin əlində. Meşədən çıxana kimi ayıya dayı deməliyəm". "İranlı "Kosmos həkiminin dərman nüsxəsində heç bir dənə də təzə dərman görmədim. Ümumi ağrıkəsicilər yazılmışdı. "UZİ" həkimi müayinələrin qiymətini baha oxudu. Səbəbini soruşdum. Saçları ənsəsində xoruz pipiyi kimi qızaran oğlan dedi ki, dayı, bu importnu aparatları öz şotuma gətirtmişəm. Orqanları super göstərir. Tanış əczaçılar dəfələrlə işlətdiyim "Ketanol", "Voltoren", "Novalis" qutularını çantama doldurub vurdular qoltuğuma. Həbləri atdım, iynələri vurdurdum, xeyri olmadı. Köhnə hamam, köhnə tas! Bəlkə dərmanlar saxtadı? Deyirlər ki, Bakının podvallarında doldururlar. Yanmayan yerdən tüstü çıxmaz. Əldə düzəltmə olsa da eybi yoxdu, az-maz təsirini göstərər. Amma narazılığım əlli min rubla AMİ-ni qurtaran həkimlərdəndi ki, diaqnozları dəqiq olmur. Xəstəni ram etməkçün minbir cildə girirlər.

Xirosima və Naqasaki şəhərlərinin həresində bir atom bombası partladı. Yüz minlərlə insan dünyasını dəyişdi. Bombaların partlayışından yaranan vakum, sərt iqlim dəyişikliyi "Ozon qatından" yan ötmədi. Bu təbii qorunma qatının, özəyi, səthi də müxtəlif dərəcəli zədələr aldı. Az sonra "Çernobıl" atom-elektrik stansiyası qəzaya uğradı. "Ozon qatı" müqavimətini bir az da itirdi. Ərazilərini müharibə, istila yoluyla genişləndirmək istəyənlərin sayı xeyli artdı. Silah zavodlarının bacalarından "Ozon qatının" dəyirmanına su yox, bol-bol qaz birləşmələri axıdıldı, istiləşmələr gücləndi.

Xəstəlik çəlləkdə şərab deyil ki, saxlandıqca suyu çəkilib tündləşsin! Özbaşına buraxılan viruslar saatlarla yox, saniyələrlə, özü də həndəsi silsiləylə çoxalır, pəhləvan cüssəli insanları iynədən keçən sapa döndərir.

-Naftalana ver özünü. "Çinar" sanatoriyasının həyətinə ki, girdin, müalicələr başlayır. Özü də təbii vasitələrlə aparılır a! Küknar, qovaq ağaclarının altında şırıltıyla axan arx sularının gah eşidilən, gah da qeyb olan həzin səsi palataların açıq pəncərələrindən içəri dolur, xəstələrin yuxularını şirinləşdirir. Budaqlarda pıçıldayan yarpaqlar yuxusu qaçan xəstələri nağıl dünyasına qovuşdurur. Bağ-baxçanın ağacdələnləri də sanitar işini görürdedi, bura tez-tez gəlib-gedən bir tanışım. Neyləyəydim, adam çarə-əlac ümidiylə yüz yerə əl atır, imkanı olan dünyanın o başına gedir.

Dəmir darvazanın dingilbabisini tıqqıldatdım. Qapı açıldı. İçəridən qəribə ətirli, yumşaq bir külək çırpıldı üzümə. İki-üç addımla ağ, sarı, çəhrayı zambaqların divarına dirəndim. Boyları məndən də uca zambaqlar əyilib-düzəlir, başımı sığallayırdılar. Nədi bu, ilahi! Rəhmətlik Fizuli babamın "Heyrəti, ey büt, sürətin gördükdə lal eylər məni" misrası səsləndi qulaqlarımda. Şirin, təlx qoxu burnumu sancır, ürəyimi uçundururdu. Sinə dolusu iki ağız asqırdım. Başım- beynim ayazıdı. Göz qapaqlarım qalxır, qaşlarımın çəpərlərini sökürdü. Dilimi dodaqlarımın üstündə gəzdirdim. Bu nədi? Quruluq, acılıq nə təz yoxa çıxdı! Zambaq ətirli, zambaq şirəli hava qara ciyərimdə ödün axarını sabitləşdirib, zəqqutun kimi acı dilim-ağzım bal dadırdı. Dostumun dedikləri təsdiqləndi. Burda müalicələr həyətə ayaq basdığım andan başladı.

Böyük zəhmətin bəhrələri görünürdü həyətin hər qarışında. Yamaclar, dərələr, təpələr doluydu zambaqnan. Dəmir reşotkalar uzandıqca zambaq plantasiyaları da uzanırdı. Maşın yoluna yaxın yerlərdə zambaqlar şeypur başlarını raşotkaların üstündən aşırıb, asfaltın yapışqan buxarını, avtomobillərin qluşitellərindən asqıra-asqıra çıxan tüstü topalarını öz zərif qoxularıyla zambaqlaşdırırdılar. Çox güman ki, təcrübəli bir aqranom-mühəndisin əliylə yüz dəfə ölçülüb, bir dəfə dəqiq biçilib ağacların dibləriylə axan arxların yolu. Torpağın qarın verən yerindən çıxan, qabığı ayaqlar altında soyulmuş, yaralı köklərə tənzif kimi sarılan sular, travmatoloq həkimlərin işini görürdü. Arxın divarlarına çapa-çapla çırpılan dalğalar qaval şapbıltılarını xatırladırdı. Oynaq ritmlərin əks-sədaları cığırlar, keçidlər boyu kreslolarda dincələn xəstələrin sümüklərinə düşür, ruhlarını dingildədirdi. Dərmanlar şiprislərdə köhnəlir, həblər qutulardan çıxmırdı. Həyətin xırman kölgəli ağacları, suları qabığı sıyrılmış köklərə cuna kimi sarmanan arxlar da şəfqət bacıları, həkimlər kimi hörmətə minirdi gözümdə.

Qəbul otağında sənədlərini yoxlayan burnu batıq, qaboy səsli oğlan, xəstəlik kartımı, şəxsiyyət vəsiqəmi, labarator, rentgen kabinetlərinə icazə kağızlarımı da mənə tərəf uzadaraq başını arxaya fırlatdı. - Ay Gülnarə xanım, sən Allah, bələdçilik elə bu təzə qonağımıza, kabinetlərin yerini göstər- dedi. Necə, necə? Qonaq? Xalamgildə, dayımgildə "qonaq" çağrıla bilərəm. Ancaq burda... "Ay yolsuz, özünü dağa-daşa salma! Bİr dəfə başa düş ki, "Çinar" da "xəstə" "bil mar" kəlməsi işlənilmir. Lap əcəb eləyirlər. Yeri var! Əsəbləri qıcıqlandıran "xəstə", "patsient" sözlərini qəsdən işlətmədi qaboy səsli oğlan da. Xəstəyə xəstə olduğunu tez-tez başına çırpmaq, yetişməmiş çibana neştər vurmaqdı. Qaboy səsli oğlan həkimlərdən daha artıq həkimlik eləyir, xəstələrin əsəblərini qoruyurdu.

Bəzi kabinetlərə növbəsiz idi giriş. Həkimlər üz-gözümə diqqətlə baxır, "səndə heç nə yoxdu" deyib, kağıza qol çəkir, qovluğu qoltuğuna dürtürdülər. Ancaq kordioloq Vəfa xanımın qapısında uzun növbə gördüm, qanım qaraldı. Bu görüşü sonraya saxladım.

Vaxt itirmək büzdümümlə omba sümüyümün arasında oturuşmuş bakteriyaların əlinə drel, külüng, lom verib dağıntılara imkan yaratmaqdı. İnzibati binaya tələsirdim mən də! Amma Allah uzaq eləsin, ağzımdan küləklər aparsın! Kaş buranın həkimləri əlli min rubla Amini (Tibb Universitetini), bitirdikdən sonra da iynə vurmağı bacarmayan üzüqara, həkimlərdən olmayaydı. Amma allahçına danışsaq, elə o vaxtlarda da ali məktəblərə öz başıyla girənlər az deyildi.

Yolum Qovaq ağaclarının altından keçirdi. Havarəngi kombinizonun ətəyi dizlərini tutan gülərüz oğlan uzun saplı süpürgəni, özündən iki-üç metr irəli ataraq sağa, sola tovlayır, dəvə pəncəsini xatırladan yarpaqları süpürgənin ucuyla qarşısındakı xəzəl topasının üstünə oturdurdu.

Əlimlə darvaza tərəfi göstərib: -Orda da küknarların, çinarların altında da xəzəl topaları var. Sonra bunları yandıracaqsız, eləmi? Tüstü boğacaq xəstələri. Oğlanın dodaqları qaçdı. Dişlərini sanamaq olardı. Baxışları əlimdəki qovluqda dondu. -Təzə gəlmisiz eləmi?

-Lap təzə! -Ancaq ay qonaq müəllim, bax, o göydə - deyərək, əlini başı üstünə qaldırdı. -Hə, o göydə bir "Ozon qatı" deyilən şahə var. Əgər yandırsam... Şair Səməd Vurğunun vəsiyyət məktubundan xəbəriniz var, yəqin ki!

-Siz ədəbiyyatçısınız?

-Xeyr. Botanikəm! Çəyirdəksiz bitkilərin genetikası üzrə elmlər namizədiyəm. Atam məni daş binaların içində labaratoriya rəhbəri qoydurmuşdu. Xoşuma gəlmədi. Amma burda suda balıq, göydə quş kimiyəm. Ərazidə çoxlu şabalıd, palıd ağacları var. Payızın axırlarında meyvələri yerə tökülür. Mən meyvələri çuvallara doldururam. Zambaqların bürümüş ləçəklərini, qurumuş çör-çöplərini də xüsusi qutulara yığıb Bakıdakı Baş apteklər idarəsinə yollayıram. O idarədən də sanatoriyanın büdcəsinə xeyli vəsait daxil olur. Bəhrəm direktor bağban Mədət kişiyə, mənə də hər ay premya verir. O, əlini xəzəl topasının üstünə qoydu. -Bu xəzəlləri də yandırmaram. Niyə? Birinci ona görə ki, tüstülər o başı bəlalı "Ozon qatı"nı didib, dağıtmasın, biz də istiləşmələrdən əziyyət çəkməyək. Yandırmayacam, bir də ona görə ki, xəzəllərə ikinci həyat verəcəm mən -dedi.

**(ardı var)**

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 3 (2377) 26 yanvar 2023-cü il

# DOĞMA OCAĞIN İSTİLİYİ






**Hər bir insanın öz yurdu, öz evi və öz ocağı var. Və həmin yurd da, ev də, ocaq da istiliyi ilə həmin insana bir rahatlıq, bir ruh sakitliyi gətirir. Ən azndan ona görə ki, heç kəs öz evində, öz yurdunda, öz ocağında tapdığı rahatlığı başqa yerdə tapa bilmir. Hətta doğma qardaşının, bacısının evində belə öz ocağında olduğu kimi rahat qala bilmirsən. İçində həmişə bir narahatlıq və yurd yeri sıxıntısı olur.**

Füzuli rayonun əhalisi də 1993-cü ilin avqustun 23-də erməni işğalı zamanı öz yurdyuvasından pərən-pərən düşdü. 120 min əhalisi olan rayon camaatı Azərbaycanın digər bölgələrində məskunlaşdılar. Yenə çox sağ olsun dövlət və öncə də Ulu Öndər Heyər Əliyev 1 milyon qaçqına arxa durdu və kömək göstərdi. Ən çətin vəziyyətdə belə insanlar Prezident Heydər Əliyevin dəstəyini hiss etdilər və gördülər. Gördülər ki, nəinki Füzuli camaatının, eləcə də 1 milyondan çox məcburi köçkün və qaçqının yerləşdirilməsi, yaşayışı, qida ilə təmin edilməsi dövlətin əsas vəzifəsi oldu. Xalq da gördü ki, bu ağır, məqşəqqətli gündə dövlət onun yanındadır. Təbii ki, belə bir şəraitdə insanlar yaşamağa məcbur oldular və eyni zamanda ümidlərini də üzmədilər. Çünki 1994-cü ilin yanvarın 4-də və 5-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 yaşayış məntəqəsini və Horadiz şəhərini erməni işğalından azad etdi. Bu torpaqlar, kəndlər işğaldan azad edildəndən sonra, qısa zaman kəsiyində həmin yerlərdə quruculuq-bərpa, tikinti işlərinə başlanıldı. Hətta Horadiz kimi şəhəri ermənilər yandıraraq elə bir günə qoymuşdular ki, orada bir yaşayış mənzili belə qalmamışdı. Başqa sözlə demiş olsaq, erməni cəlladları Horadizin daşını daş üstə qoymamışdılar. Bu isə o deməkdir ki, işğaldan aza olunmuş yaşayış məntəqələri, kəndləri və eləcə də Horadiz şəhəri yenidən tikilməli idi.

İşğaldan azad olunmuş yaşayış məntəqələrindən biri də qədim tarixə və mədəniyyətə malik Babi kəndi idi. Bu kəndin çox zəngin keçmişi vardır. Bu barədə tarixçilər müxtəlif elmi mənbələrdə öz fikirlərini səsləndiriblər. Təkcə XII əsrə məxsus türbəni xatırlamaq nəyə desən dəyər. Erməni faşistləri bu türbənin müəyyən hissələrini də dağıtmışdılar. İşğaldan sonra digər mədəniyyət abidələri kimi Babidəki türbə də bərpa olunaraq öz əvvəlki görkəminə salındı. Hətta deyilənə görə, həmin türbədən Cənubi Azərbaycana yeraltı yol da var. Və bunun nə dərəcədə həqiqət olub, olmadığını mütəxəssislər daha dəqiq deyə bilərlər. Bizsə deyə bilərik ki, Babi kəndi işğaldan azad olunandan sonra orada çox böyük tikinti-quruculuq işləri görüldü. Bütün infrastruktur yenidən quruldu. Kəndə asfalt yol, təbii qaz, su və işıq çəkildi, məktəb, uşaq bağçası və digər sosial obyektlər əsaslı surətdə yenidən tikildi. Ermənilərin xarabalığa çevirdiyi kənd bir neçə ilin ərzində dövlət tərəfindən yüksək səviyyədə yenidən tikərək, əhalinin istifadəsinə verdi. Elə bundan sonra da yurd yerinə qayıdış başladı. İnsanlar gəlib gördü ki, onların yandırılmış, dağıdılmış evləri yenidən tikildi. Bu isə o demək idi ki, bu kənddə hər kəs öz evinə köçüb, rahat yaşaya, işləyə və ömür sürə bilər. Artıq məktəb, uşaq bağçası, xəstəxana və bayaq dediyimiz kimi, digər sosial obyektlər tam fəaliyyət göstərirdi. Təbii ki, belə şəraitdə işləmək və yaşamaq da kənddə çox asan idi.

Biz Babi kəndinə yolumuz düşəndə həmişə oradakı çayxanada bir stəkan çay içməmiş rahat olmuruq. Bu dəfə də yolumuz yenidən bu qədim və zəngin keçmişi olan kəndə düşdü. Düzdü, hava soyuq idi və bir az da qar yağmışdı. Amma insanların səmimiyyəti və istiliyi bu soyuqluğu aradan götürür, çox doğma bir münasibət yaradırdı. Çayxanada tək çay verilmirdi, həm də müxtəli xörəklər bişirilib satılırdı. Bizim gəldiyimizi görən bir neçə sakin əyləşdiyimiz masanın ətrafına yığışdı. Heç 3-4 dəqiqə keçmədi ki, kəklikotudan dəmlənmiş çayı çayçı süfrənin üstünə qoydu və sonra da zarafatla dedi:

- Bu çay sizin Bakıda içdiyiniz çay kimi deyil ey! Bir qurtum için, görün necə də gözəl ətri var?! Öz dağlarımızdan yığılan kəklikotudan dəmləmişəm. Bütün dərdlərin dərmanıdır!

Armudu stəkana süzülmüş çaydan bir qurtum içirik, doğrudan da görürük ki, çox dadlıdır. Üstəlik stəkanı axıra qədər içirik. Çayın ətri hər tərəfi bürüyüb, sanki elə bil dağların qoynundayıq. Masamızın arxasında əyləşmiş bir neçə Babi sakini də bizimlə söhbətə qoşulur. Nəcəf Məmmədov deyir ki, bizim kəndimiz həm qonaqpərvərdir, həm də ruzulu-bərəkətli. Heç bir qonağı biz buradan çörək yeməmiş buraxan deyilik. Bax, səhər-səhər burada bütün yeməklər var: xaş, xəngəl, bal-yağ və eləcə də kənd yumurtası. Hansından desəniz, çayçı gətirib masanın üstünə düzəcək. Bir-iki stəkan çay içəndən sonra bir də görürük ki, çayçı masanın üstünə həmin yeməkləri düzüb, özü də Nəcəf kişi deyir ki, hesabı da özüm verəcəm. Çünki, kəndə qayıdandan sonra hər cür imkanımız var. Bax, mənim özümün 70-ə yaxın qoyun-quzum, 10-15 də qara malım var. Üstəlik də onlardan hər gün nə qədər süd sağılır. Süddən qatıq, pendir, yağ, şor düzəldir,satığımızı satırıq, satmadığımızı özümüz yeyirik, artıq da qalanda qonaq-qaraya pay veririk. Bax, onda elə bil ki, özümüz də mənən rahat oluruq.

Nəcəf kişi yanınakı dostunu da bizə təqdim edir. Deyir ki, bu da Əhməd Məmmədovdur. 10 hektar torpaq sahəsi icarəyə götürüb, orda bostan-tərəvəz məhsulları əkir. Üstəlik də bir-neçə hektar sahədə yonca toxumu səpərək, onu da becərir. Əhməd kişi də elə-belə adam deyil ha, səhərdən axşama qədər bal arısı kimi tər töküb işləyir. Həyətində 100-ə qədər hinduşkası, 200-ə yaxın toyuğu var. Onların yumurtalarını satmaqla yanaşı, həm də kəndimizin imkansız adamlarına pay verir.

Bu yaxınlarda oğlunu evləndirib, ona təzə ev tikdirib, üstəlik də bir maşın bağışlayıb. Maşallah, oğlu da fərəsətli uşaqdır. Atasına yaxından köməklik edir və əkin-biçin işlərini özü çiyninə götürür və istəmir ki, atasının yükü ağır olsun. İndi əlinizi süfrəyə uzadın, çörəyinizi yeyin! Biz də bir az qaymaq, bir az bal, bir az da yağı götürüb, çörəyin üstünə çəkirik. Çox dadılıdır və dadından doymaq olmur. Xaşı və xəngəli isə süfrəmizin arxasında əyləşmiş digər dostlar yeyirlər. Nəcəf kişi təzədən dillənir:

- Siz Allah, yumurtanın da dadına baxın. Bu yumurta Bakıdakı yumurtadan deyil ey. İstəyirsiniz deyim, qlazok eləsinlər.

- Narahat olma, Nəcəf kişi, elə qaynadılmış yumurtanın birini yeyirik.

Yumurtanın birini mən yeyirəm, birini də dostum Arif. Adama ləzzət eləyir, yumurtanın sarısı o qədər ləzzətlidir ki, dostum Arif birini də yeyir.

Nəcəf kişi onu da deyir ki, şükür Allaha, kəndimizdə hər cür şərait var, hamının evi-eşiyi, işi-gücü, bir sözlə, zəhmət çəkən adam onun bəhrəsini də görür!

**Başqa sözlə demiş olsaq, biz onu bir daha yəqin etdik ki, doğma ocağın istisini heç bir başqa yurd verə bilməz. Bunu bizimlə söhbətində neçə-neçə Babi kəndinin sakinləri dedilər. Onlar dedilər ki, biz yurda qayıdışdan sonra ikinci bir ömrü yaşayırıq. Buna görə Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə minnətdarıq. İndi Günəş bizim yurdda doğur və bu Günəş bizim yurda həmişə istilik gətirəcək!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

# Ağ səhnə və səyyah adam

**(Aktyor Amid Qasımov haqqında)**

***Deyirlər ki, aktyorlar daxilən axtarışlarla yaşayan insanlardı. Onlar ən sadə obrazda belə həmişə gözlənilməzliklər etməyə çalışan insanlardı. Aktyor həyatı da səyyah həyatına bənzəyir. Səyyah maraqlı hadisələrlə və nadir tapıntılarla qarşılaşmaq üçün dünyanı gəzir, aktyor da yaddaşlara yazılmaq üçün bu sənətin dərinliyinə baş vurur. Hə, bilirsənmi bu dərinliklərdə eniş də var, yoxuş da***

***Hələ bir də qiraət sənəti var   Qiraətçilər həmişə sakit təbiətli görünürlər. Onlar, sakit axıb adamın ruhunu oxşayan çaya bənzəyirlər. Aktyor səhnədə rolu yaşayır, qiraətçi isə hisləri danışıqla göstərir.***

***Bu iki sənəti özündə birləşdirən insanlar da var ki, onları anlamaq üçün biraz onlara bənzəmək gərəkdir. Onları anlamaq istəyirsənsə, mütləq öz ruhunu onlara bənzətməlisən.***

***Düşünürsən ki, bu mümükün deyil. Əslində elə deyil,həmin adamı göz qırpmadan dinləmək, diqqətlə seyr etmək azacıq da olsa onu anlamağa yardımçı olacaq. Bu anda adama elə gəlir ki, labrintə düşür. Və heç vaxt qarşısındakı adamı anlaya bilməyəcək. Təbiətən bir- birilə tərsmütənasib olan bu iki sənət əslində ruhən əkizdi. Bu iki çətin peşənin məsuliyyətini dərk edən insanlardan biri də Amid Qasımovdur.***

***Aktyor  kimi teatr səhnəsində öz sözünü deyən Amid bəyin qiraəti də tamaşaçı diqqətindən kənarda qalmır. Onun ifasında hansı mətni dinləyirsənsə, həmin mətnə aşiq olursan. Əslində qiraətçilər də ifa etməyin rəssamıdılar.***

***Qiraətçi öz ifasında mətni real rənglərlə bəzəməlidir. Amid Qasımov öz qiraətində dinləyiciyə dinləyicinin istədiyindən də artıq hislər çatdıra bilir. Hə, biraz da payız küləyinə bənzəyir qiraəti   Soyuq görünər ifası, adamı üşüdər  Maraqlıdır  Düşündürücüdür   Hə, vallah, nə yalan deyim axı, biraz da labrintsayağıdır.***

***Bəzən elə görünür ki, Amid bəy qiraətində həmin şeirin müəllifi ilə söhbətləşir. Hələ insan düşüncəsini dağadaşa çırpan qiraətdəki  fon musiqiləri demirəm. O biraz qəliz məsələdir. Hər səssizlik bir ”mesaj”dır. Onun da qiraəti səssizliklə doludur.***

***Amid Qasımov aktyordur, həm də ideası, estetikası və fəlsəfi anlamı ilə bütün teatrlardan fərqlənən YUĞ Teatrının aktyorudur.  Bu teatrın aktyoru olmaq da istedadın göstəricisidir. Çoxlarının qəbul edə bilmədiyi, dərk etmədiyi və anlamadığı, ancaq olduqca fərqli idealarla yaşayan bir teatrın səhnəsində neçə- neçə obrazla sevilmək istedadlı aktyorun işidir, həm də haqqıdır.***

***Musiqi duyumu  da heç diqqətdən qaçmaz. İstər hər hansı bir tamaşa üçün, istərsə də qiraət üçün ab-havası gözlə görüləcək qədər real musiqilərə üstünlük verir. Bu da insanı romantizmdən qoparıb, realizmə kökləyir. Bu tip musiqilər isə insan daxilindəki təlatümün mütləqiyyətindən xəbər verir.***

***Həyat adlı səhnədə 41-ci mətni oxuyan aktyor -qiraətçi var-Amid Qasımov.***

## Tacir  Şahmalıoğlu: “Toyuma heç bir müğənni gəlmədi”



**Məşhur müğənni Tacir Şahmalıoğlu ”Rəngarəng” proqramında keçmişi vərəqləyib.**

Adalet.az xəbər verir ki, müğənni aparıcının ”Evlənmə il dönümü tarixi yadınızdadır?” sualına geniş cadab verib:

”O günü unuda bilmərəm. 17.12.1995-ci il idi. Təxminən bir metr qar yağmışdı. Yollar bağlandı,  heç kəs toya gələ bilmədi. Təkcə rəhmətlik Elçin Cəlilov  və Nadir Bayramlı gəlmişdilər. İnanın ki, məcbur qalıb toyda özüm oxudum”.

**Əntiqə**

# Erməni cizgi filmi dünyanın 25 ən yaxşı filmi arasında: Mövzu saxta soyqırım

**İndi də ermənilərin çəkdiyi cizgi filmi dünya gündəmindədir.**

Adalet.az xəbər verir ki, kino və televiziya xəbərləri orqanı olan ”Irish Cinephile”-nin məlumatına görə, rejissor İnna Sahakyanın ”Avrora şəfəqi ” (Aurora's sunrise) cizgi filmi 2023-cü ilin 25 ən yaxşı filmi sırasındadır.

Avrora şəfəqi” animasiya həm də sənədli filmdir. Film guya qondarma erməni soyqırımından xilas olunan Arşaluys (Avrora) Mardiqanyanın keçdiyi ”acı” həyat yolu haqqındadır. Filmdə onun Hollivud səssiz filminin ulduzuna necə çevrildiyi təqdim olunur.

Ermənistan-Almaniya-Litva birgə filmidir (istehsal şirkətləri: ”Bars Media”, ”Gebrueder Beetz Filmproduktion”, ”Artbox Laisvalaikio Klubas”) film bir neçə ölkədə nümayiş olunub və mükafatlar qazanıb. Filmin Hindistanda premyeraları yanvarın 20-21-də olacaq.






Qeyd edək ki, rejissor Armine Andanın ”Uçan yarpaqların mahnısı” qısametrajlı cizgi filmi 2023-cü ildə dünya premyerasından sonra doqquz ay ərzində 45 kinofestivalda iştirak edib və doqquz mükafat alıb.

2024-cü ilin yanvar ayında film ”Horizonts” Paris Beynəlxalq Animasiya Festivalının müsabiqə proqramına və Portuqaliyada keçirilən ”IndieJunior Porto” beynəlxalq uşaq filmləri festivalının müsabiqəsinə daxil edilib. Bu barədə Ermənistan Milli Kino Mərkəzi məlumat verir və xatırladır ki, film Ermənistan Respublikasının Təhsil və Mədəniyyət Nazirliyindən dövlət maliyyə dəstəyi alıb. ”Uçan yarpaqların mahnısı” Ermənistanın ”Hoşki Film” və İranın ”Huraxsh Studioz” şirkətlərinin birgə istehsalı olan ilk erməni-İran animasiya filmidir. Rejissorla birlikdə filmin ssenari müəllifi məşhur ukraynalı erməni rejissor Roman Balayan, bəstəkarı Mikayel Oskanyan, quruluşçu rəssamı Anna Akopyan, rolları Armine Anda və Qaqik Qazare ifa edir.

***P.S.** Ay Allah kaş biri gedib  Azərbaycan Kinematoqrafçılar İttifaqını yuxudan oyadaydı. Çünki sonuncu dəfə Kinematoqrafçılar İttifaqının Kino Məktəbinin tələbəsi Gülnar Əliyevanın ”Sərçə” cizgi filmi İtaliyanın Neapol şəhərində keçirilən Beynəlxalq Qısa Filmlər Festivalında nümayiş olanacağı ilə bağlı xəbərdən sonra bu sahədə bir uğurlu xəbərə rast gəlməmişik.*

***Camaatın uşaqları üçün çəkdiyinə bax: mövzu saxta  soyqırım...  bizimkinə bax, ”Sərçə”...***

Əntiqə Rəşid

## Əlikram Bayramov: “Sənin bu sözündən sonra...”



**Əlikram Bayramov və Namiq Fərhadoğlu arasında efirdə gərgin anlar yaşanıb.**

Adalet.az xəbər verir ki, Ə.Bayramov satışa çıxartdığı avtomobilinin qiymətini efirdə açıqlayıb.

Müğənninin oğlu Qalib Bayramov maşını 40min ABŞ dollarına satdıqlarını söyləyib. Namiq Fərhadoğlu isə o qiymətin baha olduğunu qeyd edib:

” Bahadır. Baha deyirsən. O maşına 40min dollar çoxdur. Mən maşın xəstəsiyəm. Baxan kimi bilirəm qiyməti bahadı yoxsa yox”.

Bu sözlərdən qəzəblənən Ə.Bayramov N.Fərhadoğlunun üstünə səsini qaldırıb:

”Namiq, o maşına çox xərc çəkilib. Niyə qiyməti endirirsən?! Belə danışma. Sənin bu sözündən sonra alıcıların ürəyinə xal düşəcək”.

## Meyxanaçı: “Onunla duet oxumaram”

**Məşhur meyxanaçı Tərlan Novxanı kiminlə duet oxumayacağını açıqlayıb.**



Adalet.az xəbər verir ki, meyxanaçı müğənni Nəfəslə duet oxumayacağını bildirib:

”Nəfəslə duet oxumamışam. Heç oxumaram da.”

Aparıcı Zaur Nəbioğlu məsələnin səbəbini soruşub. Lakin meyxanaçı heç bir əsas gətirmədən, sadəcə oxumaram deyib.

## Canan: “Atam sevdiyi qızın adını mənə qoyub”

**Gənc ifaçı Canan adı ilə bağlı maraqlı məqama toxunub.**

Adalet.az xəbər verir ki, müğənni əsl adının Gülnar olduğunu söyləyib:

”Canan əsl adım deyil. Atam mənə sevdiyi qızın adını qoyub. Əsl adım Gülnardı. Ancaq anam heç vaxt məni o adla çağırmayıb. Həmişə mənə Canan deyib. Elə lap körpəlikdən də adım Canan qalıb”.

## Qumral: “Hər gün evdə xörək bişirirəm”

**Bloger Qumral öz həyat tərzini efirdə müzakirə edib. Adalet.az xəbər verir ki, o, həyat yoldaşına və övladlarına qayğısını əsirgəmədiyini söyləyib:**



”Desəm ki, yoldaşıma hər gün səhər yeməyi hazırlayıram, bu, yalan olar. Yoldaşım səhər yeməyi üçün evdə nə varsa və ya özü üçün yüngül nəsə hazırlayıb yeyir. Ancaq gün ərzində hər gün mütləq evdə yemək hazırlayıram. Uşaqlarım və yoldaşım evdə isti xörək yeməlidir. Ailəmə həmişə qayğı göstərirəmş- Çünki mən bir ana və həyat yoldaşıyam”,

## Dana Durdana ailə qurmaq istəyir

**Məşhur müğənni, rəqsləri ilə yadda qalan Dana Durdana maraqlı açıqlaması ilə gündəm olub.**



Adalet.az xəbər verir ki, müğənni 3-cü dəfə ailə qurmaq istədiyini etiraf edib: ”Bilirsiniz mənim 38 yaşım var. Bəlkə də mən yaşda çox insan hələ subaydır, ailə qurmayıb. Ana mənim böyük oğlumun 20, kiçiyin isə 12 yaşı var. Zaman keçəcək onlar böyüyüb bir ailə sahibi olacaqlar. İnsan istəmir qocalanda tənha qalsın. Ona görə də özümə uyğun bir insanın yanımda olmasını istəyərəm. Bunun nəyi pisdir ki?  Tək qalmaq, tənhalıq çox pisdir. Həm də insanın yaşlı vaxtında ona bir həmdəm lazımdır.”

## Almaxanım: “Anama deyirəm ki, mahnım trendə düşüb”

**Gənc xanəndə Almaxanım Əhmədli bu dəfə də maraqlı açıqlaması ilə yadda  qalıb.**

Adalet.az xəbər verir ki, o, ”El canlı” proqramında qonaq olarkən mahnısının trendə düşməyindən danışıb:

”Anama deyirəm ki, mahnım trendə düşüb. Deyir ki, trenddə ”Yalı Çapkını” dır axı. İzah edirəm ki, musiqi bölməsinə bax”. A. Əhmədlinin bu açıqlaması veriliş iştirkaçılarını xeyli güldürüb.

**ƏNTİQƏ**


| | | | | |
|---|---|---|---|---|
| **Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS<br>**Baş redaktor:** İradə TUNCAY | Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.<br>Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. | **KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**<br>kod: 200112 h\h<br>Müxbir hesab: 0137010001994<br>S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161<br>**İndeks:0107 Qeydiyyat nömrəsi 100** | Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.<br>**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**<br>**adaletqezeti@rambler.ru adaletqezeti@mail.ru, adaletqezeti@box.az** | **Tiraj: 1500**<br>**Sifariş: 164**<br>Çapa imzalanmışdır: 25.01.2024 |